BAKI AVRASİYA UNİVERSİTETİ
Elmi-nəzəri jurnal

SİVİLİZASİYA

ЦИВИЛИЗАЦИЯ

CIVILIZATION

"Sivilizasiya" jurnalı Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında Tarix; Siyasi elmlər; Fəlsəfə və Sosiologiya; Filologiya; Pedaqogika üzrə elm sahələrinə daxil edilib.

Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir

Jurnal ildə 4 dəfə nəşr edilir

Cild. 14 №5 2025 (66)
Vol. 14 №5 2025 (66)
Том. 14 №5 2025 (66)

BAKI – 2025

Təsisçi
Bakı Avrasiya Universiteti

Baş redaktor
F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu

Baş redaktorun müavini
S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı

Məsul katib
Fil.ü.f.d., prof. Şıxıyeva Səadət Məmməd qızı

REDAKSİYA HEYƏTİ

Tarix və siyasi elmlər üzrə:

Prof. Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.ü.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
T.ü.f.d. Rüstəmova Aybəniz Vilayət qızı
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
S.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

Fəlsəfə və sosiologiya elmləri üzrə:

Prof. Dr. Suat Günsel (KKTC)
Prof. Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.ü.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
F.ü.f.d., dos. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

Filologiya elmləri üzrə:

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Hikmət Koraş (Türkiyə)
Akad., fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Cəlilov Firudin Ağası oğlu
Fil.e.d., prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu
Fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu
Fil.ü.f.d., dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d., dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızı
Fil.ü.f.d., dos. Hüseynova Nigar Nazim qızı
Fil.ü.f.d., dos. Rzayeva Sevda Ramiz qızı
Fil.ü.f.d. Musayev Nəsrəddin Musa oğlu
Fil.ü.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

Pedaqogika sahəsi üzrə:

P.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlu
P.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlu
Ps.ü.f.d., dos. Cavadov Rövşən Əli oğlu

İqtisadi elmlər üzrə:

İ.e.d., prof. Veduta Yelena Nikolayevna (Rusiya)
Prof. Dr. Jose R.Hernandez-Carrion (İspaniya)
Doç. Dr. Faruk Mike (Türkiyə)
Dr. German Martinez Prats (Meksika)
İ.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlu
İ.e.d., prof. Məmmədov Elşad Yaqub oğlu
İ.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızı (şöbə redaktoru)

© Bakı Avrasiya Universitetinin nəşri, 2025

İ Ç İ N D Ə K İ L Ə R

FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

Mələkxanım İSMAYILOVA
Azərbaycan Respublikasında əhalinin sosial müdafiə sisteminin formalaşması.. 6

Pərvanə ABDIYEVA
Azərbaycanda sosial iş hədəfləri çərçivəsində könüllülük fəaliyyəti..... 16

Valida JAFAROVA
The Mechanism for Identifying Victıms of Human Trafficking in the Republic of Azerbaijan..... 24
.
Qu HANG
Digital Technology Empowers International Social Work..... 32

TARİX VƏ SİYASİ ELMLƏR

Sahib VƏLİYEV
Gədəbəy arxeologiyası: təhlili və təbliğinin əhəmiyyəti..... 41

Yaxşıxanım NƏSİROVA
Osmanlı hakimiyyəti dövründə Salmas bölgəsi (Osmanlı arxiv sənədləri əsasında)..... 50

Aynur KƏRİMLİ
1990-cı illər Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılması..... 57

Elvin ŞİRİNOV
Cənubi Qafqazın dəyişən təhlükəsizlik arxitekturası: Azərbaycan-Türkiyə strateji müttəfiqliyi kontekstində..... 64

Gülsurə ABDULRƏSULOVA
Çinin Cənubi Asiyada "İnci sap" strategiyası və dəniz siyasəti..... 74

Həvva ORUCOVA
Prezident İlham Əliyevin sülh strategiyasının konseptual əsasları..... 84

FİLOLOGİYA

Ləman OSMANOVA
Azərbaycan-türk xalq sufizminin yaranıb formalaşmasında Şah İsmayıl Xətai poeziyasının əhəmiyyəti..... 93

Aydan NAĞIYEVA
Fantastik ədəbi xronotopların kinomatoqrafik həlli yolları..... 102

Ayşən QARAXANOVA
Stefan Svayqın "Möcüzəvi gecə" əsərində personanın dağılması və ifadəsi..... 110

Tünzalə YUSİFOVA
Konsept sinkretik nəzəriyyələrin işığında..... 116

Zeynəb NAĞIZADƏ
Dil və təfəkkür arasındakı əlaqə..... 123

PEDAQOGİKA

Mehriban SƏRDAROVA
Azərbaycan Respublikasının təhsil strategiyasında milli-mənəvi dəyərlərin prioritetliyi..... 130

İQTİSADİ ELMLƏRİ

Hacı İSGƏNDƏROV
Dövlətin pul-kredit siyasətində əsas amillərə sistemli yanaşma..... 138

Nəzrin ƏDİLOVA
Yapon döyüş incəsənətinin idman menecmentinə təsiri və inkişafı..... 147

Simran HAJALIYEV
The Role of Communıty-Based Tourısm for Empowerıng Rural Azerbaıjanı Youth and Women Through Tourısm Entrepreneurshıp..... 154

Şəfəq QAYIBOVA
İdarəetmə prosesində kommunikasiya effektivliyinin artırılmasına sistemli baxış 165

Bizim müəlliflər..... 175

Düzəlişlər..... 177

Yazı qaydaları..... 178

Правила написания..... 180

Rules of writing..... 182

Yazı kuralları..... 184

FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

UOT 316.33:34

AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN FORMALAŞMASI

Mələkxanım İSMAYILOVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 21 sentyabr 2025; çapa qəbul edilmişdir: 30 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 21th of September, 2025; accepted: 30th of November, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *Azərbaycan, sosial siyasət, sosial müdafiə, pensiya, sığorta, qanunvericilik*

Giriş

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı postsovet dövründə milli dövlət quruculuğunun hüquqi əsasını təşkil edən fundamental sənəd olmuşdur. Sənədin 11-ci maddəsində Azərbaycan xalqının demokratik idarəçilik modelinə və hüququn aliliyinə sadiqliyi bəyan olunmuş, 23-cü maddədə isə ölkədə iqtisadi fəaliyyətin əsas prinsipi kimi bazar münasibətləri və sahibkarlıq azadlığı təsbit edilmişdir. Bu normativ hüquqi akt, Azərbaycanın suverenliyinin bərpa olunmasından sonra ilk milli Konstitusiyanın hazırlanması üçün konseptual baza funksiyasını daşımışdır (4).

Müstəqillik dövrünün ilk illəri mürəkkəb geosiyasi və sosial-iqtisadi şəraitdə keçmişdir. Ermənistanla hərbi münaqişə nəticəsində yaranmış Dağlıq Qarabağ problemi, genişmiqyaslı hərbi əməliyyatlar, nəticədə isə yüz minlərlə qaçqın və məcburi köçkün əhalinin formalaşması ölkədə kəskin sosial və iqtisadi böhrana səbəb olmuşdur. Müharibə əlilləri, veteranlar və digər sosial həssas əhali qruplarının mövcudluğu dövlətin sosial siyasətə aktiv müdaxiləsini zəruri etmişdir (1, s. 60).

SSRİ-nin dağılması ilə mövcud olmuş mərkəzləşdirilmiş planlı iqtisadi model iflasa uğradığından, postsovet Azərbaycanında iqtisadi münasibətlərin yeni – liberal bazar mexanizmləri əsasında təşkili məqsədilə müvafiq hüquqi və institusional islahatların həyata keçirilməsi zərurəti meydana çıxmışdır. Halbuki sovet dövründə dövlətin sosial siyasəti çərçivəsində vətəndaşlara dövlət hesabına təhsil, tibbi xidmət və müxtəlif güzəştlər təqdim olunurdu. Yeni şəraitdə isə sosial müdafiə sistemi üçün müstəqil milli qanunvericilik bazası demək olar ki, yox idi. SSRİ qanunvericiliyinin hüquqi qüvvəsini itirməsi və müstəqil dövlətin normativ-hüquqi çərçivəsinin hələ tam formalaşmaması şəraitində sosial təminat sisteminin yenidən qurulması prosesi başlanmışdır (9, s. 164-165).

Beləliklə, Azərbaycan Respublikasında sosial dövlət modelinin formalaşması prosesi müstəqillik dövrünün ilk mərhələsində prioritet istiqamətlərdən biri olmuşdur. Bu proses həm hüquqi-normativ bazanın təkmilləşdirilməsini, həm də sosial-iqtisadi institutların yenidən təşkilini nəzərdə tutan kompleks tədbirləri əhatə etmişdir.

* *doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
e-mail: melekxanim22@mail.ru
https://doi.org/10.30546/25194011.2025.14.5.3020

1. Sosial Müdafiə sistemində islahatlar

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət orqanları sosial təminatın strateji əhəmiyyətini dərk etsələr də, bu sahədə genişmiqyaslı və sistemli tədbirlərin həyata keçirilməsi üçün kifayət qədər maliyyə və inzibati resurslara malik deyildi. Sosial-iqtisadi böhran şəraitində dövlətin imkanları son dərəcə məhdud idi və bu səbəbdən sosial müdafiə tədbirləri əsasən minimum ehtiyacların qarşılanması ilə məhdudlaşırdı. Bu dövrdə sosial təminatın mühüm istiqamətlərindən biri olan məcburi köçkünlərin müdafiəsi sahəsində əsas yük beynəlxalq təşkilatların (BMT, UNHCR, UNICEF və digər donor qurumlarının) üzərinə düşmüşdür. Qeyd olunan qurumların humanitar dəstəyi nəticəsində məcburi köçkün əhaliyə ərzaq yardımı, ilkin tibbi xidmət və müvəqqəti sığınacaq təmin edilmişdir. Lakin bu yardımlar sistemli sosial müdafiə strukturlarının əvəzləyicisi kimi çıxış edə bilməmiş və problemin institusional əsaslarla həlli üçün dayanıqlı mexanizm yaratmamışdır.

Müstəqillikdən sonra sosial təminat sahəsində aparılan mühüm hüquqi islahatlardan biri də 23 sentyabr 1992-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış "Vətəndaşların pensiya təminatı haqqında" 305 nömrəli Qanunun qəbul edilməsi olmuşdur. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş sosial təminat hüququnun həyata keçirilməsinə zəmanət verən və dövlət tərəfindən idarə olunan vahid pensiya sisteminin hüquqi əsasını təşkil edən mühüm normativ hüquqi akt kimi çıxış edir.

Qanun vətəndaşlara yaşa görə, əmək qabiliyyətinin tam və ya qismən itirilməsi hallarında, habelə ailə başçısını itirdikdə maddi təminat hüququnu həyata keçirmək məqsədilə pensiya almaq hüququnu tanıyır. Bu hüquq yalnız Azərbaycan Respublikası vətəndaşlarına deyil, ölkə ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də şamil olunur.

Həmçinin, əmək fəaliyyəti ilə məşğul olan müxtəlif əhali qruplarının – fəhlələrin, qulluqçuların, kənd təsərrüfatı istehsalçılarının, fərdi sahibkarların və digər əmək kateqoriyalarının bərabər hüquqlarla pensiya təminatı əldə etməsinə hüquqi zəmanət verilir. Bundan əlavə, əmək qabiliyyətinə malik olmayan şəxslər üçün sosial pensiya almaq hüququ da qanunvericilikdə öz əksini tapmışdır.

Bundan əlavə, Qanun inflyasiya və yaşayış minimumu kimi göstəricilərdə baş verən dəyişikliklər nəzərə alınmaqla pensiya məbləğlərinin müntəzəm şəkildə yenilənməsi mexanizmini təsbit etmişdir ki, bu da pensiyaçıların sosial müdafiəsinin davamlılığını təmin etməyə yönəlmiş mühüm addım kimi qiymətləndirilir.

Qanun dolanışıq xərclərində baş verən dəyişikliklərə uyğun olaraq pensiya məbləğlərinin müntəzəm şəkildə tənzimlənməsi yolu ilə pensiyaçıların sosial müdafiəsinə təminat verir.

Qanunla vətəndaşlara aşağıdakı pensiyalar təyin edilir:

Əmək pensiyaları:

yaşa (qocalığa) görə,
əlilliyə görə,
ailə başçısını itirməyə görə,
xidmət illərinə görə,
sosial pensiyalar (14, s.100-102).

Bundan əlavə, müəssisə və təşkilatların sosial sığorta ayırmalarına və onların məqsədyönlü xərclənməsinə nəzarətin gücləndirilməsi, həmçinin əhalinin sosial müdafiəsi sahəsindəki paralel strukturların ləğv edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 1992-ci il tarixli və 233 nömrəli "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında" Fərmanı qəbul edilmişdir. Bu Fərmanla Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının

Sosial Sığorta Fondu bazasında Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu yaradılmışdır (2).

Həmçinin, Azərbaycan Respublikasının Prezidentinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması haqqında 10 dekabr 1992-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Sosial Təminat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Əmək və Sosial Məsələlər Komitəsi ləğv edilərək, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması ilə vahid nəzarət sistemi formalaşmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 fevral 1993-cü ildə 466 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında ilk əsasnamə təsdiq edilmişdir. Həmin əsasnamədə Nazirliyin fəaliyyət istiqamətləri, funksiyaları, vəzifələri, hüquqları əks olunmuşdur (5).

Yuxarıda qeyd edilən tədbirlərə baxmayaraq, həmin dövrdə son dərəcə mürəkkəb və çətin bir ictimai-siyasi və iqtisadi şərait mövcud idi. 1990-cı illərin əvvəllərində ölkədə dövlət idarəetmə sisteminin ciddi böhran yaşadığı, iqtisadiyyatın tənəzzülə uğradığı və sosial müdafiə strukturlarının fəaliyyət qabiliyyətinin zəiflədiyi müşahidə olunurdu. Belə bir şəraitdə, xüsusilə də Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi kimi qurumların funksional fəaliyyət göstərməsi mümkün deyildi.

2. Heydər Əliyevin hakimiyyət illərində sosial müdafiə sistemi

1993-cü ilin iyun ayında, ölkənin idarəçiliyinin çətin bir dövrə daxil olduğu və xalqın öz taleyini təhlükə altında gördüyü bir vaxtda, ümummilli lider Heydər Əliyev siyasi rəhbərliyə çağırılmış və ölkənin idarəçiliyini ona etibar etmişdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, idarəetmə sisteminin bərpası və iqtisadi-sosial sabitliyin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlanmışdır.

Ulu öndər, dövlət müstəqilliyinin qorunub saxlanması ilə yanaşı, əhalinin sosial rifahının yaxşılaşdırılmasını da milli siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Xüsusilə, aztəminatlı təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi, sosial bərabərliyin təmin edilməsi və vətəndaşların layiqli həyat səviyyəsinə çatdırılması Heydər Əliyevin sosial siyasətinin əsas hədəflərindən biri olmuşdur. Onun rəhbərliyi altında həyata keçirilən yeni sosial-iqtisadi strategiya, həm sosial sahənin bərpasına, həm də uzunmüddətli inkişaf üçün möhkəm təməl yaradılmasına imkan vermişdir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1993-cü il tarixli 32 nömrəli Fərmanı ilə inflyasiya şəraitində əhalinin sosial müdafiəsini gücləndirmək və sosial gərginliyi azaltmaq məqsədilə 1993-cü il noyabrın 15-dən etibarən Azərbaycan Respublikasında əməyin ödənilməsinin minimum məbləği 900 manat müəyyən edilmiş, pensiya, təqaüd və müavinətlərin minimum məbləğləri əməyin ödənilməsinin minimum məbləğinə uyğunlaşdırılması nəzərdə tutulmuşdur (7).

Əhalinin sosial müdafiəsi ilə bağlı qanunvericilik bazasının güclənməsi istiqamətində atılan növbəti mühüm addımlardan biri ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş ölkənin ilk Konstitusiyası olmuşdur. Həmin Konstitusiya yeni ictimai-siyasi sistemin hüquqi əsaslarını müəyyənləşdirərək, dövlətin sosial-iqtisadi vəzifələrini dəqiq şəkildə təsbit etmişdir.

Konstitusiyada təsbit edilən əsas müddəalardan biri iqtisadiyyatın müxtəlif mülkiyyət formalarına əsaslanaraq xalqın sosial rifahının yaxşılaşdırılması məqsədinə xidmət etməsidir. Bu, dövlətin sosial müdafiə sahəsində siyasətinin bazar iqtisadiyyatının prinsipləri ilə uzlaşdırılmasına və Avropa dəyərlərinə inteqrasiyasına əsaslandığını göstərir.

Xüsusilə Konstitusiyanın 16-cı maddəsində Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin olunmasının əsas vəzifələrdən biri kimi göstərilməsi, sosial dövlət anlayışının milli qanunvericilikdə əsas yer tutduğunu sübut edir. Bu müddəa həm də göstərir ki, inkişaf etmiş dövlətlərdə olduğu kimi, Azərbaycanda da iqtisadi siyasət insanın maddi, sosial və mənəvi ehtiyaclarının qarşılanmasına yönəldilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, sosial təminat vətəndaşların əsas hüquqlarından biri kimi tanınır. Sosial təminat anlayışı dedikdə, qanunvericilikdə nəzərdə tutulan hallarda – yaş həddinə çatdıqda, xəstəlik, əlillik, əmək qabiliyyətinin itirilməsi, ailə başçısının və ya iş yerinin itirilməsi və digər səbəblərlə çətin vəziyyətə düşmüş şəxslərə dövlət tərəfindən pensiya, müavinət verilməsi və sosial xidmətlərin göstərilməsi yolu ilə həyata keçirilən təminat tədbirləri başa düşülür (6).

Sosial müdafiə, vətəndaşların və ümumilikdə cəmiyyət üzvlərinin, müxtəlif sosial qrupların düçar olduqları köməksiz vəziyyətlərdən qorunmasını və ya bu vəziyyətlərdən çıxarılmasını təmin etməyi əsas məqsəd kimi qarşıya qoyur. Bu səbəbdən, sosial müdafiə preventiv (qabaqlayıcı) funksiyalarla təchiz olunmuşdur.

Sosial müdafiə ərzaq yardımı, kommunal güzəştlər və digər təbii yardımların təqdim edilməsini, əmək pensiyaları və müavinətlər kimi pul ödənişlərini, həmçinin sosial müdafiəyə ehtiyacı olan şəxslərə müxtəlif xidmətlərin göstərilməsini əhatə edir (15, s.23).

Beləliklə, sosial müdafiə – vətəndaşlardan asılı olmayan və ya az asılı olan, sosial təhlükəli vəziyyətlərin qarşısının alınmasına, onların yüngülləşdirilməsinə və nəticələrinin aradan qaldırılmasına yönəldilmiş tədbirlər sistemini ifadə edir (17).

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi sosial siyasət yalnız iqtisadi inkişafın nəticələrinə deyil, həm də hüquqi-normativ bazaya əsaslanaraq sosial ədalətin təmin olunmasına və əhalinin bütün təbəqələrinin sosial rifahının qorunmasına xidmət etmişdir. Bu siyasət, dayanıqlı və məqsədyönlü bir strategiya olmaqla, ölkədə güclü və inklüziv sosial müdafiə sisteminin qurulmasına şərait yaratmışdır (8).

Əhalinin sosial müdafiəsi sahəsində atılan mühüm addımlardan biri "Sosial sığorta haqqında" 18 fevral 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi olmuşdur. Həmin qanun Azərbaycan Respublikasında sosial sığorta sahəsində münasibətləri tənzimləyir, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Qanuna əsasən sosial sığorta hadisəsinə aşağıdakılar daxildir:

pensiya yaşına çatmaq;
əlillik;
ailə başçısını itirmək;
əmək qabiliyyətinin müvəqqəti itirilməsi;
hamiləlik və doğum;
uşağın anadan olması;
uşağa qulluq;
ölüm;
sanatoriya-kurort müalicəsi zərurəti (13, s. 172-174).

Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə təsdiq edilmişdir. Həmin Əsasnaməyə əsasən Nazirlik əhalinin sosial müdafiəsi, əməyin mühafizəsi, əməyin ödənilməsi və əmək münasibətləri, əmək ehtiyatlarından istifadə, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya problemləri sahəsində dövlət siyasətini və idarəetmə funksiyalarını icra edən mərkəzi icra hakimiyyəti orqanı olaraq müəyyən edilmişdir. Əsasnamənin 2-ci hissəsində Nazirliyin əsas və-

zifələri aşağıdakı kimi göstərilmişdir:

Əmək, pensiya təminatı, sosial müdafiə, demoqrafiya və miqrasiya sahəsində dövlət siyasətini hazırlamaq və həyata keçirmək;

Əmək qabiliyyətli əhalinin işgüzarlıq və təşəbbüskarlığının artırılması üçün zəruri şərait yaratmaq, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatlarda çalışan işçilərin əmək və sosial hüquqlarının qorunmasını təmin etmək;

İşsizliyin səviyyəsinin azaldılmasına, əmək bazarında zəif rəqabətli əhali qruplarının, xüsusilə gənclərin, çoxuşaqlı qadınların, qaçqın və məcburi köçkünlərin, əlillərin, şəhid ailəsi üzvlərinin, sərbəstləşdirilmiş işçilərin məşğulluğuna yönəldilmiş siyasəti həyata keçirmək;

Müvafiq icra hakimiyyəti orqanları, dövlət və qeyri-dövlət müəssisələri ilə birgə yeni iş yerlərinin yaradılmasına yönəldilmiş tədbirlər hazırlamaq, əmək ehtiyatlarını bazar şəraitinə uyğunlaşdırmaq məqsədi ilə peşə hazırlığı mexanizmini təkmilləşdirmək;

Əhalinin sosial müdafiəsi sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədi ilə təkliflər hazırlayıb müvafiq orqanlara təqdim etmək;

Əhalinin aztəminatlı təbəqələrinə dövlət yardımının tənzimlənməsi üzrə təkliflər hazırlamaq, tənha ahıl vətəndaşlara, əlillərə sosial-məişət xidmətini təşkil etmək;

Demoqrafiya, əmək və sosial müdafiə məsələləri üzrə elmi-tədqiqat və beynəlxalq əməkdaşlıq sahəsində işləri əlaqələndirmək;

Tibbi-sosial ekspertizanı, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını təşkil etmək, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların protez-ortopedik vasitələrlə təmin olunmasına köməklik göstərmək;

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi, əmək şəraiti, əməyin ödənilməsi, əmək münasibətləri, əməyin gigiyenası, əhalinin məşğulluğu, miqrasiya, sosial sığorta sahəsində qanunvericilik aktlarının icrasının təmin olunmasına dövlət nəzarətini həyata keçirmək (17).

Sosial müdafiə sahəsində atılan önəmli addımlardan biri də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən 17 iyul 2001-ci il tarixli 767 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"dır. Konsepsiya əhalinin sosial müdafiəsini gücləndirmək, vətəndaşların pensiya təminatını yaxşılaşdırmaq, pensiya təminatı sisteminin idarə olunmasını, pensiyaların müəyyən olunması və əhaliyə verilməsi mexanizmini təkmilləşdirmək məqsədi daşıyır (3).

Azərbaycan Respublikasında pensiya islahatı bu sahədə yeni hüquqi bazanın yaradılmasını, sosial sığorta haqlarının yığılmasının təkmilləşdirilməsini, pensiya ödənişlərinin ünvanlılığını və onların vaxtında vətəndaşlara çatdırılmasını təmin edən mexanizmin yaradılmasını, pensiya sistemində idarəetmə orqanlarının strukturunun yenidən qurulmasını istiqamətində işlərin aparılmasını nəzərdə tutulurdu. Həmin konsepsiyanın məqsəd və prinsipləri aşağıda qeyd edilmişdir:

Əhalinin sosial müdafiəsini gücləndirmək və onlara layiqli həyat səviyəsini təmin etmək;

Pensiya təminatı sistemini bazar iqtisadiyyatına uyğunlaşdırmaq və əhalinin rifah səviyyəsini artırmaq;

Pensiya və müavinətlərin ödənilməsində və idarəolunmasında sistemli şəkildə koordinasiya etmək;

Sosial sığorta və ödənişlər arasındakı əlaqəni uyğunlaşdırmaq;

Məcburi sosial sığorta ödənişlərinin bütün işəgötürən və işçilər tərəfindən ödənilməsi;

Vətəndaşların minimum yaşayış səviyyəsi ilə pensiyaların uyğunlaşdırılması;

Sosial təminat sisteminin idarə olunmasında aşkarlığı təmin etmək üçün ictimai

nəzarətin aparılması;

Məcburi sosial sığorta ödənişlərinin ödənildiyi zaman işəgötürən və işçilər arasındakı tariflərin mütənasibliyinin gözlənilməsi.

Konsepsiyada pensiya islahatının 2001-2005-ci illəri əhatə etməklə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Birinci mərhələdə pensiya təminatının qanunvericilik bazasının yaradılması nəzərdə tutulur. Bununla bağlı 2001-ci ildən başlayaraq "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası qanununun yeni redaksiyada işlənib hazırlanması, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası qanununa dəyişiklik və əlavələrin edilməsi, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası qanununun işlənib hazırlanması, habelə qeyri-dövlət pensiya fondları haqqında qanunvericilik aktlarının hazırlanıb təqdim olunması nəzərdə tutulur.

Pensiya islahatının ikinci mərhələsində pensiya sisteminin əsasını təşkil edən fərdi uçotun yaradılması üzrə işlərin aparılması vacib olmuşdur. Bu mərhələdə pensiya hesablamaları, vəsaitin yığımı və pensiyaların müəyyənləşdirilməsi sahəsində avtomatlaşdırılmış sistemin hazırlanması və tətbiqi təmin edilməli idi.

Üçüncü mərhələdə fərdi uçotun yaradılması ilə bağlı, əmək qabiliyyətli işçilərin gəlirləri və pensiyaların təyin edilməsi üçün zəruri olan digər göstəricilər barədə məlumat toplanması tələb olunurdu.

Dördüncü mərhələdə isə pensiyaların fərdi uçot sənədləri əsasında hesablanmasına başlanmalı idi (3).

Konsepsiyanın əsas mahiyyəti sığorta-pensiya və sosial yardım sistemlərinin ayrılması, həmçinin sığorta münasibətlərinə əsaslanaraq pensiya sisteminin qurulmasıdır. Bu dəyişikliklərin əsas elementi isə sosial sığorta haqlarının fərdi uçotuna əsaslanan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin yaradılmasıdır. Fərdi uçot sisteminin tətbiqi ilə əlaqəli əsas məqsəd, ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında birbaşa əlaqənin təmini olmuşdur.

Sosial müdafiə sahəsində qanunvericilik bazasının yaradılmasında mühüm hadisələrdən biri Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2002-ci il tarixli 781 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond) haqqında Əsasnamənin qəbul edilməsi olmuşdur. Həmin Əsasnaməyə əsasən Fondun Azərbaycan Respublikasında məcburi dövlət sosial sığortası, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olduğu qeyd edilmişdir. Həmçinin Əsasnamənin 2-ci hissəsində Fondun əsas vəzifələri qeyd edilmişdir, onlar aşağıdakı kimidir:

Dövlətin sosial sığorta siyasətinin istiqamətlərinə dair təkliflərin hazırlanması və bu siyasətin həyata keçirilməsində iştirak etmək;

Fondun büdcə layihəsini hazırlamaq və təsdiq olunmuş büdcənin icrasını təmin etmək;

Təşkilati–hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün hüquqi şəxslərdən, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən (sığorta edilənlərdən), eləcə də sığorta olunanlardan qanunvericiliklə müəyyən edilmiş miqdarda məcburi dövlət sığorta haqlarının toplanmasını təşkil etmək;

Öz səlahiyyətləri daxilində məcburi dövlət sosial sığortası, pensiyalar və pensiyalara əlavə olunan müavinətlər sahəsində qanunvericilik aktlarının tələblərinin yerinə yetirilməsinə və vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarəti həyata keçirmək;

Məcburi sosial sığorta vəsaiti və dövlət büdcəsi vəsaiti hesabına ölkədə bütün pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin maliyyələşdirilməsini həyata keçirmək;

Məcburi dövlət sosial sığorta vəsaiti hesabına aşağıdakı xərclərin maliyyələşdirilməsini təmin etmək:

"Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq əmək (sosial sığorta) pensiyaları;

könüllü (əlavə) sosial sığorta əsasında dövlət pensiyalarına əlavələr;

əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət (qanunvericilikdə müəyyən olunmuş dövr üçün);

hamiləliyə və doğuma görə müavinət;

uşağın anadan olmasına görə birdəfəlik müavinət;

qanunvericiliklə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət:

sığorta olunanların sanatoriya-kurort müalicəsi üçün xərclərinin tam və ya qismən ödənilməsi;

məşğulluq tədbirlərinin həyata keçirilməsi;

əlillərin sosial müdafiəsi tədbirlərinin həyata keçirilməsi;

dəfn üçün müavinət;

qanunvericilikdə nəzərdə tutulmuş digər xərclər.

Dövlət büdcəsindən ayrılmalar hesabına (transfer) sosial pensiyaların, aztəminatlı əhaliyə müavinətlərin və qanunvericilikdə nəzərdə tutulmuş digər müavinətlərin maliyyələşdirilməsini həyata keçirmək;

Qanunvericilik çərçivəsində özünün müntəzəm ödəmə qabiliyyətini təmin edən tədbirlər görmək;

Həmçinin qanunla nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək (17).

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" 4 avqust 2003-cü il tarixli 908 nömrəli və "Pensiyaların artırılması haqqında" 4 avqust 2003-cü il tarixli 909 nömrəli Fərmanlar da təqaüdçülərin sosial müdafiəsində mühüm rol oynamışdır. Belə ki, həmin Fərmanlarla təqaüdçülərin yaşayış səviyyəsini və rifah halının yüksəldilməsini təmin etmək istiqamətində önəmli addımlar atılmışdır.

Azərbaycan Respublikasının Pensiya İslahatı Konsepsiyasına uyğun olaraq, dövlət sosial sığorta sistemində islahatları sürətləndirmək, idarəetmə proseslərini təkmilləşdirmək və pensiyaların, eləcə də onlara əlavə edilən müavinətlərin müəyyən edilməsi və maliyyələşdirilməsini vahid dövlət pensiya sistemində birləşdirmək məqsədilə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli qurumlarının pensiya və müavinətlərin təyin edilməsi, ödənişlərin həyata keçirilməsi və maliyyələşdirilməsinə dair bir sıra funksiyaları Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna verilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2002-ci il tarixli 781 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"yə müəyyən dəyişiklik və əlavələr edilmişdir (10, s.178).

Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən sosial sahədə dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir və əhalinin sosial müdafiəsi sistemi təkmilləşdirilir.

3. İlham Əliyevin hakimiyyət illərində sosial müdafiə sistemi

Sosial müdafiə sferasında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ölkəmizdə yeni sosial müdafiə sisteminin yaradılmasının əsası hesab olunur. Həmin qanunlar sosial müdafiəyə ehtiyacı olan həssas əhali qrupları, o cümlədən aztəminatlı əhalinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun sosial müdafiəsinin yeni formada tətbiq edilməsini və həyata keçirilməsini təmin edir (15, s. 22).

Prezident İlham Əliyevin aztəminatlı vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə 21 oktyabr 2005-ci il tarixdə "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Bu qanun ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyir. Ötən dövr ərzində ünvanlı dövlət sosial yardımı mexanizminin təkmilləşdirilməsi məqsədi ilə müvafiq qanunvericiliyə bir neçə dəfə əlavə və dəyişikliklər edilmiş, nəticədə ünvanlı yardımın əhatə dairəsi genişləndirilməklə, yoxsul ailələrin bu yardım növündən yararlanmaq imkanları daha da artırılmış, bu sahədə sənədləşdirmə qaydaları sadələşdirilmişdir (11, s. 135-136).

Ölkə ərazisində əmək pensiyası hüququnun əldə edilməsi şərtlərini, bu hüquqların reallaşdırılması prosedurlarını və pensiya təminatı sisteminin hüquqi-normativ əsaslarını müəyyən edən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu 2006-cı il fevralın 7-də qəbul olunmuşdur (12, s. 95-96).

Bu qanunun qəbul edilməsi nəticəsində 1992-ci ildən qüvvədə olan və əsasən həmrəylik prinsipinə əsaslanan pensiya sisteminin modernləşdirilərək çoxpilləli modelə keçidinin hüquqi bazası yaradılmışdır ki, bu da Avropa və digər inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun islahatların aparılmasına şərait yaratmışdır.

Tətbiq müddəti ərzində əldə olunan təcrübə göstərmişdir ki, qanun əmək pensiyalarının məbləğinin artmasına səbəb olmaqla yanaşı, vətəndaşların sosial sığorta haqlarının ödənilməsində daha fəal iştirakını təşviq etmişdir. Bununla yanaşı, "Əmək pensiyaları haqqında" qanun çərçivəsində sosial sığorta prinsiplərinə əsaslanan əmək pensiyaları ilə dövlət büdcəsinin vəsaiti hesabına verilən sosial müavinətlərin fərqləndirilməsi təmin olunmuş, bu da ünvanlı sosial müdafiə sisteminin təşəkkül tapmasına zəmin yaratmışdır (16, s. 52).

Nəticə

Bu məqalə Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkədə mövcud olan sosial-iqtisadi böhran şəraitində həyata keçirilən sosial islahatların araşdırılması və Azərbaycan Respublikasında əhalinin sosial müdafiə sisteminin formalaşmasının təhlili baxımından əhəmiyyət daşıyır. Heydər Əliyevin hakimiyyətə gəlməsi və aparılan sosial siyasət əhalinin rifah halının yaxşılaşdırılmasına yönəlmişdir. Həmçinin 2003-cü ildən ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində əhalinin sosial müdafiəsinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.

ƏDƏBİYYAT

1. "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" mövzusunda beynəlxalq elmi-praktik konfrans materialları. Bakı, 2019, 423 s.
2. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (//https://e-qanun.az/framework/7782).
3. Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (//https://e-qanun.az/framework/4412).
4. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. (//https://e-qanun.az/framework/6693).
5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (//https://e-qanun.az/ frame work/7936).
6. Azərbaycan Respublikasının Konstitusiyası. (//https://e-qanun.az/framework/897).

7. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (// https://e-qanun.az/framework/8696).
8. Əhalinin sosial müdafiəsinin mükəmməl modelini yaradan lider. (//https://www.anl.az/down/ meqale/ azerbaycan/2011/may/174342.html).
9. Əliyev M. Tarix və onun problemləri jurnalı. 2003, s. 158-168. (https://tarixveonun problem leri. az/arxiv.html).
10. ƏşrəfovaR. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi. Bakı: Elm, 2007, 260 s.
11. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 1305, vv. 135-136.
12. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 1360, vv. 95-96.
13. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 472, vv. 172-174.
14. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 56, vv. 100-102.
15. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı MBM, 2012, 408 s.
16. Rzaquliyeva S., Bünyadov Z., Muradova K. Azərbaycan Respublikasinda Pensiya İslahatı Konsepsiyasının mahiyyəti və əsas müddəaları, Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, cild 13, № 3, 2017, səh. 51-55.
17. Sosial təminat və sosial müdafiə. (//https://meqamm.webnode.page/ meqaleler/sosial% 20t% C9%99minat %20v%C9%99%20sosial%20mudafi%C9%99/).

Резюме

Мелекханым Исмайылова

Формирование системы социальной защиты населения в Азербайджанской Республике

Данная статья посвящена анализу мер, предпринятых в Азербайджанской Республике по формированию и развитию системы социальной защиты населения. После восстановления независимости одной из ключевых задач государства стало построение эффективных механизмов, способных обеспечить достойный уровень жизни и социальную справедливость для всех слоёв населения. Однако в начале 1990-х годов Азербайджан столкнулся с глубоким социально-экономическим кризисом, сопровождавшимся массовой безработицей, инфляцией и снижением уровня доходов населения. Эти обстоятельства серьёзно затрудняли реализацию социальной политики. Несмотря на то, что в этот период были приняты некоторые законодательные акты в сфере социальной защиты, отсутствовали необходимые экономические и институциональные ресурсы для их полноценного применения. Ситуация начала меняться с возвращением к власти национального лидера Гейдара Алиева. Под его руководством социальная защита стала одним из приоритетных направлений государственной политики. Были приняты важные нормативно-правовые документы, заложены основы системы обязательного социального страхования, начата реформа пенсионного обеспечения. С 1991 по 2006 годы правовая база социальной политики значительно укрепилась. Расширился спектр государственных программ по поддержке малообеспеченных семей, инвалидов, пожилых людей и других уязвимых групп. Уделялось внимание также вопросам занятости, профессиональной подготовки и реабилитации. Создавались новые государственные структуры и службы социальной помощи. В результате реформ был достигнут определённый прогресс в обеспечении социальной стабильности, снижении уровня бедности и укреплении доверия населения к институтам государства. Опыт Азербайджана в эти годы демонстрирует поэтапное и устойчивое развитие социальной политики, адаптированной к реалиям переходного периода.

Ключевые слова: *Азербайджан, социальная политика, социальная защита, пенсия, страхование, законодательство*

Summary

Melekkhanim Ismayilova

The Formation of the Social Protection System in the Republic of Azerbaijan

This article is dedicated to analyzing the measures taken in the Republic of Azerbaijan for the establishment and development of the social protection system for the population. After regaining independence, one of the main challenges facing the country was to create effective mechanisms to ensure the social welfare of its citizens. However, in the early 1990s, a severe socio-economic crisis, widespread unemployment, and a decline in the population's purchasing power posed serious difficulties for social protection. Although some legislative acts were adopted during this period, the necessary economic and institutional frameworks for their effective implementation were lacking. Following the return to power of the national leader Heydar Aliyev, social protection policy became a state priority. Important normative-legal documents were adopted to strengthen the protection of socially vulnerable groups, and social insurance, pension provision, and social assistance mechanisms were gradually improved. Significant steps were taken in regulating labor relations and protecting people with disabilities, low-income families, and other vulnerable groups. Between 1991 and 2006, the legal foundation of the social protection system was steadily strengthened, and the scope of state programs expanded. Consequently, notable progress was made in improving living conditions, maintaining social stability, and enhancing the state's social functions. This article provides an analytical overview of the nature, implementation, and significance of these reforms.

Key words: *Azerbaijan, social policy, social protection, pension, insurance, legislation*

Redaksiya heyətinin üzvü f.ü.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 316

AZƏRBAYCANDA SOSİAL İŞ HƏDƏFLƏRİ ÇƏRÇİVƏSİNDƏ KÖNÜLLÜLÜK FƏALİYYƏTİ

Pərvanə ABDİYEVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 12 oktyabr 2025; çapa qəbul edilmişdir: 27 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 12th of October, 2025; accepted: 27th of November, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *sosial iş, könüllülük fəaliyyəti, icma inkişafı, sosial məsuliyyət, cəmiyyətin inkişafı*

Giriş

Sosial iş, sosial dəyişiklikləri və inkişafı təşviq edən, ictimai həmrəyliyi gücləndirən, insanların müstəqil fəaliyyətdə bulunma və cəmiyyətdə azadlıq əldə etmə imkanlarını genişləndirən praktik və akademik bir sahədir (və ya fəaliyyətdir). Xeyriyyəçilik çərçivəsində könüllülük, insanın vaxtını, biliklərini və bacarıqlarını cəmiyyətin faydasına yönəltməsi deməkdir. Bu təşəbbüslər ehtiyacı olanlara dəstək olmaqla yanaşı, sosial problemlərin aradan qaldırılmasına kömək edir.

Sosial işçilər, könüllüləri cəlb etməklə, sosial proqramların daha inklüziv və səmərəli olmasını təmin edə bilirlər. Sosial ədalət, insan hüquqları və müxtəlifliyə hörmət prinsipləri bu sahənin əsasını təşkil edir. Sosial iş proqramı, insanların həyat problemlərinin həllində iştirakını və sosial, humanitar elmlərə, eləcə də xüsusi nəzəri biliklərə əsaslanaraq rifahın yaxşılaşdırılmasını nəzərdə tutur. Sosial işçinin əsas funksiyalarından biri insanlara müasir dünyanın qarşıya qoyduğu müxtəlif təhlükələrdən və risklərdən qorunmağa, öz həyatını formalaşdırmağa, güc və potensialını üzə çıxarmağa yardım etməkdir.

Sosial işçinin səyləri həm fərdlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına, həm də cəmiyyətin sosial rifahının artırılmasına yönəlib. Sosial işçi sosial mühiti dəyişdirməyə və cəmiyyətdə vəziyyəti yaxşılaşdırmağa çalışır ki, bu da onun peşəsinin vacibliyini hiss etməsinə və mənəvi doyğunluq əldə etməsinə imkan verir.

Sosial işin makro səviyyədə tətbiq sahələri, insan hüquqları, sosial ədalət və bərabərlik kimi universal dəyərlərə əsaslanaraq cəmiyyət üçün sosial rifahda dəyişikliklərə nail olmağı hədəfləyən fəaliyyət sahələrini əhatə edir. Bu sahədə cəmiyyətin təşkili, inkişafı, sosial fəaliyyət və planlaşdırma kimi müxtəlif modellər istifadə olunur. Bu modellər, cəmiyyət daxilində nəzərdə tutulan və planlaşdırılan dəyişikliklərin həyata keçirilməsinə bələdçilik edir.

Gənclərin könüllülük fəaliyyətinə hazırlanması, bu sahədəki hüquqi çərçivə və ASAN xidmət, DOST kimi təşkilatların təcrübələri nəzərə alınaraq araşdırılmışdır. Universitetlər, dövlət qurumları və beynəlxalq təşkilatların əməkdaşlıq modeli də təqdim olunmuşdur. Könüllülərin şəxsi keyfiyyətləri, təşkilatçılıq bacarıqları və cəmiyyətin fəal üzvü kimi inkişaf etmək üçün motivasiyaları müəyyən edilmişdir. Könüllülük fəaliyyəti, insanın özünü reallaşdırmasına, vətəndaş mövqeyini nümayiş etdirməsinə və sosial əlaqələrini genişləndirərək dünyanı daha yaxşı bir yer etməsinə imkan yaradır.

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: pervanaabdiyeva@yahoo.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3026

1. Azərbaycanda Könüllülüyün İnkişafı

2014-cü ildə Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurası (AGTMS) "Azərbaycan Könüllü Xidməti" proqramını təqdim etdi. Bu proqramın əsas məqsədi ölkədə könüllülük hərəkatını inkişaf etdirmək, idarəetmə və tənzimləmə üçün standartlar yaratmaq, eləcə də gənc könüllülər arasında təcrübə mübadiləsini təşviq etmək idi. Proqram çərçivəsində yerli könüllü koordinatorlarının hazırlanması, təcrübə mübadiləsi, təlim proqramlarının təşkili və digər əlaqəli fəaliyyətlər həyata keçirildi. Bu təşəbbüs gənclər arasında könüllülük mədəniyyətinin formalaşmasına və inkişafına əhəmiyyətli dərəcədə töhfə verdi (1, s.18).

Azərbaycanda könüllülük hərəkatının inkişafına mədəniyyət və idman sahəsində keçirilən iri tədbirlər də təsir etdi. Məsələn, 2012-ci ildə Bakıda keçirilən "Eurovision" beynəlxalq müsabiqəsində 1 mindən çox könüllü iştirak edərək qonaqları hava limanında qarşılayıb, otellərə yerləşdirmiş və nümayəndə heyətləri ilə iş aparmışdır. 2015-ci ildə keçirilən ilk Avropa Oyunlarında təxminən 20 min könüllü iştirak etmiş, onlardan 12 mini tələbələrdən ibarət olmuşdur. Eyni ildə, Azərbaycan Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakıda Beynəlxalq Futbol Könüllüləri Forumu təşkil edilmişdir. 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında isə 8 mindən çox könüllü müxtəlif tədbirlərdə iştirak etmişdir.

2015-ci ildə yaradılan və 2 avqust 2019-cu ildən ictimai tələbə əməkdaşlığı birliyi kimi qeydiyyata alınan "Bir" ("Bir könüllü") proqramı, tələbələr arasında könüllülüyün təşviqinə, vahid məlumat bazasının formalaşdırılmasına, təlim və kursların təşkilinə, həmçinin gənclərin bilik və dünyagörüşünün artırılmasına yönəlmişdir. Proqram uzunmüddətli xarakter daşıyır və altı istiqamətdə fəaliyyət göstərir: "Öyrən", "Öyrət", "Yaşa", "Yaşamağa kömək et", "Kəşf et" və "Zövq al". 2021-2022-ci tədris ilində proqram 26 ali, 18 orta təhsil müəssisəsini və 10 peşə təhsili müəssisəsini əhatə etmişdir. Bu dövrdə iştirakçılar 260-dan çox tədbir təşkil etmiş, ümumilikdə təxminən 43 min könüllü saatı sərf etmişlər (2, s. 45).

2020-ci ildə Azərbaycanda "Könüllülər İli" elan edilmiş, lakin ictimai fəallığın artması əsasən COVID-19 pandemiyasına cavab olaraq ortaya çıxmışdır. Mart ayında ölkədə fəaliyyət göstərən könüllü təşkilatlar Prezidentin çağırışına cavab olaraq Azərbaycan Könüllülərinin Koordinasiya Mərkəzi (KÇVA) çərçivəsində birləşmişdir. Qısa müddətdə mərkəz bütün şəhər və rayonlarda könüllüləri səfərbər etmiş, koordinasiya və operativ tapşırıqların icrasını təmin etmişdir.

Pandemiya dövründə könüllülər maarifləndirici kampaniyalar həyata keçirmiş, sosial məsafənin qorunmasının vacibliyini izah etmiş, dövlət strukturları və vətəndaşlara yardım göstərmişdir. Onlar tənha yaşlılara, əlillərə, aztəminatlı ailələrə və şəhid ailələrinə ərzaq və gündəlik zəruri malların çatdırılmasında fəal iştirak etmişlər. Xüsusilə AFFA (Futbol Federasiyaları Assosiasiyası) 200 könüllü ilə yaşlılara dəstək kampaniyalarında iştirak etmiş, könüllülər 65 yaşdan yuxarı şəxslərlə ünsiyyət qaydaları, sosial məsafənin qorunması və məhsul çatdırılması üzrə xüsusi təlimlər keçmişlər.

2020-ci ilin martında yaradılan "Yardımçı" (yardimci.az) internet layihəsi, COVID-19 pandemiyası ilə mübarizədə vətəndaşlara onlayn dəstək göstərmək məqsədini daşıyır. Layihə heç bir dövlət və ya özəl qurum tərəfindən idarə olunmamış, mənfəət məqsədi daşımamış, iki təşəbbüskar tərəfindən sosial məsuliyyət nümunəsi kimi həyata keçirilmişdir. Portal vasitəsilə 14 şirkət və təxminən 300 fiziki şəxs ianə etmiş, 3 258 ərzaq dəsti ehtiyacı olan ailələrə çatdırılmışdır (3, s. 20).

Ekoloji sahədə ən iri könüllülük aksiyalarından biri "Xəzər dənizini qoruyaq" aksiyasıdır. Məqsəd ekoloji vəziyyəti yaxşılaşdırmaq, əhalini maarifləndirmək və ətraf mühitə məsuliyyətli münasibəti təşviq etməkdir. Aksiya hər il sentyabr ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü ilə keçirilir. 2022-ci ildə kampaniya bütün

Xəzər sahillərini əhatə etmiş, 2023-cü ilin sentyabrında isə EcoHub ekoloji platforması tərəfindən SOCAR-ın dəstəyi ilə təşkil olunmuşdur. Bu aksiyada 1,5 mindən çox könüllü iştirak edərək 11 hektar (ha) sahəni təmizləyib, 5 ton tullantı toplamışdır.

2017–2021-ci illər üçün qəbul edilmiş "Azərbaycan Gəncləri" Dövlət Proqramı və 2019-cu il fevralın 1-də keçirilmiş respublika yığıncağında Prezidentin çıxışından sonra dövlət orqanlarına gənclərin potensialından səmərəli istifadə etmək, gənclər arasında könüllülük hərəkatını inkişaf etdirmək və peşəkar bacarıqların əldə olunmasına şərait yaratmaq tapşırılmışdır. Praktik olaraq bütün dövlət strukturlarında gənclərin könüllü kimi cəlb olunması üçün proqramlar hazırlanmışdır. Dövlət strukturlarında işləyən gənc könüllülərin iş müddəti adətən üç ay olur və sonda sertifikat və tövsiyə sənədləri təqdim edilir (4, s. 21).

2012-ci ildən ASAN xidmət "bir pəncərə" modelini tətbiq etmişdir. Bu modelin tətbiqi ilə Azərbaycan könüllülüyü sistemli inkişaf mərhələsinə qədəm qoymuşdur. ASAN mərkəzləri könüllülərin işindən geniş istifadə edir: ziyarətçiləri qarşılayır, məlumatlandırır, anket doldurmaqda yardım göstərir. 17–25 yaş arası gənclər könüllü olmaq üçün müsahibədən keçir. İşlərinin qiymətləndirilməsi aparılır və sertifikatlar təqdim olunur. "ASAN kadr" veb-portalı vasitəsilə könüllülərin məlumatları dövlət və özəl sektor tərəfdaşları ilə paylaşılır. İndiyə qədər 3,3 mindən çox ASAN könüllüsü işlə təmin edilmişdir. 2023-cü ildə III karyera sərgisi keçirilmiş, 50-dən çox şirkətdən 100-dən çox nümayəndə iştirak etmişdir.

2013-cü ildə yaradılmış "ASAN könüllüləri" gənclər təşkilatı mərkəzlərdə və müxtəlif sosial layihələrdə könüllülərin birləşməsini təmin edir. 2019-cu ilin mayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DOST Agentliyi və ilk DOST Mərkəzi açılmışdır. DOST mərkəzlərində könüllülər xidmət göstərməkdə, ziyarətçiləri qarşılayıb məlumat verməkdə iştirak edir. 2023-cü ildə "DOST Könüllüsü" proqramına 18 min müraciət daxil olmuş, 1 mindən çox iştirakçı qəbul edilmişdir. Proqram "Gənc DOST", "Gümüş DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Uzaqdan DOST" alt-proqramlarını əhatə edir. Ümumilikdə 3 802 könüllü proqramda iştirak edir (5, s. 22).

2018-ci ildən KOB İnkişaf Agentliyi "KOB könüllüləri" proqramını həyata keçirir. Məqsəd gənclərin bilik və bacarıqlarını artırmaq, dünyagörüşünü genişləndirmək və peşəkar karyeraya başlamazdan əvvəl onları sahibkarlığa cəlb etməkdir. 2023-cü ildə proqrama 60 gənc qoşulmuş, ümumilikdə təxminən 600 nəfər iştirak etmişdir. 16–25 yaş arasında ali və orta təhsil müəssisələrinin tələbələri rəsmi saytda qeydiyyatdan keçə bilər. Proqramı uğurla başa vuranlara sertifikatlar təqdim olunur və iş axtarışında üstünlük verilir. Hazırda 14 nəfər agentliyin müxtəlif strukturlarında işlə təmin olunmuşdur. 2020-ci ildə Agentlik "Könüllü Kataloqu"nu nəşr etmişdir.

2. Könüllülük fəaliyyətinin sosial işdə rolu

Hazırda könüllülük müasir cəmiyyətdə vətəndaş aktivliyinin bir forması, insanları birləşdirən bir kanal və qarşılıqlı yardım mühitinin yaradılması vasitəsi kimi qəbul edilir. Rəsmi sənədlərdə qeyd olunur ki, könüllü fəaliyyət – cəmiyyətdə qayğı və yardımı dəstəkləyən və gücləndirən bir vasitədir (6, s. 56). Könüllü fəaliyyətin yayılmasına və inkişafına dəstək göstərilməsi gənclər siyasətinin prioritet istiqamətlərindən biridir və bu, rəsmi sənədlərdə əks olunur. Gələcək nəsli könüllü fəaliyyətlərə cəlb etmək ixtisaslı dövlət orqanlarının əsas fəaliyyət istiqaməti kimi müəyyən edilib, gənclərin tərbiyəsi üzrə əsas istiqamətlərdən biri sayılır və federal layihələrin əsas vəzifəsi kimi bəyan edilir.

Könüllülər fəaliyyətləri boyunca öz hüquq və bacarıqlarını reallaşdıraraq davamlı inkişaf edirlər. Könüllülüyün inkişafının müsbət tərəfləri aşağıdakılardır:

- Hər bir iştirakçı problemlərin müəyyənləşdirilməsi və həllində iştirak edir;
- İcma üzvləri özlərini aktiv şəkildə ifadə edə və dinlənilə bilirlər;
- Könüllülər şəxsi keyfiyyətlərini inkişaf etdirir, yaradıcılıqla reallaşır, bacarıq və bilik əldə edirlər.

Hazırda könüllülük sahələrinin çoxluğu mövcuddur və hər kəs burada yalnız qarşılıqsız yardım göstərməklə kifayətlənmir, həm də sosial kompetensiyalarını inkişaf etdirə bilir. Könüllülük istiqamətinə görə aşağıdakı növlər ayırd edilir:

- Hadisə könüllülüyü;
- Sosial könüllülük;
- Mədəni könüllülük;
- Ekoloji könüllülük;
- İnklyuziv könüllülük;
- Tibbi könüllülük;
- İdman könüllülüyü;
- Fövqəladə hallar könüllülüyü;
- Vətənpərvər könüllülük;
- Media könüllülüyü.

XXI əsrin Dəniz İpək Yolu (DİY) – Çin ticarətinin təxminən 90%-i su nəqliyyatı ilə həyata keçirildiyi üçün bu, Çin üçün böyük praktik əhəmiyyət kəsb edən dayanıqlı beynəlxalq logistik marşrutların yaradılması üzrə milli konsepsiyadır. Aydındır ki, DİY konsepsiyasının ortaya çıxması Çinin, ABŞ-nin 2011-ci ildən həyata keçirdiyi "Asiyaya Dönüş" siyasətinə cavabı olub. Bu siyasət Çini ABŞ-a dost ölkələrlə əhatə edərək dəniz nəqliyyatı marşrutlarına təhlükə yaratmaq məqsədi daşıyırdı. Lakin DİY zonasında hazırlanan mühasirənin qarşısını almaq ən çətin olacaqdı, çünki ABŞ region ölkələri ilə hərbi əlaqələrini gücləndirib və sürətlə Çinin daxil olmadığı Trans-Sakit Okean Tərəfdaşlığı (TPP) yaradırdı.

Bununla belə, Dəniz İpək Yolu layihəsinin əsas vəzifəsi Çindən mal və kapital ixracının axınını hələ dünya ticarətinin fəal iştirakçılarına çevrilməmiş ölkələrə yönləndirməkdir. Təcrübə göstərir ki, Çin tərəfindən həyata keçirilən layihələrin əksəriyyəti Çinin qarşı tərəf ölkələrin təbii sərvətlərinin mənimsənilməsinə yatırdığı investisiyalarla sıx bağlıdır ki, bu da ölkənin enerji müstəqilliyinin təmin olunmasına töhfə verir. Bu kontekstdə ehtimal olunur ki, uzunmüddətli perspektivdə DİY Latın Amerikasına qədər uzanacaq.

Çin lider mövqeyini və milli təhlükəsizliyini təmin edərək özünün inkişafı üçün mühüm əhəmiyyət kəsb edən strategiyanı – dəniz məkanının inkişafı, istifadəsi və mühafizəsi, güclü dəniz dövlətinin qurulmasını bəyan edir. Pekin həm "İnci Sapı" konsepsiyasını, həm də bir-birini tamamlayan "İkili İstifadəli Dəstək Bazaları" konsepsiyasını həyata keçirir. Qeyd edək ki, bu konsepsiyalar arasında fərqlər var. Birincisi, "İkili İstifadəli Dəstək Bazaları" konsepsiyasının müddəalarına əsasən, Çin donanması gəmilərinin xarici limana daxil olması iqtisadi tərəfdaşın (Çin şirkəti) xahişi və yardımı ilə həyata keçirilir. Bu, ölkə və müqavilə bağlayan ölkələrin limanlarına hərbi gəmilərin daxil olmasına dair dövlətlər arasında ikitərəfli müqavilələrin mövcudluğunu nəzərdə tutmur, halbuki "İnci Sapı" konsepsiyası dövlətlərin hər biri ilə siyasi əlaqələr çərçivəsində hüquqi cəhətdən rəsmiləşdirilmiş dövlətlərarası müqavilələri tələb edir. İkincisi, liman infrastruktur obyektlərindən istifadənin hüquqi xüsusiyyətlərinə əsaslanaraq, "İnci Sapı" konsepsiyası hətta ölkənin limanlarında iqtisadi tərəfdaşları olmasa belə, Yaxın Şərq dövlətlərinə Çin donanmasının gəmilərinin fəaliyyətini hərtərəfli dəstəkləmək üçün daha çox imkanlar verir (11). "İkili İstifadəli Dəstək Bazaları" konsepsiyasına əsasən, bu qurğular əsasən dəniz quldurluğu və terrorizm kimi qeyri-ənənəvi təhlükəsizlik təhdidlərinə qarşı mübarizə üçün istifadə olunur.

Hind okeanının sahilyanı ölkələrində Çin dəniz donanması üçün infrastruktur dəstəyinin nöqtələri və bazaları üç kateqoriyaya bölünə bilər:

İxtisaslaşdırılmış – yanacaq təchizatı üçün (Oman-Salalah limanı, Mozambik-Nakala limanı);

Universal – təchizatın artırılması, ekipajların istirahəti, gəmilərin parklanması və baxımı üçün (Pakistan-Pasni limanı, Yəmən-Ədən limanı);

Çoxfunksiyalı – təchizatın doldurulması, gəmilərin saxlanması, ekipajların istirahəti üçün (Pakistan-Qvadar limanı, Cibuti-Cibuti limanı).

Dəniz İpək Yolu ən azı iki min il əvvəl yaranıb və əslində sivilizasiyalararası transkontinental dəhliz olub, Çin limanlarını Avropa, Hindistan, Fars və Ərəbistan yarımadası bazarları ilə birləşdirib. Müasir Dəniz İpək Yolu Çini Fars körfəzi və Aralıq dənizi ölkələri ilə birləşdirən qədim İpək Yolunun dirçəldilməsi üzrə qlobal planın mühüm

tərkib hissəsidir. İnfrastruktur layihələri şəbəkəsi 21 trilyon dollara qədər istehsal həcmi və 4,4 milyarddan çox əhalisi olan, yəni dünya əhalisinin 63%-ni təşkil edən dünyanın ən böyük iqtisadi dəhlizini yaradacaqdır (10).

Layihənin həyata keçirilməsi ölkə üçün vacib olan bir sıra siyasi, iqtisadi, hərbi və mədəni problemləri həll etməyə imkan verəcək. Aydındır ki, DİY konsepsiyasının ortaya çıxması Çinin ABŞ-nin 2011-ci ildən bəri yürütdüyü "Asiyaya Dönüş" siyasətinə cavabı idi. Bu siyasət Çini Birləşmiş Ştatlara dost ölkələr tərəfindən mühasirəyə almağa və dəniz nəqliyyatı marşrutlarına təhlükə yaratmağa yönəlmişdir. Bununla belə, DİY zonasında Birləşmiş Ştatlar region ölkələri ilə hərbi əlaqələrini intensivləşdirib və sürətlə Çinin üzv olmadığı Trans-Sakit Okean Tərəfdaşlığını (TPP) yaradır. DİY konsepsiyası açıq şəkildə TPP-yə zidd olaraq hazırlanmışdır. Aydındır ki, TPP-də iştirak edən ölkələr arasında başlayan danışıqlar kontekstində Çin, bu dövlətlərin ona qarşı birləşəcəyindən narahat idi.

Layihənin ölkədəki daxili siyasi vəziyyətə təsiri də az əhəmiyyətli deyil. Çinyönlü iqtisadi kəmərin yaradılması eyni vaxtda bir neçə problemi həll edir. Birincisi, yüksək gəlirlilik dərəcəsi və əhəmiyyətli uzunmüddətli faydaları olan investisiyalar effektiv şəkildə yatırılır. İkincisi, Qərbi Çin regionlarının fəal inteqrasiyası nəticəsində onların inkişafda geriləməsi problemi həll olunur. Ölkədə aparılan islahat siyasəti əsasən sahilyanı ərazilərə təsir etmiş, Çinin daxili bölgələri bu prosesdə çox iştirak etməmişdir. Çinli ekspertlərin fikrincə, DİY vasitəsilə "hərtərəfli açıqlığın" yeni mərhələsi bu çatışmazlığı aradan qaldıracaq (7). Üçüncüsü, infrastruktur layihələrinin icrası zamanı təşəbbüsün məqsədi mal və kapital ixracının axınını hələ dünya ticarətinin fəal iştirakçılarına çevrilməmiş ölkələrə yönləndirməkdir. Son onilliklərdə Çin Afrika qitəsi və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı inkişaf etdirməyə başlayır. İpək Yolunun iki marşrutuna nəzarət həm də Çinin enerji təhlükəsizliyini təmin etməyə kömək edir, çünki dünyanın ən böyük enerji idxalçısı kimi o, tamamilə dəniz tədarüklərindən asılıdır, bu da dənizdə daimi "neft embarqosu" təhlükəsinin olması deməkdir. ÇXR üçün layihə logistika xərclərini azaltmağa, onun keçdiyi ölkələr üçün isə regiona investisiya cəlb etməyə imkan verir. Nəhayət, ən mühüm limanlarda qovşaqlarla təhlükəsiz, qüsursuz və yüksək səmərəli dəniz nəqliyyatı marşrutları yaradılır.

"Kəmər və Yol Təşəbbüsü" mahiyyətcə Çinin minlərlə kilometr dəmir yolu və ya digər nəqliyyat infrastrukturu tikməsinə ehtiyac duymadan yaxşı işləyən multimodal nəqliyyat sisteminin yaradılmasına əsaslanır, çünki onların əksəriyyəti artıq mövcuddur. Belə ki, Çin bir sıra dost ölkələrdə: Pakistanda Qvadar, Şri-Lankada Hambantota, Banqladeşdə Çittaqonq, Myanmada Çao Fyuda iri, müasir limanlar tikib və bir sıra yeni limanların tikintisini planlaşdırır. Vəzifə yalnız mövcud infrastrukturun modernləşdirilməsi və vahid sistemə qoşulması, lazım gələrsə, çatışmayan keçidlərin əlavə edilməsidir. Bu kontekstdə "Çin-Pakistan" və "Hindistan-Banqladeş-Myanma-Çin" iki iqtisadi dəhlizinin həyata keçirilməsinə böyük əhəmiyyət verilir.

Çin tərəfinin DİY-in yaradılması üçün fundamental əsas hesab etdiyi beynəlxalq mədəni və humanitar əməkdaşlığı genişləndirməkdir. Son illər marşrut boyu yerləşən ölkələr üçün qeyri-ənənəvi təhlükəsizlik təhdidlərinin (piratçılıq, dəniz terrorizmi, transsərhəd cinayəti və s.) kəskinləşməsi ilə əlaqədar bu problemlərin həlli zərurəti daha da aktuallaşıb. Bu kontekstdə Çin dəniz texnologiyası, iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi, dənizin proqnozlaşdırılması, dənizdə xilasetmə, fəlakətlərin qarşısının alınması və təsirlərin azaldılması sahələrində əməkdaşlığı təşviq etmək niyyətindədir.

DİY layihəsi, Çin rəhbərliyinin fikrincə, ölkələr arasında əməkdaşlığın və qarşılıqlı etimadın möhkəmlənməsinə kömək edəcək və regional tərəqqi üçün yeni imkanlar açacaqdır.

DİY-də iştirak etməyə hazır olduqlarını bildirmiş ölkələrin layihə potensialını da-

ha ətraflı nəzərdən keçirək. DİY-nin əsas marşrutu Asiyadan Yaxın Şərqə və Avropaya uzanır. Layihənin 20-dən çox ölkəni əhatə edəcəyi gözlənilir. Hazırda o, artıq marşrut boyu yerləşən əksər ştatların rəhbərliyindən dəstək alıb.

Gözlənilir ki, Çin nəinki obyektin tikintisində iştirak edəcək, o, istismara verildikdən sonra da yeni nəqliyyat arteriyasına müəyyən hüquqlar əldə edəcək. Dalyan Dəniz Universitetinin professoru Li Zhenfu istisna etmir ki, Pekin hətta bəzi gəmilərin, xüsusən də bəzi ölkələrin hərbi gəmilərinin kanaldan keçməsini qadağan etmək hüququ əldə edə bilər. Bu halda kanal təkcə qlobal iqtisadiyyat üçün deyil, həm də siyasət üçün mühüm alətə çevriləcək (8, s. 67).

Quru və dəniz İpək Yolları arasında "körpü" rolunu Kunminqi-Taylandın paytaxtı Banqkok və əyalətləri Nong Khai və Rayong ilə birləşdirəcək uzunluğu 867 km olan Çin-Tayland yüksək sürətli dəmir yolu layihəsi oynayacaq. Yeni yolun əlavə olaraq hər il 2 milyona qədər çinli turistin ölkəyə axınını təmin edəcəyi gözlənilir. Layihə üzrə hökumətlərarası saziş 2015-ci ilin payızında imzalanıb (8, s. 67).

Dəniz İpək Yolu (DİY) layihəsinin aktuallığı ondadır ki, hazırda Çinlə dünyanın qalan hissəsi arasında mübadilə üçün yeganə marşrut Cənubi Çin dənizindən keçir. Amerika Birləşmiş Ştatları ilə artan rəqabət kontekstində amerikalıların iqtisadi potensialını zəiflətmək üçün Çinin dəniz blokadasını həyata keçirmək üçün real imkanları var. Resurs və yanacaq Çinə getdiyi və Çin sənayesinin məhsulları isə dünya bazarına çıxarıldığına görə dəniz nəqliyyatı kommunikasiyalarının təhlükəsizliyinin təmin edilməsinə ehtiyac var. XXI əsr Dəniz İpək Yolu layihəsi Cənubi Çin dənizindən Yaxın Şərqə qədər dəniz nəqliyyat dəhlizi boyunca yerləşən ölkələrlə ticarət-iqtisadi əlaqələrin şaxələndirilməsinə yönəlib.

Çox vaxt liman infrastrukturunun tikintisi layihələri dəmir yolu xətlərinin çəkilməsi ilə müşayiət olunur. Beləliklə, dəniz yolu əvəzinə yüklərin çatdırılması üçün alternativ quru dəhlizləri yaradılır. Məsələn, Çinin Qırmızı dənizdən Aralıq dənizinə kommersiya daşımalarını etibarlı şəkildə təmin etmək üçün Çinin dövlət gəmiçilik şirkətləri Süveyş kanalı boyunca yerləşən limanlara sərmayə qoyublar və gələcəkdə Süveyş kanalından tamamilə imtina etmək üçün alternativ quru yolu kimi Çin İsraildə Aralıq dənizindəki Aşdod limanı ilə 300 kilometrlik Eylat dəmir yolunu Qırmızı dənizdə birləşdirəcək RedMed dəmir yolu layihəsini həyata keçirir (8, s. 65).

Pakistanın Çinin "Bir kəmər, Bir Yol" təşəbbüsü üçün vacib olduğu da bildirilir. Çin artıq ölkənin infrastruktur layihələrinə 42 milyard dollar sərmayə qoyub. Qərb siyasi analitikləri Çinin bu cür fəaliyyətini regionda güclü məqamlar (qalalar) yaratmaq üçün "İnci Sapı" strategiyasının ikinci nəşri adlandırmağa tələsmişdilər. Məlum olduğu kimi, bu strategiya Hind okeanı zonasında kifayət qədər uğurla həyata keçirilir. Onların fikrincə, "İnci Sapı" Çinin Dəniz İpək Yolunun mühüm elementlərinə çevriləcək.

2. Çinin "İnci Sapı" Strategiyası

"İnci Sapı" termini 2004-cü ildə ABŞ politoloqları tərəfindən irəli sürülmüş geosiyasi fərziyyədir. Termin materik Çindən Afrika Buynuzundakı Port Sudana qədər uzanan dəniz zolaqları boyunca Çin hərbi və kommersiya qurğuları və əlaqələri şəbəkəsinə aiddir. Bu, Hind okeanında və Sakit Okeanın qərbində dəniz ticarət yollarının təhlükəsizliyini qorumaq üçün milli donanmanın gəmilərinin və köməkçi gəmilərinin fəaliyyətini hərtərəfli dəstəkləmək üçün xaricdə sözdə baza və məntəqələrin yaradılması imkanlarını nəzərdən keçirmək üçün tövsiyələri ehtiva edir.

"İnci Sapı" strategiyası Pakistandakı Qvadar limanını, Birmada hərbi dəniz bazalarını, Benqal körfəzindəki adalarda elektron kəşfiyyat toplama qurğularını, Taylanddakı Kra İsthmusu üzərindən bir kanalın inşasını maliyyələşdirir. Kamboca ilə razılaşma və Cənubi Çin dənizində qüvvələrin yaradılmasında məqsəd Çinin enerji maraqlarını və

təhlükəsizliyini qorumaq üçün Yaxın Şərqdən Cənubi Çin dənizinə qədər dəniz zolaqları boyunca bir neçə ölkə ilə strateji əlaqələr qurmağa kömək etməkdir.

Çin Cənubi Asiyadakı digər dövlətlərdə – Banqladeşin Çittaqonq və Şri-Lankanın Hambantota şəhərlərində konteyner limanları quraraq okeana yol açırdı. Hind okeanına çıxışı genişləndirən Çin, Şri-Lankanın cənubundakı Hambantota İnkişaf Zonasının konteyner limanı, bunker sistemi və neft emalı zavodunu əhatə edən maliyyələşdirmə üçün Şri-Lanka ilə müqavilə imzaladı. Çinin Maldiv və Marao bölgəsindəki fəaliyyəti artıq Yeni Dehlidə qorxu yaratdı.

Bu liman və qurğuların Çin tərəfindən sırf iqtisadi və ticari zəmində qurulmasını izah etmək mümkündür, lakin ABŞ, Yaponiya və Hindistan kimi regional və qlobal güclər Çinin Hind okeanındakı diplomatik və hərbi səylərinin cəmini rəqiblərinə qarşı güc olaraq proqnozlaşdırırlar. Həmçinin, Hind okeanındakı qurğuların gələcəkdə hərbi məqsədlə istifadəsinə təminat verilə bilməz. 1990-cı illərin sonlarından bəri Çin-Hindistan əlaqələrinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına baxmayaraq, münasibətlər rəqabət vəziyyətində qalır və Çin, Hindistanın əsas qonşuları, xüsusən Pakistan ilə sıx əlaqələr quraraq Hindistanı Cənubi Asiya sərhədləri daxilində saxlamağa müvəffəq olur (15, s. 54-71).

Çin Hind Okeanında dəniz hökmranlığına can atmağa çalışır. Lakin Çin, bölgədə daha böyük rol oynamağı – maraqlarını, xüsusilə Çin ticarət maraqlarını qorumaq və inkişaf etdirmək istəyir. Çin Hindistanla rəqib münasibətindədir, bu da Çin üçün Hind okeanında çətinlik yaradacaqdır. Çinin Hind Okeanı bölgəsindəki maraqlarını həyata keçirmək üçün atdığı addımlar Hindistanda qorxu yaradır və nəticədə Hindistan və Çin arasında gərginliyə səbəb olur.

Çin sadəcə öz maraqlarını təmin etmək üçün xaricdə hərbi bazalar qurmuş digər böyük qlobal güclərin izi ilə gedir. Bu, böyük güc ənənəsidir; güc mütləq ekspansionistdir (15, s. 54-71).

Çin ABŞ-dan nümunə götürərək hərbi-dəniz bazaları tikmək niyyətində deyil, lakin Yaxın Orta Şərq və Şimali Afrika ölkələrinin ərazisində belə obyektlərin tikintisinin mümkünlüyünü də istisna etmir.

Konsepsiyanın əsas müddəaları ÇXR-də qərar qəbul edən şəxslərin Sakit Okeanın qərb hissəsində, Hind Okeanının şimal-şərq və şimal-qərb hissəsində yerləşən ölkələrində nəqliyyat və resurs təhlükəsizliyini təmin etmək məqsədilə milli iqtisadi və hərbi strukturların yaradılması və ya mövcudluğunu təmin etmək istəyidir.

Hindistan əsas DİY ölkəsidir, lakin Çin layihəsində bir qədər qeyri-müəyyən mövqeyə malikdir. Bəzi milli media, ekspertlər və siyasətçilər Çinin Hind okeanında artan təsirindən xüsusilə narahatdırlar, çünki daha çox Asiya-Sakit Okean ölkəsi onun təsir dairəsinə daxil olur. Nəticə etibarı ilə, ənənəvi olaraq Cənubi Asiya yarımadasına öz milli maraqlarının sferası kimi baxan Hindistana ciddi ziyan vurula bilər (3). Çinin təşəbbüsünə cavab olaraq Hindistan öz planını – Hind okeanı hövzəsindəki ölkələr arasında tarixi dəniz əlaqələrini gücləndirmək məqsədi daşıyan "Mausam layihəsi"ni (musson küləklərinin təbii hadisəsindən sonra) hazırlayıb. O, Çindən daha kiçikdir və mədəniyyət və turizm sahəsində əməkdaşlığın inkişafını nəzərdə tutur. Hindistanın xarici siyasət səylərini başqa bir yeni layihə – "Ədviyyat Yolu" (*Spice Road*) tamamlayır. Lakin sonda ölkə nəinki DİY-ə qoşuldu, həm də AIIB-nin (Asiya İnfrastruktur İnvestisiya Bankı) təsisçilərindən birinə çevrildi. Çinli mütəxəssislər isə iki layihəni birləşdirmək imkanlarını araşdırırlar: Mausam Layihəsi və DİY (8, s.70).

Region Çin üçün xüsusi əhəmiyyət kəsb etdiyinə görə, Səma İmperiyası getdikcə iqtisadi inkişaf, ərazi idarəetməsi, enerji və ərzaq təhlükəsizliyi və ticarət də daxil olmaqla dəniz maraqlarını vurğulayır. Müasir Çin dəniz siyasəti "XXI əsrdə Çinin Dənizlər və Okeanlar üçün gündəliyi" (1996) və "Çinin Dəniz İqtisadiyyatının İnkişafı üçün

Ağ Kitabı" (1998) əsaslanır. Ölkənin dəniz iqtisadiyyatının davamlı inkişafı üçün strategiya irəli sürülür və aşağıdakı məqsədlər qeyd edilmişdir: 1) dövlətin dəniz hüquq və mənafelərinin effektiv qorunması; 2) dəniz ehtiyatlarının səmərəli inkişafı və istifadəsi; 3) dəniz mühitinin effektiv qorunması; 4) okeanologiya sahəsində elmin, texnikanın və təhsilin inkişafı; 5) dəniz iqtisadiyyatının vahid idarə edilməsi; 6) Dənizlərin və okeanların dinc istifadəsini, inkişafını və qorunmasını və bütün dəniz mübahisələrinin ədalətli əsasda həllini təmin etmək (1). Bununla yanaşı, ÇXR-in qlobal ambisiyaları getdikcə daha çox fərqlənir. Xarici müşahidəçilərin nəzərinə görə bu cərəyanın ən gözə çarpan nümunəsi Çin gəmilərinin 2008-ci ildə quldurlarla mübarizə aparmaq üçün Somali sahillərinə göndərilməsi idi – 500 ildə ilk dəfə Çin öz ərazi sularından kənarda bir dəniz kampaniyasına qatıldı.

Elə bu andan etibarən Qərb və Hindistan tədqiqatçıları "İnci Sapı" strategiyası problemini fəal şəkildə inkişaf etdirməyə başladılar. Beləliklə, B.Hertz və H.V.Pant, Qvadar (Pakistan), Çittaqonq (Banqladeş) və Hambantontada (Şri-Lanka) liman, Birmada dəniz bazaları, Taylanddakı Phra İsthmusu boyunca bir kanalın inşası üçün maliyyələşdirmə, Çini Kamboca ilə birləşdirəcək dəmir yolu xətlərinin çəkilməsi və Cənubi Çin dənizində qüvvələrin qurulmasını bir əlaqə zənciri olaraq qəbul edirlər. Bütün bu "incilər", alimlərin fikrincə, maraqlarını qorumaq və enerji təhlükəsizliyini təmin etmək üçün Çinə Yaxın Şərqdən Cənubi Çin dənizinə qədər olan nəqliyyat dəhlizləri boyunca ölkələrlə strateji əlaqələr qurmağa kömək etməlidir (4, s.163).

Bütün bu hərəkətlər Çinin bir çox qonşusunu, xüsusən də Hindistanı narahat etdi. Bununla birlikdə rəsmi Pekin bu limanların yalnız ticarət müəssisələri olduğuna və Çinin Hind okeanında gəmiçiliyə nəzarət etməyə çalışmadığına inandırır, çünki belə bir strategiya Hindistanı tərəfdaş hesab edən ÇXR-in maraqlarına uyğun gəlmir.

Son bir neçə il ərzində Çin getdikcə daha görkəmli iştirakçıya çevrilib və liman infrastrukturunun tikintisi vasitəsilə Yaxın və Orta Şərq ölkələrində mövcudluğunu artırır. Bu hərtərəfli dəstək vasitələri Çin gəmilərinə okeanların sularında maneəsiz hərəkət etməyə imkan verəcək. 2022-ci ilin yanvarında əsas karbohidrogen tədarükçülərindən biri olan Qazaxıstanda vəziyyətin kəskinləşməsindən sonra karbohidrogen ixrac edən ölkələrdə – Yaxın Şərq regionunda Çin şirkətlərinin nəzarətində olan limanların sayını artırmaq mümkün olmuşdu.

Hazırda Çin ölkə tarixində iki komponenti birləşdirən iri iqtisadi təşəbbüsü: quru – İpək Yolunun İqtisadi Kəməri (SREB) və dəniz – XXI əsrin Dəniz İpək Yolu (MSB) layihələrini həyata keçirir. Təşəbbüs istənilən ölkə və beynəlxalq təşkilatlar üçün açıqdır və təkcə qədim İpək Yolu ərazisi ilə məhdudlaşmır. Bu təşəbbüsün həyata keçirilməsinin on ildən çox vaxt aparacağı və onun həyata keçirilməsinin ümumi dəyərinin yüz milyardlarla dollar təşkil edəcəyi gözlənilir. Maliyyələşdirmə Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB), İpək Yolu Fondu və Dəniz İpək Yolu Bankı kimi ixtisaslaşmış investisiya vasitələri ilə həyata keçirilir.

Qlobal milli layihə irimiqyaslı nəqliyyat dəhlizinin qurulması üçün bütün ölkəni birləşdirməyə hesablanıb. "Bir Kəmər, Bir Yol" layihəsinin dəniz komponenti Çin üçün böyük praktik əhəmiyyətə malikdir. Milli iqtisadiyyatın strukturunda dəniz təsərrüfatı mühüm yer tutur: ölkənin xarici ticarətinin 90%-i su nəqliyyatı ilə həyata keçirilir, istehlak olunan neftin isə təxminən 60%-i idxal olunur ki, bunun da mühüm hissəsi tankerlərlə daşınır.

Bu məqaləni yazmaqda məqsəd Çinin Yaxın Şərq neftinin daşınması marşrutları boyunca dəniz əlaqələrinin qurulması sferasında tədbirlərini öyrənməkdir. "İnci Sapı" strategiyasının həyata keçirilməsi təkcə ÇXR-nin təhlükəsizliyi və Dünya Okeanında mövcudluğunu təmin etmək üçün deyil, həm də qlobal miqyasda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bir çox mütəxəssisin böyük bir dəniz bazasının və müşahidə postunun yaradılması yolunda bir addım olaraq gördüyü Qvadar limanının maliyyələşdirilməsində Çinin iştirakı bir neçə mərhələdə baş verdi. Liman tikintisinin birinci mərhələsinin maliyyələşdirilməsinə dair saziş (2002-ci ilin martı – 2003-cü ilin yanvarı) 10 aprel 2001-ci ildə ÇXR və PİR (Pakistan İslam Respublikası) hökumətləri tərəfindən imzalanmışdır. Razılaşmaya görə layihənin həyata keçirilməsinə Pakistan 50 milyon dollar və Çin isə cəmi 198 milyon dollar xərc çəkdi. Birinci mərhələdə dəniz gəmilərinin anbarı üçün 3 çoxfunksiyalı körpü, o cümlədən neft tankerlərindən xam neftin daşınması üçün infrastruktur qurulmuşdur (5). 2007-ci ilin martında sona çatan ikinci mərhələdə daha 9 dəniz körfəzi inşa edildi və gecə dənizdə naviqasiya üçün avadanlıq quraşdırıldı. Layihənin bu mərhələsinin dəyəri təxminən 600 milyon dollar idi (6).

Çin pulu ilə inşa edilən Qvadar limanına dəmir yolunun çəkilməsi ÇXR-nin Hind okeanına hər iki istiqamətdə işləyə bilən nəqliyyat dəhlizi əldə etməsinə imkan verəcəkdir. Ucuz Çin malları Yaxın Şərqə və Afrikaya axacaq, minerallar və Orta Şərq nefti geri qayıdacaqdır. ABŞ-nin Fars körfəzində olması Pekini həmişə narahat edirdi, belə ki, qeyd olunan bölgədə Amerika iqtisadiyyatının ehtiyacları üçün nəql edilən enerji qaynaqlarının 60%-ə qədərini idarə edirdi (6). Beləliklə, Qvadar limanının istifadəyə verilməsi qlobal hərbi münaqişə vəziyyətində ÇXR-in enerji təhlükəsizliyini artıracaqdır.

Regiondakı Çin hərbi qüvvələrinin mövcudluğu həm ABŞ, həm də Hindistan üçün çox narahatlıq yaradır. Eyni zamanda, Pakistanın özünün hərbi imkanları Hindistan üçün çətinlik yaratmır, lakin Çin və Pakistan dəniz qüvvələrinin birləşməsi həqiqətən də ciddi bir problemə çevrilə bilər (14). Ona görə, onlar Çin və Pakistan arasında əlaqələrin möhkəmlənməsinə qarşı çıxırlar.

Həm də nəzərə almaq lazımdır ki, Qvadar Amerika strateqlərinin Pakistan, İran və Əfqanıstanda Bəluçiləri birləşdirən mümkün yeni bir dövlətin tərkib hissəsi hesab etdikləri müxtəlif geosiyasi ssenarilərdə nəzərdən keçirdikləri bir vilayət olaraq Bəlucistan ərazisində yerləşir. İranla müharibə baş verərsə daxili siyasi sabitlik pozulacaq, ABŞ özü İran və Pakistandakı Bəluç üsyançı qüvvələrindən istifadə edərək müstəqil Bəlucistan yaradacaqdır. Bu vəziyyətdə ABŞ, Fars körfəzinə sərbəst girmə imkanından məhrum olaraq Çin üzərində inamlı bir qələbə qazanacaqdır. Ümumiyyətlə, Çin üçün vacib olan perspektivli enerji layihələrinin icrası planlarını pozaraq Əfqanıstanda və Pakistanda qeyri-sabitliyin qorunub saxlanılması Vaşinqton üçün sərfəlidir (4, s.165-166).

Bu gün ABŞ, Yaponiya və Hindistan Çinin Hind okeanındakı diplomatik və hərbi səylərini rəqiblərinə qarşı artıq gücünün nümayiş etdirməsi kimi görürlər (14). Bununla birlikdə, Çin mütəxəssislərinin fikrincə, Pekinin xaricdə bazalar yaratmaq hüququ var: Çin, qlobal gücə çevrildikcə ÇXR-i mühasirəyə almış ABŞ-nin digər gücü kimi dünyada da hərbi mövcudluğunu genişləndirəcəkdir. Çinin hərbi və dəniz imkanlarının getdikcə artması güc statusu kimi onun da mövqeyini genişləndirir (4, s.170). Yapon tədqiqatçısı Hideaki Kanedanın fikrincə, keçmişdə ABŞ və Böyük Britaniyadan fərqli olaraq, Çin bu gün dənizdəki gücünü artırmaq üçün xarici bazalardan istifadə etməli və müstəmləkəçilik etməməlidir (16).

Birincisi, ÇXR üçün əsas terror və ya piratçılıq deyil, digər dövlətlərin ticarət yollarını bağlamaq imkanlarıdır. Beləliklə, Hind okeanının sularında Çin ticarətinin daşınmasının təhlükəsizliyini təmin etmək ən məqsədəuyğundur, çünki hazırda ÇXR strateji olaraq bu bölgədən enerji qaynaqlarının verilməsindən asılıdır. Bu problemi effektiv şəkildə həll etmək üçün Çinə təkcə okean donanmasının qurulması deyil, həm də "xərcləri azaltmaq üçün xarici hərbi bazalar" lazımdır. Bu gün Pekin ilk növbədə enerji tədarükünün təhlükəsizliyini təmin etməyə çalışır. 2010-cu ildə Çin 239 milyon ton xam neft idxal etdi. Çinin xarici enerji qaynaqlarından asılılığı 1995-ci ildəki 7.6%-dən 2010-cu ildə 53.8%-ə yüksəldi və 2020-ci ildə 60%-ə qədər artdı (4, s. 171). Bu, Çinin enerji təh-

lükəsizliyini əhəmiyyətli dərəcədə zəiflədir. Uzun müddətdir Pekin əsasən Malakka Boğazından keçərək xam neft idxal edir. Səma İmperiyasının bu marşrutdan asılılığı çox yüksək olaraq qalır ki, bu da ÇXR-in yeni strateji dəhlizlər qoymaq istəyini izah edir.

İkincisi, Çin Hind okeanının ən vacib nöqtələri boyunca yerləşən iqtisadi maraqlarına xidmət etmək üçün deyil, eyni zamanda bölgədəki strateji varlığını gücləndirmək üçün dəniz strukturlarında iştirak etməyə çalışır. Pekin dəniz gücünün ona fövqəldövlət olmaq üçün strateji qol verəcəyini başa düşür, buna görə də qitənin ərazisi və böyük çay və gölləri qorumaq üçün ənənəvi Çin konsepsiyası dəyişir. Çinin müxtəlif bölgələrində, xüsusən sahilyanı bölgələrdə iqtisadiyyatın dəniz sahələrini gücləndirməyin zəruriliyi mövzusunda məlumatlılıq getdikcə artır (4, s.171).

Çinli alimlərin fikrincə, bu gün Çin dəniz strategiyasının əsas vəzifələrindən biri şərti olaraq "regional su bölgəsindəki üstünlük" kimi xarakterizə olunur, dəniz müdafiəsinin ön xəttinin Çinin iqtisadi zonasından kənara çıxarılması, sülh və təhlükəsizlik şəraitində Sakit Okeanın qərb hissəsində dəniz müdafiəsinin tədricən dərinləşməsi və sarı su sahil donanmasının mavi su okean donanmasına çevrilməsi həlledici rol oynayır. "Uzaq Mənzilli Dəniz Müdafiə Xətləri"nin yeni hərbi-dəniz strategiyası Pekinə Dünya Okeanının əsas bölgələrində gücünü proqnozlaşdırmağa imkan verir (17).

Nəticə

Beləliklə, deyə bilərik ki, bu gün liman obyektlərinə kim sahibdirsə, yaxın gələcəkdə qlobal ticarət şəbəkəsində lider mövqe tutacaqdır. Çin rəhbərliyi və Çin şirkətləri bu perspektivi yaxşı bilirlər. Ancaq bu "oyunda" paylar çox yüksək olduğu üçün rəqiblər yatmır və təşəbbüsü ələ keçirmək üçün hər cür cəhd edəcəklər.

DİY Asiya ölkələri üçün son dərəcə faydalıdır. Bununla belə, Azərbaycan da Çin layihəsinə uyğunlaşmaq və artan regional inteqrasiya proseslərindən kənarda qalmamaq üçün addımlar atacaq.

2015-ci ilin dekabrında İlham Əliyevin Çinə səfəri zamanı iki respublikanın hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu imzalanıb.

Bu gün dəniz zolaqlarını qorumaq vəzifəsi Çin Hərbi Dəniz Qüvvələri üçün çox çətin olaraq qalır. Qərb alimlərinin fikrincə Çin öz inkişafında öz maraqlarını qorumaq üçün xaricdə hərbi bazalar quran digər dünya güclərinin izi ilə gedir. Böyük bir güc mütləq ekspansionistdir və Çin Qərb ekspertlərinin fikrincə istisna olmayacaqdır, buna görə də bütün Asiya Çinin Dünya Okeanındakı mövqeyini gücləndirməyə hazır olmalıdır və Yaponiya, ABŞ və digər ənənəvi dəniz gücləri bu bölgədə öz milli maraqlarını qorumağın əsas komponenti kimi yenidən "dəniz güclərini" nəzərdən keçirməlidirlər. Çin alimləri də öz növbələrində bu cür açıqlamaların bu problem ətrafındakı vəziyyəti həddən artıq böyütdüyünü və nəticədə ÇXR-i özündə saxlamağı hədəflədiklərini iddia edirlər.

Beləliklə, Çin rəhbərliyi dəniz qüvvəsi kimi yüksəlmə müqavimətini azaltmaq vəzifəsi ilə üz-üzə qaldı. Bir tərəfdən Pekin dəniz maraqlarının reallaşmasına xüsusi diqqət yetirməli və bu məqsədlə dəniz gücünü inkişaf etdirməlidir. Digər tərəfdən Çin Hind okeanı və Asiya-Sakit Okean regionunda Yaponiya, ABŞ, Hindistan və ASEAN ölkələri ilə siyasi və iqtisadi əməkdaşlığı gücləndirməlidir. Göründüyü kimi, bu dilemmanın həlli yaxın gələcəkdə ÇXR-in dəniz siyasətinə tabe olacaqdır.

ƏDƏBİYYAT

1. Harsh V., P. Hind okeanında və Hindistan-Çin rəqabətində Çinin dəniz genişlənməsi. 3 may 2010-cu il, Cild 8, Sayı 18, 4 nömrə. (https://apjjf.org/harsh-v-pant/3353/article).
2. Амбиции Китая провоцируют США к развязыванию новых // КазТАГ: Казахское телеграфное агентство. (https://cyberleninka.ru/article/n/strategiya-nitki-zhemchuga-v-kon teks te-morskoy-politiki-knr), 22.09.2010-11.08.2020.
3. Фредерик М. Китай вступает на Шёлковый путь. 31 марта 2015. (https://centra-sia.org/newsA.php?st=1427831340#gsc.tab=0). (22.12.2024).
4. Гуаньцюнь Л. Стратегия «Нитки жемчуга»в контексте морской политики кнр // Между народные Отношения и Мировая Политика. Вестн. Моск. ун-та, 2011. Сер. 25, №4, с. 162-171. (08.08.2020).
5. Замараева Н.А. Пакистано-китайские экономические отношения на современном этапе // Институт Ближнего Востока. (https://centrasia. org/newsA. php?st= 1214320140)
6. Замараева Н.А. Пакистанский порт Гвадар в региональной стратегии Китая // Институт Ближнего Востока. (https://www.iimes.ru/rus/stat/2006/12-11-06.htm).
7. Значение Морского Шёлкового пути XXI века. (http://www.kitaichina.com/ se/txt/ 201503/09/content_675608.htm).
8. Николаевна И. Проблемы национальной стратегии. Морской Шёлковый путь XXI в. – глобальный геополитический проект Китая. 2017, № 1 (40) с.65-70.
9. Развитие морского хозяйства в Китае (Белая книга) / Информационное бюро Государственного совета Китая. Пекин, 1998. (http://russian.china.org. cn/russian/32960.htm)
10. Тарковский Ю., В. Шёлковый путь возвращается на карту мира. 2014. (http://www.ng.ru/dipkurer/20140901/9_silkroad.html).
11. Юрганов Д. «Нить жемчуга»: китайская стратегия сильной морской державы. 24 января 2022. (https://zvezdaweekly.ru/news/2022121731-MFHst.html).
12. China Ocean Agenda 21. Beijing: China Ocean Press, 1996, 193 p. (https://english.mee.gov.cn/Events/Special_Topics/AGM_1/1997agm/ meetingdoc97/ 201605/t20160524_345135.shtml).
13. Dingli S. Don't Shun the Idea of Setting Up Military Bases Overseas// January 28, 2010. (http://www.china.org.cn/opinion/2010-01/28/ content_19324522.htm).
14. Harsh V. Pant China's Naval Expansion in the Indian Ocean and India-China Rivalry//. The Asia-Pacific Journal: Japan Focus. İssue18, Number: 4, Vol.: 8, May 3, 2010. (https://apjjf.org/harsh-v-pant/3353/article).
15. Harsh V.Pant India in the Asia–Pacific: Rising Ambitions with an Eye on China.,p.54-71, 2007, vol 14, p.54-71.
16. Hideaki K. The Rise of Chinese "Sea Power". September 08, 2005. http://www.project-syndicate.org/commentary/kaneda7/English11.08.2020).
17. Wong E. Chinese Military Seeks to Extend Its Naval Power // The New York Times, April 23, 2010, page1, section A (https://www.nytimes.com/2010/04/24/world/ asia/ 24navy.html).

Резюме

Гульсура Абдулрасулова

Стратегия «Нить жемчуга» и морская политика Китая в Южной Азии

В последнее время Китай усиливает свои интересы в Мировом океане. Укрепление военно-морской мощи КНР вызывает обеспокоенность прежде всего у США, Индии и Японии. Эти страны уделяют особое внимание усилиям Китая по налаживанию морских связей вдоль ближневосточных нефтетранспортных маршрутов, называемых Пентагоном стратегией «жемчужной нити». В статье рассматриваются основные проекты, реализуемые КНР в этой области, отношение к ним за рубежом и делается попытка понять их истинные цели.

Для достижения лидирующих позиций в мире и обеспечения национальной безопасности Китай декларирует важнейшую для своего развития стратегию – освоение, использование и защиту морских пространств, создание сильного морского государства. В статье анализируется политика Китая в Южной Азии, его отношения со странами региона и лидерство в регионе. Китай развивает инвестиционные, торговые и военные связи со странами региона, а также участвует в вопросах по

Афганистану. Соперник Китая Индия пытается восстановить и укрепить свои позиции в Южной Азии, однако ей сложно конкурировать с китайской экономикой.

По мере того, как Китай поднимается в ряды влиятельных держав, на него обращают внимание и западные страны. С началом «корабельной дипломатиии» США и появлением их на сопредельных с Китаем территориях, угроза войны между двумя государствами становится главной темой обсуждения. Растущая обеспокоенность Вашингтона в связи с политикой Пекина породила термин «стратегия жемчужной нити». Таким образом, проблема стратегии «жемчужной нити» активно разрабатывалась западными и индийскими исследователями.

В то же время Китай проявляет крупную экономическую инициативу в реализации проектов, объединяющих два компонента: сухопутный – Экономический пояс Шелкового пути (ЭПШП) и морской – Морской Шелковый путь XXI века (МШП). Инициатива открыта для участия любой страны и международной организации и не ограничивается территорией древнего Шелкового пути.

Ключевые слова: *Китай, стратегия «Нить жемчуга», морская политика, Индийский океан, Малаккский пролив, порт Гвадар, Южно-Китайское море, энергетическая безопасность*

Summary

Gulsura Abdulrasulova

Chına's "Strıng of Pearls" Strategy and Marıtıme Polıcy ın South Asıa

China has been increasing its interests in the world's ocean in recent times. The strengthening of the PRC's naval power is primarily of concern to the United States, India and Japan. These countries pay special attention to China's measures to establish maritime connections along the Middle East oil transportation routes, which the Pentagon calls the "string of pearls" strategy. The article examines the main projects implemented by the PRC in this area and the attitude towards them abroad, an attempt to understand their true goals.

In order to achieve a leading position in the world and ensure national security, China declares a strategy of great importance for its development - the development, use and protection of maritime space, the establishment of a strong maritime state. The article analyzes China's policy in South Asia, its relations with regional countries and its leadership in the region. China is developing investment, trade and military relations with regional countries, and is involved in Afghan issues. China's rival India is trying to restore and strengthen its position in South Asia, and it is difficult for it to compete with the Chinese economy.

As China rises to the ranks of powerful countries, Western countries pay attention to it. As the United States conducts "ship diplomacy" and begins to appear in areas adjacent to China, the threat of war between the two countries becomes the main subject of discussion. Washington's growing concern about Beijing's policies gave rise to the term "String of Pearls" strategy. Thus, the problem of the "String of Pearls" strategy has been actively developed by Western and Indian researchers.

China is also implementing a major economic initiative that combines two components: the land-based Silk Road Economic Belt (SREB) and the maritime-based 21st Century Maritime Silk Road (MSR). The initiative is open to any country and international organization and is not limited to the ancient Silk Road area.

Key words: *China, "String of Pearls" strategy, maritime policy, İndian Ocean, Strait of Malacca, Gwadar Port, South China Sea, energy security.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 327

PREZİDENT İLHAM ƏLİYEVİN SÜLH STRATEGİYASININ KONSEPTUAL ƏSASLARI

Həvva ORUCOVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 21 avqust 2025; çapa qəbul edilmişdir: 19 sentyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 21th of August, 2025; accepted: 19th of September, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *sülh strategiyası, Azərbaycan, Cənubi Qafqaz, beynəlxalq hüquq*

Giriş

artmasında əsas amillərdən biri olmuşdur. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, mədəniyyətlərarası dialoq və humanitar Müasir beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyin təmin olunması dövlətlərin strateji prioritetləri sırasında mühüm yer tutur. XXI əsrin ilk rübü qlobal miqyasda geosiyasi ziddiyyətlərin artması, regional münaqişələrin çoxalması və yeni təhlükəsizlik çağırışlarının meydana çıxması ilə xarakterizə olunur. Belə bir mürəkkəb və çoxqütblü dünyada dövlətlərin diplomatik fəallığı və sülhə yönəlik siyasətləri onların beynəlxalq münasibətlər sistemində mövqeyini müəyyən edən əsas amillərdən biri olmuşdur. Bu mənada sülh yalnız hərbi münaqişələrin qarşısının alınması deyil, eyni zamanda siyasi sabitliyin, sosial rifahın və davamlı inkişafın təməlidir.

Azərbaycanın bu istiqamətdəki mövqeyi isə, xüsusilə 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoymuşdur. Məhz bu tarixdən başlayaraq Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biri olan sülh və sabitliyin təmin olunması məsələsi strateji konsepsiya kimi formalaşmışdır. Prezident İlham Əliyev ölkənin təhlükəsizliyini yalnız hərbi amillərlə deyil, diplomatik, iqtisadi və humanitar mexanizmlərlə möhkəmləndirmək yolunu seçmişdir. Onun rəhbərliyi ilə həyata keçirilən xarici siyasət həm regionda, həm də beynəlxalq miqyasda Azərbaycanın konstruktiv aktor kimi tanınmasına səbəb olmuşdur.

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin təməlində isə, şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu strategiyası dayanırdı. Ümummilli Lider Heydər Əliyev dövründə yürüdülən xarici siyasətin əsas fəlsəfəsi dövlətin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinin təmin olunmasına yönəlmişdi. Neorealist yanaşmaya uyğun olaraq, dövlət beynəlxalq sistemdə anarxiyanın hökm sürdüyü və hər bir aktorun öz maraqlarını təmin etmək üçün müstəqil qərarlar qəbul etdiyi bir mühitdə öz mövqeyini gücləndirməyə çalışır. Azərbaycan bu yanaşma çərçivəsində balanslaşdırılmış xarici siyasət kursu seçərək həm Qərb, həm də Rusiya və İran kimi regional güclərlə paralel əməkdaşlıq münasibətləri qurmağa çalışdı. Bu, bir tərəfdən beynəlxalq təcriddən yayınmaq, digər tərəfdən isə müxtəlif güc mərkəzləri arasında manevr etmək imkanı verirdi. Bu yanaşmanın bariz nümunəsi kimi 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"

* *doktorant, Bakı Dövlət Universiteti*
e-mail: havva.orucova@bsu.edu.az
ORCİD: https://orcid.org/0009-0000-8384-7108
https://doi.org/10.30546/25194011.2025.14.5.3056

göstərilə bilər. Ümummilli Lider Heydər Əliyev bu hadisəni xalqın həyatında önəmli bir tarixi gün kimi qeyd etmişdi (2, s. 64). Məhz Ümummilli Lider Heydər Əliyev dövründə hələ sovet dövlətinin mövcud olduğu vaxt görülən işlər "Əsrin müqaviləsi"nin imzalanması üçün əsas kimi çıxış etdilər (7, s. 4). Bundan əlavə, 1994-cü ildən etibarən NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Azərbaycan Qərb institutları ilə təhlükəsizlik və hərbi sahədə əməkdaşlığın əsasını qoydu (5, s. 33). Təbii ki, bütün bu başlanğıclar uğurlu bir şəkildə Prezident İlham Əliyev tərəfindən davam etdirildi.

Azərbaycanın xarici siyasətində sülh, əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri fundamental yanaşma kimi müəyyən olunmuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmama prinsiplərinə əsaslanır. Azərbaycan bu çərçivədə regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış etmiş, münaqişələrin danışıqlar yolu ilə həll olunmasının tərəfdarı kimi çıxış etmiş və çoxtərəfli diplomatik platformalarda fəal iştirak etmişdir.

Bu siyasət Azərbaycanın beynəlxalq nüfuzunun əməkdaşlıq sahəsində atılan addımlar Azərbaycanın regionda və beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi tanınmasını təmin etmişdir. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm Avropa İttifaqı ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş, həm də Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, BMT və Qoşulmama Hərəkatı kimi platformalarda fəallığını artırmışdır.

Bundan əlavə, İlham Əliyevin sülhə əsaslanan yanaşması yalnız dövlətlərarası münasibətlərlə məhdudlaşmır. O, eyni zamanda region daxilində müxtəlif etnik və dini qruplar arasında harmoniyanın və qarşılıqlı anlaşmanın qorunmasını da sülh konsepsiyasının vacib tərkib hissəsi hesab edir. Multikulturalizm siyasətinin institusional əsaslarla gücləndirilməsi, tolerantlıq mühitinin təşviqi və etnoslararası münasibətlərdə balansın saxlanılması Azərbaycanın daxili sabitliyini təmin etməklə yanaşı, ölkənin beynəlxalq nüfuzunu artıran ideoloji dayaqlardan biri kimi çıxış edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılan sülhə əsaslanan xarici siyasət modeli həm regional, həm də beynəlxalq kontekstdə Azərbaycanın strateji maraqlarını təmin etməklə yanaşı, ölkənin sülh və təhlükəsizlik üzrə qlobal dialoqda fəal və məsuliyyətli tərəfdaş kimi çıxış etməsinə şərait yaratmışdır. Bu strategiya özündə milli maraqlara əsaslanan, beynəlxalq hüquqa söykənən və uzunmüddətli sabitliyə yönəlmiş kompleks və çoxşaxəli yanaşmanı ehtiva edir.

1. Azərbaycanın sülhə siyasi münasibətinin nəzəri əsasları

Azərbaycan Respublikasının Konstitusiyası və dövlət siyasətinin əsas istiqamətləri ölkənin beynəlxalq hüquqa, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və digər beynəlxalq hüquqi sənədlərə uyğun şəkildə fəaliyyət göstərməsini təmin edir. Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsində müharibənin və zorakılığın yolverilməzliyi prinsipi təsbit edilmiş, sülhün qorunması və beynəlxalq təhlükəsizliyin təmin edilməsi dövlətin fundamental məqsədlərindən biri kimi qeyd olunmuşdur. Bu normativ çərçivə Azərbaycanın beynəlxalq münasibətlərdə hüquqa əsaslanan davranış modelini qəbul etdiyini və bu istiqamətdə ardıcıl mövqe sərgilədiyini göstərir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətinin prioritet vəzifələrindən biri öz suverenliyini, ərazi bütövlüyünü beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində bərpa etmək və qorumaq olmuşdur. Bu məqsədlə Azərbaycan daim beynəlxalq hüququn müvafiq sənədlərinə, o cümlədən BMT Nizamnaməsinin 2-ci maddəsinə, Helsinki Yekun Aktına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad etmişdir. Bu sənədlər Azərbaycanın işğal olunmuş ərazilərinin qeydşərtsiz azad edilməsini və regionda davamlı sülhün təmin edilməsini tələb edirdi. BMT tribunasında Azərbaycanın mövqeyinin səsləndirilməsi, beynəlxalq hüquqa əsaslanan çağırışlar və işğal olunmuş ərazilərlə bağlı qəbul edilən qətnamələr, bu onillikdə ölkə-

mizin beynəlxalq nüfuzunun artmasına təkan vermişdir (4). Bu tədbirlər sırasında 2012-ci il may ayında Prezident İlham Əliyev və Pan Gi Mun arasında baş tutan bu görüş və onun nəticəsi olan yüksək səviyyəli iclas Azərbaycanın BMT sistemindəki aktiv rolu və strateji diplomatik bacarığının təzahürüdür. Bu hadisə həm də Azərbaycanın qlobal təhlükəsizlik gündəmində təşəbbüskar və məsuliyyətli dövlət kimi çıxış etdiyini bir daha sübut edir (9).

Azərbaycan beynəlxalq münasibətlər sistemində gücdən deyil, hüquqdan istifadə edilməsinin tərəfdarıdır. Bu yanaşma Prezident İlham Əliyevin siyasi ritorikasında, beynəlxalq tribunalarda və regional platformalarda etdiyi çıxışlarda ardıcıl şəkildə öz əksini tapmışdır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti sülhü sadəcə müvəqqəti atəşkəs və ya ziddiyyətlərin ertələnməsi kimi deyil, beynəlxalq hüquqa əsaslanan ədalətli nizamlanma prosesi kimi nəzərdən keçirir. O, dəfələrlə bəyan etmişdir ki, əgər sülh beynəlxalq hüququn fundamental prinsiplərinə, xüsusilə suverenlik və ərazi bütövlüyünə əsaslanmırsa, o zaman bu sülh formal və qısaömürlü olacaqdır.

Prezident İlham Əliyevin sülhə yanaşması onun siyasi fəlsəfəsinin mərkəzində duran əsas prinsiplərdən biridir. Onun siyasi məntiqinə görə, sülhün davamlı və effektiv olması üçün o, ilk növbədə tarixi ədalətin bərpasına, daha sonra isə hüquqi əsasların möhkəmləndirilməsinə söykənməlidir. Bu yanaşma realizm və konstruktiv idealizmin uğurlu sintezi kimi qiymətləndirilə bilər. Belə ki, İlham Əliyev bir tərəfdən regional güc balansını və milli maraqları əsas götürür, digər tərəfdən isə beynəlxalq hüquq normaları çərçivəsində legitim həll yollarını təşviq edir. Bu, Azərbaycanın post-münaqişə dövründə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atdığı addımlarda da özünü göstərmişdir.

Azərbaycanın sülh konsepsiyası siyasi nəzəriyyədə "pozitiv sülh" anlayışına uyğun gəlir. Pozitiv sülh sadəcə silahlı münaqişənin olmaması deyil, eyni zamanda struktur zorakılığın və institusional ədalətsizliyin də aradan qaldırılmasını nəzərdə tutur. Azərbaycan bu baxımdan həm regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir, həm də beynəlxalq təşkilatlarda hüquqi ədalətin bərpası üçün aktiv diplomatiya yürüdür. Buraya Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı müzakirələr və Ermənistanla birbaşa danışıqlar təşəbbüsləri daxildir.

Eyni zamanda, Prezident İlham Əliyev regional və beynəlxalq miqyasda ədalətsiz və qərəzli vasitəçilik modellərinə qarşı çıxaraq, sülhün milli maraqlara və bərabərlik prinsiplərinə əsaslanan formatda qurulmasının vacibliyini önə çəkmişdir. Onun fikrincə, vasitəçilərin qərəzli mövqeyi və ya ikili standartlar sülh prosesinə xidmət etməyəcək, əksinə onu dərinləşdirəcəkdir. Bu baxımdan Azərbaycanın müstəqil siyasəti və özünəinamlı diplomatik mövqeyi, postkolonial dövlətlərin nümunə götürə biləcəyi praqmatik model kimi qəbul oluna bilər.

Azərbaycanın sülhə münasibəti həm hüquqi, həm siyasi, həm də nəzəri baxımdan kifayət qədər əsaslı və sistemlidir. Bu münasibət Prezident İlham Əliyevin rasional, hüquqa əsaslanan və strateji düşüncə ilə idarə etdiyi xarici siyasətin təzahürüdür. Bu siyasət beynəlxalq aləmdə Azərbaycanın etibarlı, sabitlik yönümlü və hüquqa sadiq tərəfdaş kimi tanınmasına zəmin yaratmışdır. Azərbaycanın sülh fəlsəfəsi regional münaqişələrin beynəlxalq hüquq çərçivəsində ədalətli həllinə yönəlmiş kompleks bir konsepsiya kimi qiymətləndirilməlidir.

2. Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın strateji rolu

Cənubi Qafqaz regionu – Azərbaycan, Ermənistan və Gürcüstandan ibarət olan geosiyasi məkan – uzun müddət ərzində regional münaqişələr, etnik qarşıdurmalar və xarici güclərin maraq toqquşmaları səbəbilə sabitliyin bərqərar olmadığı bir bölgə kimi

tanınmışdır. XIX əsrdən etibarən Rusiya imperiyasının genişlənmə siyasəti nəticəsində bu bölgənin siyasi arxitekturası ciddi şəkildə dəyişmiş və yerli xalqların tarixi əlaqələri süni sərhədlərlə parçalanmışdır. Sovet dövründə isə milli məsələlərin süni şəkildə "dondurulması" və mərkəzdən idarə olunması nəticəsində etnik qarşıdurmaların kökü kəsilməmiş, əksinə, bu problemlər Sovet İttifaqının dağılması ilə açıq fazaya keçmişdir.

1990-cı illərdən etibarən regionda bir neçə əsas münaqişə ocağı meydana çıxmışdır: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrindəki separatizm və Rusiya ilə qarşıdurma, habelə Ermənistan daxilindəki daxili siyasi sabitliyin zaman-zaman pozulması. Bu münaqişələrin əksəriyyəti təkcə yerli etnik və siyasi ziddiyyətlərlə deyil, həm də xarici güclərin müdaxiləsi və maraqlarının toqquşması ilə qızışdırılmışdır. Xüsusilə Rusiya Federasiyası Cənubi Qafqazda "nəzarətli xaos" strategiyasını tətbiq edərək bölgədəki münaqişələrin tam həllini ləngitmiş və öz hərbi-siyasi təsir imkanlarını qoruyub saxlamağa çalışmışdır.

Rusiya, özünün "yaxın xarici" adlandırdığı postsovet məkanında təsirini saxlamaq üçün Ermənistanla strateji hərbi ittifaq qurmuş, oradakı 102-ci baza vasitəsilə regional güc balansını öz xeyrinə dəyişməyə çalışmışdır. Digər tərəfdən, Ermənistan-Rusiya münasibətləri əsasən Moskvanın diktə etdiyi təhlükəsizlik konsepsiyasına əsaslanmış, bu isə Ermənistanın öz siyasətində müstəqilliyini itirməsinə və münaqişənin beynəlxalq hüquqa uyğun həllinə qarşı çıxmasına səbəb olmuşdur. Bu kontekstdə Qərbin ikili standartları da xüsusi qeyd olunmalıdır. ABŞ və Avropa İttifaqı bəzi hallarda Ermənistanın hüquqa zidd mövqeyini sükutla qarşılamış, bu isə Azərbaycan ictimaiyyətində beynəlxalq ədalətə inamın zəifləməsinə gətirib çıxarmışdır.

Azərbaycan isə bütün bu mürəkkəb geosiyasi reallıqlar fonunda balanslaşdırılmış və çoxşaxəli xarici siyasət həyata keçirmişdir. Rusiya ilə münasibətlərdə praqmatik əməkdaşlıq modeli üstünlük təşkil etmiş, enerji təhlükəsizliyi və nəqliyyat layihələrində qarşılıqlı fayda prinsipi qorunmuşdur. İranla münasibətlər tarixi, dini və mədəni bağlarla yanaşı, diplomatik etiket çərçivəsində möhkəmləndirilmiş, xüsusilə iqtisadi sahədə qarşılıqlı investisiya və ticarət genişlənmişdir. Lakin Azərbaycanın regional siyasətində ən sabit və dərin tərəfdaşlıq münasibətləri Türkiyə ilə qurulmuşdur.

2003-cü ildən etibarən İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu əməkdaşlıq təkcə hərbi sahədə deyil, enerji, nəqliyyat, mədəniyyət və beynəlxalq platformalarda birgə fəaliyyət formasında özünü göstərmişdir. 2003-cü il oktyabrın 31-də keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev "Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır" fikrini səsləndirərək, qarşıdakı dövrdə Türkiyə ilə münasibətlərin əsas strateji xəttini müəyyən etmişdi (1) TANAP və TAP layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu və Şuşa Bəyannaməsi bu münasibətlərin məntiqi nəticəsidir. Xüsusilə 2020-ci il 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin siyasi və mənəvi dəstəyi Azərbaycanın beynəlxalq təcriddən çıxmasına və diplomatik üstünlük qazanmasına şərait yaratmışdır.

44 günlük müharibənin əsas məqsədi Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərinin – beynəlxalq hüquq tərəfindən tanınan torpaqlarının – azad edilməsindən ibarət idi. Azərbaycan bu müharibədə BMT qətnamələrinə, beynəlxalq hüququn suverenlik və ərazi bütövlüyü prinsipinə istinad etmiş və faktiki olaraq beynəlxalq hüququn tətbiqini özü həyata keçirmişdir. Müharibə başa çatdıqdan sonra Azərbaycan revanşizmə meyil etməmiş, əksinə bölgədə dayanıqlı sülhün təmin olunması üçün siyasi və diplomatik təşəbbüslərlə çıxış etmişdir. Zəngəzur dəhlizi, nəqliyyat kommunikasiyalarının açılması, sərhədlərin delimitasiyası kimi məsələlər gündəmə gətirilmişdir.

2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror əməliyyatı da bu kon-

tekstdə qiymətləndirilməlidir. Separatçı rejimin Azərbaycan qanunvericiliyini tanımaması, silahlı birləşmələrin mövcudluğu və davamlı təxribatlar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş təhlükə olaraq dəyərləndirilmiş və bu təhlükələrin neytrallaşdırılması məqsədilə birgə antiterror tədbirləri həyata keçirilmişdir. Bu əməliyyat həm hərbi, həm də siyasi baxımdan lokal və məqsədyönlü olmuş, dinc əhali və mülki infrastruktura zərər verilmədən həyata keçirilmişdir.

Azərbaycan bu əməliyyatdan sonra yenidən sülh çağırışlarını səsləndirmiş, reinteqrasiya siyasətini elan etmiş və ərazidə yaşayan erməni əhalinin Azərbaycan vətəndaşı kimi hüquqlarının qorunacağına dair siyasi öhdəliklər götürmüşdür. Bu yanaşma bir daha təsdiqləyir ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sülhü yalnız ritorik deyil, real siyasət səviyyəsində tətbiq edən regional aktora çevrilmişdir.

3. Qoşulmama hərəkatı və Azərbaycanın qlobal sülhə töhfəsi

Azərbaycan Respublikasının beynəlxalq siyasət fəlsəfəsi təkcə region səviyyəsində deyil, həm də qlobal miqyasda sabitlik və sülhün təşviqinə yönəlmiş prinsipial mövqelərlə seçilir. Bu yanaşma, xüsusilə də Azərbaycanın Qoşulmama Hərəkatındakı (QH) fəaliyyəti çərçivəsində daha sistemli və nəzərəçarpacaq şəkildə özünü göstərmişdir. 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qismində qoşulan Azərbaycan, 2019–2023-cü illərdə isə bu mühüm beynəlxalq təşkilata uğurla sədrlik etmişdir. Bu dövr ərzində Azərbaycan beynəlxalq münasibətlərdə "hüquqa əsaslanan beynəlxalq nizamın" bərpası ideyasını irəli sürərək, sülh və ədalət prinsiplərini QH çərçivəsində sistematik şəkildə gündəmdə saxlamışdır.

Qoşulmama Hərəkatı 1961-ci ildə Belqradda təsis olunduğu gündən bəri beynəlxalq sistemdə hegemonluğa qarşı bir siyasi mövqe olaraq formalaşmışdır. Bu təşkilat müstəqil siyasət yürütmək istəyən, Qərb və Şərq blokları arasında seçimə məcbur edilmək istəməyən ölkələri bir araya gətirmişdir. Azərbaycan bu kontekstdə öz siyasətində tarazlılıq, prinsipiallıq və hüquqa sadiqlik meyarlarına uyğun şəkildə çıxış edərək hərəkatın fəlsəfəsinə yeni dinamika qazandırmışdır. Prezident İlham Əliyev bu çərçivədə həm hərəkatın daxili institutlaşmasını gücləndirmiş, həm də onun qlobal beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirmişdir.

Azərbaycanın sədrliyi dövründə hərəkatın institusional inkişafı və beynəlxalq reputasiyanı əhəmiyyətli dərəcədə artmışdır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Hərəkatın BMT ilə əlaqələrini intensivləşdirmiş, xüsusilə də pandemiya dövründə qlobal ədalət və bərabərlik prinsipinə sadiqliyini nümayiş etdirmişdir. 2020-ci ildə Azərbaycan Prezidenti COVID-19 ilə bağlı Qoşulmama Hərəkatının onlayn zirvə görüşünü təşkil etmiş və bu platforma vasitəsilə inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına diqqət çəkmişdir (3). Bu təşəbbüs nəticəsində BMT Baş Assambleyasında pandemiya ilə mübarizəyə dair qətnamə qəbul edilmiş və bu qətnamədə bərabər tibbi yardım, vaksinə çıxış və inkişaf etməkdə olan ölkələrə dəstək çağırışı öz əksini tapmışdır.

Bu addımlar Azərbaycanın yalnız milli maraqlara deyil, qlobal məsuliyyətə əsaslanan siyasət yürütməsinin bariz nümunəsidir. İlham Əliyevin irəli sürdüyü bu yanaşma beynəlxalq münasibətlərdə normativ nəzəriyyə çərçivəsində "ədalətli beynəlxalq nizam" ideyasına uyğundur. Bu nəzəriyyəyə əsasən, dövlətlər yalnız gücə deyil, həm də normativ hüquqi çərçivəyə və universal prinsiplərə əsaslanmalıdırlar. Azərbaycan da bu prinsipləri rəhbər tutaraq, QH çərçivəsində hegemon güclərin ikili standartlarına qarşı çıxmış və beynəlxalq hüququn selektiv tətbiqinə qarşı mövqe sərgiləmişdir.

Azərbaycanın sədrliyi dövründə verdiyi önəmli mesajlardan biri də, beynəlxalq münasibətlərdə "kiçik və orta dövlətlərin" də beynəlxalq gündəliyin formalaşmasında aktiv rol oynaya biləcəyidir. Azərbaycan QH tribunasından istifadə edərək, BMT Təhlükəsizlik Şurası kimi qlobal qərarverici mexanizmlərin islahatını, ədalət və bərabərlik

prinsipinin qorunmasını, siyasi suverenliyin və daxili işlərə qarışmama prinsipinin universal tətbiqini tələb etmişdir. Bu yanaşma Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki fəal və hüquqa əsaslanan mövqeyini daha da gücləndirmişdir.

Azərbaycanın sülh təşəbbüsləri, həmçinin iqtisadi və humanitar sahələrdə də özünü göstərmişdir. Azərbaycan Qoşulmama Hərəkatının bir sıra üzv ölkələrinə tibbi ləvazimat, vaksin, ərzaq yardımı və texniki dəstək göndərmişdir. Bu yardımlar birbaşa olaraq ölkələr arasında sülh və həmrəyliyin qurulmasına yönəlmiş praktiki addımlardır. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə "Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi" və "Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi" təsis olunmuşdur. Bu təşəbbüslər sülhü yalnız hökumətlər səviyyəsində deyil, vətəndaş cəmiyyəti, gənclər və qanunverici orqanlar səviyyəsində də möhkəmləndirmək məqsədi daşıyır.

Azərbaycan Respublikasının Qoşulmama Hərəkatındakı fəaliyyəti onun sülh və hüquqa əsaslanan beynəlxalq siyasətinin fundamental dayaqlarından biri kimi çıxış edir. İlham Əliyevin rəhbərliyi ilə aparılan bu siyasət həm normativ baxımdan beynəlxalq hüququn müdafiəsi, həm də praktiki baxımdan qlobal həmrəylik və sosial ədalətə yönəlmişdir. Azərbaycanın bu istiqamətdəki fəaliyyəti yalnız regional deyil, eyni zamanda qlobal sülh və təhlükəsizlik mühitinə əhəmiyyətli töhfələr vermişdir.

4. Azərbaycanın tolerantlıq siyasəti: daxili sülh modeli

Sülhün təmin olunması yalnız dövlətlərarası münasibətlərin normallaşması və beynəlxalq münaqişələrin həlli ilə məhdudlaşmır. Müasir siyasi nəzəriyyələr və beynəlxalq sülh nəzəriyyələri göstərir ki, dayanıqlı və dərin sülh ("positive peace") həm də daxili sabitlik, sosial harmoniya və cəmiyyət daxilində qarşılıqlı etimad mühiti ilə mümkün olur. Bu baxımdan dövlətin multikultural siyasəti, dini və etnik tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, insan hüquqlarının qorunması və vətəndaşların fərqliliklərinə hörmətlə yanaşılması daxili sabitliyin əsas şərtləri sırasındadır. Azərbaycan Respublikası bu göstəricilər baxımından Cənubi Qafqazda və daha geniş anlamda müsəlman dünyasında nümunəvi model kimi təqdim olunur.

Azərbaycan qədimdən bəri çoxmillətli və çoxdinli bir cəmiyyətin formalaşdığı coğrafi və mədəni məkan olmuşdur. Bu tarixi konfiqurasiya müstəqil Azərbaycanın milli kimliyində də öz əksini tapmış, dövlətin əsas strateji istiqamətlərindən biri kimi multikulturalizmin və tolerantlığın qorunması və təşviqi müəyyən edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət daha da institusional xarakter qazanmış, dövlətin rəsmi ideoloji platformasına çevrilmişdir. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" (5), 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunması bu istiqamətdəki siyasi iradənin bariz ifadəsidir (4).

Azərbaycanın tolerantlıq siyasəti sadəcə daxili idarəçilik üçün deyil, həm də beynəlxalq humanitar diskurs üçün nəzəri nümunə kimi təqdim olunur. Bu çərçivədə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Bakı Prosesi, Dünya Mədəniyyətlərarası Dialoq Forumu və Dini Liderlərin Zirvə Görüşü kimi tədbirlər, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqində qlobal miqyaslı platformalara çevrilmişdir. Bakı Prosesi, xüsusilə UNESCO, İSESCO və BMT ilə əməkdaşlıq əsasında formalaşan, Qərb və İslam dünyası arasında anlaşma körpüsü funksiyasını yerinə yetirən bir təşəbbüs kimi tanınır. Bu proses həm də Azərbaycanın xarici siyasətində "yumşaq güc" strategiyasının effektiv bir aləti kimi çıxış edir.

Daxili sabitliyin qorunmasında və sülhün bərqərar olmasında əhalinin dini və etnik müxtəlifliyinin dövlət tərəfindən hüquqi və mənəvi baxımdan qorunması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyasının 18 və 25-ci maddələrində dini inancların azadlığı, etnik mənsubiyyətə görə ayrı-seçkiliyin qadağan olunması və dövlətin dünyəvi xarakteri təsbit edilmişdir. Bu hüquqi baza əsasında yəhudi,

pravoslav, erməni-qriqoryan, katolik və müxtəlif protestant icmaları Azərbaycanda sərbəst şəkildə fəaliyyət göstərir. Bu isə ölkənin beynəlxalq miqyasda həm müsəlman, həm də qeyri-müsəlman ölkələr tərəfindən hörmətlə qəbul edilməsinə səbəb olur.

Eyni zamanda, bu tolerantlıq siyasəti Azərbaycan vətəndaşlarının siyasi və sosial inteqrasiyasına xidmət edən effektiv bir mexanizmə çevrilmişdir. Dağ yəhudiləri, ləzgilər, talışlar, udinlər, kürdlər və digər azsaylı xalqlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatında aktiv iştirak edir. Bu proses sübut edir ki, Azərbaycan modeli etnik və dini azlıqların gettolarda saxlanılması deyil, onların ictimai həyatla inteqrasiyası və identikliklərinin qorunması prinsipinə əsaslanır. Məhz bu səbəbdən Azərbaycan "multikulturalizm və tolerantlığın laboratoriyası" kimi dəyərləndirilir.

İlham Əliyevin tolerantlıq siyasəti eyni zamanda beynəlxalq terrorizmə, dini radikalizmə və ekstremizmə qarşı ideoloji bir cavabdır. Qlobal miqyasda dinlərarası qarşıdurmanın artdığı, islamofobiyanın və antisemitizmin geniş yayıldığı bir dövrdə Azərbaycan modeli dini harmoniya və qarşılıqlı hörmətə əsaslanan dövlət idarəçiliyi nümunəsi təqdim edir. Bu isə sülhün sadəcə təhlükəsizlik tədbirləri ilə deyil, eyni zamanda dəyərlər və mənəvi sistemlər üzərindən təmin edilə biləcəyini göstərir.

Azərbaycanın tolerantlıq və multikulturalizm siyasəti yalnız daxili sabitlik baxımından deyil, həm də beynəlxalq səviyyədə sülh və əməkdaşlığın təşviqinə töhfə verən strateji və normativ bir modeldir. Bu siyasətin əsas sütunlarını hüquqi çərçivə, siyasi iradə, mədəni diplomatiya və vətəndaşların qarşılıqlı hörmət və anlayışı təşkil edir. Prezident İlham Əliyevin bu istiqamətdəki fəaliyyəti Azərbaycanın təkcə iqtisadi və geosiyasi baxımdan deyil, həm də mənəvi və humanitar aspektlərdə nüfuzlu bir ölkə kimi tanınmasını təmin etmişdir.

Nəticə

Prezident İlham Əliyevin formalaşdırdığı və ardıcıl şəkildə həyata keçirdiyi sülh strategiyası XXI əsr beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının yerini və rolunu yenidən müəyyənləşdirən əsas siyasi konsepsiyalardan biri kimi çıxış edir. Bu strategiya təkcə regional sabitliyə deyil, eyni zamanda qlobal əməkdaşlıq platformalarında konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulmasına xidmət edir. İlham Əliyevin sülh yanaşması, bir tərəfdən real siyasətin tələb etdiyi milli maraqlara əsaslanır, digər tərəfdən isə beynəlxalq hüququn norma və prinsiplərinə hörmət göstərməklə müasir dövlətçilik fəlsəfəsinə uyğun ümumbəşəri dəyərlərlə uzlaşır.

Azərbaycanın hərbi-siyasi sahədə əldə etdiyi uğurlar, xüsusilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı, ölkənin ərazi bütövlüyünü bərpa etməsi baxımından strateji əhəmiyyət kəsb etsə də, bu nailiyyətlər sülhə və dincgüclü reinteqrasiya siyasətinə yönləndirilməsi ilə daha geniş mənaya sahib olmuşdur. Bu, klassik "qalib dövlət" modelindən fərqli olaraq, münaqişədən sonrakı mərhələdə ədalətli və inklüziv sülh modelinin qurulması ilə fərqlənir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, müharibəni diplomatiya tamamlamalıdır, qalibiyyət isə revanşizmə deyil, sabitliyə və dialoqa yol açmalıdır.

Diplomatik təşəbbüslər baxımından Azərbaycan Prezidentinin sülh strategiyası çoxtərəfli və praqmatik yanaşmanı ehtiva edir. Ermənistanla sərhədlərin delimitasiyası, nəqliyyat və enerji kommunikasiyalarının açılması, regionda iqtisadi inteqrasiyanın təşviqi və suverenliyin qarşılıqlı tanınması istiqamətində irəli sürülən təkliflər bu strategiyanın praktik ifadəsidir. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə beynəlxalq hüququn universallığının müdafiəsi, inkişaf etməkdə olan ölkələrə yardım və pandemiya dövründə humanitar diplomatiyanın təşkili İlham Əliyevin qlobal sülhə verdiyi töhfənin bariz nümunələrindəndir.

Daxili siyasət baxımından isə Azərbaycan Respublikasının tolerantlıq, multikultu-

ralizm və sosial həmrəylik dəyərlərinə əsaslanan idarəçilik modeli bu strategiyanın daxili sabitlik komponentini təşkil edir. Dini və etnik müxtəlifliyin hüquqla qorunduğu, azlıqların cəmiyyətin siyasi, sosial və mədəni həyatında fəal iştirak etdiyi Azərbaycan modeli, daxili sabitliyin qorunması ilə beynəlxalq sülh fəlsəfəsi arasında üzvi əlaqənin mövcudluğunu sübut edir. Məhz bu səbəbdən, Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində təşəbbüsləri, o cümlədən Bakı Prosesi və Dini Liderlərin Zirvə Görüşləri – beynəlxalq aləmdə geniş rəğbətlə qarşılanmışdır.

Bütün bu göstəricilər sübut edir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi sülh strategiyası yalnız situativ siyasi zərurətlərin cavabı deyil, uzunmüddətli strateji düşüncəyə əsaslanan, hüquq, ədalət və təhlükəsizlik balansına söykənən sistemli bir konsepsiyadır. Bu konsepsiya Azərbaycanın həm regional güc balansında fəal oyunçu, həm də beynəlxalq hüququn tərəfdarı və təşəbbüskar aktor kimi çıxış etməsinə şərait yaratmışdır.

Beləliklə, Azərbaycanın qazandığı hərbi uğurların diplomatik və humanitar müstəviyə ötürülməsi, beynəlxalq təşkilatlarda nümayiş etdirdiyi prinsipial və ədalətə əsaslanan mövqe, eləcə də daxildə etnik və dini müxtəlifliyi dəstəkləyən sabit idarəetmə modeli, onu təkcə Cənubi Qafqaz regionunda deyil, daha geniş coğrafiyada sülh və təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşına çevirmişdir. İlham Əliyevin bu çoxşaxəli və çoxölçülü sülh strategiyası, müasir dünyada sülhün yalnız hərbsizliyə deyil, həm də ədalətə, hüquqa, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslandığını praktik şəkildə nümayiş etdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqi. /31 oktyabr 2003-cü il, s.6. (http://files.preslib.az/site/ialiyev/2003.pdf).
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 2-ci kitab. Bakı: Azərnəşr, 1997, 164 s.
3. Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə İlham Əliyevin nitqi. (https://president.az/az/articles/view/59194).
4. Prezident İlham Əliyev: "2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi sülhə çağırışdır". (https://scara.gov.az/az/xebər/maariflendir-me/islam-hemreyligi/prezident-ilham-eliyev-2017-ci-ilin-islam-hemreyligi-ili-elan-edilmesi-sulhe-cagirisdir)
5. Sümərinli C. İrəliyə, NATO-ya doğru! Bakı: "Əbilov, Zeynalov və oğulları", 2007, 138 s.
6. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
   (https://e-qanun.az/framework/32310)
7. Алиев И. Г. Каспийская нефть Азербайджана. Москва: Известия, 2003, 712 с.
8. Ministry of Foreign Affairs of the Republic of Azerbaijan. (n.d.-a). Relations with the United Nations (UN). (https://mfa.gov.az/en/category/beynelxalq-teskilatlar/azerbaycan-birlesmis-milletler-teskilati-munasibetleri)
9. President Ilham Aliyev met with UN Secretary General Ban Ki-moon in New York. (https://president.az/en/articles/view/4802)

Резюме

Хевва Оруджова

Концептуальные основы мирной стратегии Президента Ильхама Алиева

В данной статье анализируются основы мирной стратегии реализуемой под руководством Президента Ильхама Алиева. Подчёркивается, что политика Азербайджана в области мира направлена на установление отношений, основанных на нормах международного права, принципах равноправия и уважения к суверенитету государств, как в региональном, так и в глобальном измере-

нии. На первом этапе рассматривается теоретический подход Азербайджана к миру в контексте международного права. Особое внимание уделяется закреплению принципов территориальной целостности, невмешательства во внутренние дела и взаимного признания государств. Эти положения формируют концептуальную основу мирной политики, обеспечивая её правовую и моральную легитимность. Далее анализируются военные и дипломатические инициативы страны в Южном Кавказе. 44-дневная Отечественная война 2020 года и локальная контртеррористическая операция 2023 года рассматриваются как ключевые этапы, обеспечившие восстановление государственного суверенитета, укрепление национальной безопасности и формирование новой архитектуры регионального порядка. Эти события заложили базу для устойчивого мира, основанного на справедливости, законности и равновесии интересов. Международное измерение политики Азербайджана проявилось особенно ярко в период председательства в Движении неприсоединения. Азербайджан активно продвигал идеи глобальной справедливости, солидарности и многостороннего сотрудничества. Важное значение имели инициативы в гуманитарной сфере, в том числе поддержка стран в борьбе с пандемией и участие в глобальной климатической повестке, что укрепило имидж страны как ответственного международного актора. Во внутренней плоскости стратегия опирается на развитие толерантности, мультикультурализма и межрелигиозного согласия. Эти ценности органично сочетаются с внешнеполитическими инициативами, формируя единую модель национального и международного миротворчества. В заключение подчёркивается, что мирное видение Ильхама Алиева представляет собой комплексную и долгосрочную модель, основанную на нормативной законности, прагматичной дипломатии и внутренней стабильности, что придаёт азербайджанской стратегии уникальный характер и значимость в современном мире.

Ключевые слова: *мирная стратегия, Азербайджан, Южный Кавказ, международное право*

Summary

Hava Orujova

The Conceptual Foundations of President Ilham Aliyev's Peace Strategy

This article examines the theoretical, political, and institutional foundations of the peace strategy formulated and implemented under the leadership of President Ilham Aliyev. It argues that Azerbaijan's peace policy seeks to establish relations based on international law both regionally and globally. In its first part, the article outlines Azerbaijan's political and theoretical approach to peace within the framework of international legal norms, emphasizing the importance of sovereignty, territorial integrity, and mutual respect among states. The study then analyzes Azerbaijan's military and diplomatic initiatives in the South Caucasus, identifying the 44-day Patriotic War of 2020 and the 2023 counter-terrorism operation as pivotal phases in shaping a new regional security architecture. These events not only restored Azerbaijan's sovereignty but also created a foundation for a long-term peace process grounded in justice and legality. Azerbaijan's proactive international role is another central dimension. As chair of the Non-Aligned Movement from 2019 to 2023, Azerbaijan consistently advocated for the principles of international law, global justice, and multilateral cooperation. In addition, its humanitarian diplomacy and calls for fairer global governance strengthened its position as a responsible international actor. Domestically, the promotion of tolerance, multiculturalism, and interfaith harmony has served as an internal pillar of Azerbaijan's peace vision. The country's active engagement in intercultural dialogue initiatives further demonstrates the coherence between its internal values and external policy. The study concludes that Ilham Aliyev's peace strategy constitutes a comprehensive and long-term model combining normative legality, pragmatic diplomacy, and internal stability, thereby offering a distinctive approach to sustainable peace.

Key words: *Peace strategy, Azerbaijan, South Caucasus, international law.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

FİLOLOGİYA

UOT 82-1

AZƏRBAYCAN-TÜRK XALQ SUFİZMİNİN YARANIB FORMALAŞMASINDA ŞAH İSMAYIL XƏTAİ POEZİYASININ ƏHƏMİYYƏTİ

Ləman OSMANOVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 22 noyabr 2025; çapa qəbul edilmişdir: 2 dekabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 22th of November, 2025; accepted: 2th of December, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *Xətayi, ozan, aşıq, poeziya, sufi, panteist, xalq, türk, saz, dastan*

Giriş

Xalq dilinə, xalq bədii məfkurəsinə münasibət Şah İsmayıl Xətayi poeziyasının, ümumiyyətlə, Xətayi şəxsiyyətinin öndə gələn prioritetlərindən biri olmuşdur. Onun həyatı kimi yaradıcılığı da başdan-ayağa xalqa, millətə olan bağlılığıyla tarixə düşmüşdür. Bu bağlılığın ən bariz göstəricilərindən və nəticələrindən biri və bəlkə də birincisi onun heca vəznli şeirləridir. Heca vəznli şeir dedikdə, əlbəttə ki, ilk növbədə ozan-aşıq ədəbiyyatı düşünülməlidir. Lakin bundan əlavə şifahi xalq ədəbiyyatı örnəkləri olan folklor nümunələri, o cümlədən varsağılar, bayatılar və digər mənzum formalar da Xətayi poeziyasının maraqlı tərəflərindən biridir.

"Azərbaycan ədəbiyyatında Həsənoğlu (XIII əsrin əvvəlləri) ana dilində ilk şeiri yazmış, Qazi Bürhanəddin ana dilində ilk divan bağlamış, İmadəddin Nəsimi anadilli şeirimizi bədii-fəlsəfi yüksəkliyə qaldırmış, fəqət heca vəznində Yunus Əmrədən sonra ilk klassik nümunələri öz yaradıcılığında klassik şeir ənənələrini və poetikasını xalq şeiri ilə uğurla sintez edən Şah İsmayıl Xətayi olmuşdur" (4, s. 276). Ancaq qeyd etmək istərdik ki, xalq şeiri üslubunda yazmaq təkcə poetik fərqlilik və ya özəllik deyil, həm də xəlqilik, yəni xalq psixologiyasını daşımaq, onu yönləndirə bilmək, ona aid ola bilməkdir. Xüsusilə də təsəvvüf fəlsəfəsini əks etdirən heca vəznli ədəbiyyat Şah İsmayıl Xətayinin timsalında tam mənası ilə türk xalq təsəvvüfünün varlığı demək idi. Xoca Əhməd Yəsəvidən başlayan bu təşəbbüs, yəni ürfani hikmətləri sadə xalqın anlayacağı dildə qələmə almaq missiyası Xətayi qələmində daha uca, daha uğurlu və daha məqsədyönlü şəkil aldı.

Bunu da etiraf etmək lazımdır ki, o dövrün bədii dili ürfani və təsəvvüfi cazibənin tərkibində idi. Məcazi ünsürlərin, məsələn, zahiri gözəlliklərin rəmzlərə və simvollara çevrilməsi təkcə divan ədəbiyyatının bədii metodu deyildi. Yunus Əmrənin ağacdan hazırlanan su çarxına "dərdli dolab" deyərək onu aşiqin və eşqin gərdişi, dövranı, dönməsi kimi dərin mənalarla yükləməsi əsl ürfani hadisə, əsl təsəvvüf simvolikası idi.

1. Dastançılıq ənənələrində xalq sufizmi və Şah Xətayi poeziyası

Ümumtürk dastançılıq ənənələrinin Azərbaycan formatının yaranması məhz Səfəviliklə və birbaşa Şah İsmayıl Xətayinin adı ilə bağlıdır. Çünki bu dastançılıq prinsipləri hər şeydən əvvəl qəhrəman və qəhrəmanlıqlara müqəddəslik, sakrallıq kimi keyfiyyətlər

* *doktorant, Naxçıvan Dövlet Universiteti*
e-mail: lemanerebqizi@gmail.com
ORCID: https://orcid.org/0009-0005-4807-5460
https://doi.org/10.30546/25194011.2025.14.5.3062

yükləməklə yaranırdı. Xalq arasındakı həmişəyaşarlığın, qeyri-adiliyin və doğmalığın ana qayəsini də məhz bu müqəddəslik prinsipləri təşkil edirdi. "Təsəvvüfün və ürfanın xəlqiliyi" dedikdə biz təkcə xalq təsəvvüfünü, xalq ədəbiyyatından və milli folklordan gələn ürfani elementləri nəzərdə tutmuruq. Bu xəlqiliyin mahiyyətində yatan əsas məfhum klassiklərin ümumilli fəlsəfəni təşkil edən əqidə və məfkurələrinin xalq tərəfindən mənimsənilib dərk olunmasıdır" [1, s. 204-208]. Bu sakrallığın, bu ilahiliyin məlum coğrafiyadakı və məlum tarixi dövrdəki yeganə və əsas bazası ürfan və təsəvvüf idi. Xətayinin həm əruz, həm də heca vəznli şeirlərindəki "şah", "pir", "mürşid", "Mehdi" kimi açar rolu oynayan kodlaşmış ifadələr məhz bu missiyanın uğurla həyata keçirilməsindəki bədii atributlardır. S. Xavəri qeyd edir: "Əgər Əhməd Yəsəvi poeziyasında müridə verilən əxlaq dərsləri içərisində ilahi dərgaha qovuşmağın yeganə vasitəsi kimi eşqə sadiqlik təbliğ olunurdusa, Yunus İmrədə ilahi dərgaha qovuşmuş salikin vüsal nəğmələri əsas yer tutursa, Şah İsmayıl Xətayi poeziyasında mürşidə sadiqlik təriqətin əsas prinsipi kimi qabardılır" [5, s. 209-210]. Sitatda yer alan fikirlərdən aydın olur ki, təsəvvüfdəki "mürşid-mürid" münasibətləri zamanından və məkanından asılı olmayaraq, demək olar ki, dəyişməz qalır.

Xüsusilə də onun heca vəznli mənzumələri bu baxımdan daha perspektivli görünür. El arasında qədim dövrlərdən bəri məşhur olan ozanlar, dədələr, varsaqlar, akınlar, baxşılar, aşıqlar Xətayinin heca vəznli şeirlərinin xəlqi tərəfinin ortaya çıxmasında əsas təməl rolunu oynamışdırlar.

Xətayinin heca vəznli şeirlərini bir neçə yerə bölmək olar. Onun nəsihətamiz şeirləri, aşiqanə qoşma və gözəlləmələri, eyni zamanda aşıq gəraylıları, həmçinin varsağı və bayatı kimi unikal xalq ədəbiyyatı janrındakı əsərləri bu təsnifata daxil edilə bilər.

Şah İsmayıl Xətayinin nəsihətamiz qoşmalarında qədim türk ozanlarından və dədələrindən gələn ağsaqqallıq, müdriklik dayanır:

Qarşıdakı qarlıca dağı gördünmü?
Yoldurmuş əyyamın, əriyib gedər,
Axar sulardan sən ibrət aldınmı?
Yüzünü yerlərə sürüyüb gedər. [3, s. 330-331]

Elə ilk misralardan Dədə Qorqudsayağı nəsihətamizlik və ruhani saflıq hiss olunur. Dağlardan, sulardan ibrət almaq hikməti qədim türk şamanlığından, türk paqanist inanclarından gələn bir keyfiyyət kimi önümüzə çıxır. Böyük ədəbiyyatşünas alim F.Köprülü yazır:

"Türklər üzərində ən qüvvətli təsirə malik olan İslamiyyətin daxil olub yerləşməsindən sonra belə bütpərəstlik zamanından qalma əski ədəbi formalara, və ya əski mövzuların İslami bir rəng almış şəkillərinə təsadüf edilir.

Ən əski türk şairləri – tunqusların "şaman", Altay türklərinin "qam", yakutların "oyun", qırğızların "baxşi", oğuzların "ozan" dedikləri "sahir-şairlər"dir." [7, s. 67]. Böyük alimin fikirlərindən çıxan nəticə bundan ibarətdir ki, türklər İslamöncəsi sakral dəyərlərini İslam təsəvvüfünün mütərəqqi ideya və forma qəliblərinə uyğun bir şəkildə yenidən və daha dərin mahiyyətlə davam etdirmişlər. "Qam"ların ozanlara, "baxşı"lara çevrilməsi həm tarixi zərurət, həm də fəlsəfi bağlılıq demək idi.

2. Əruz və heca vəznli şeirləri arasındakı ədəbi harmoniya

Onu da xüsusilə qeyd etmək istərdik ki, Şah Xətayinin əruz vəznli şeirləri nə qədər sadə və xalq dilinə yaxın bir tərzdə qələmə alınsa da, heca vəznli şeirlərindəki yuxarıdakı nümunəyə bənzər qeyri-adi arxaik ab-hava onun divanında az hiss olunur. Çox qəribədir ki, gənc sayılacaq yaşda dünyadan getmiş şair hər iki ədəbi istiqaməti yanaşı,

bir-birinə paralel olaraq çox gözəl və mükəmməl şəkildə təmsil edə bilmişdir.

Sıra-sıra gələn ol ulu quşlar,
Sirli olur, yaxmaz onu atəşlər,
Əvvəl əzəl meyvə verən ağaclar,
Onlar da qalmayıb, çürüyüb gedər [3, s. 330-331].

Bu misralarda biz təbiətlə, onun müxtəlif ünsürləri ilə bağlılığı "sıra-sıra uçan" quşların, "meyvə verən" ağacların obrazında görürük. Lakin bunlar sadə bir el nəsihətindən ibarət misralar deyil. Xətayi nəsihətinin, Xətayi hikmətinin alt qatında mütləq şəkildə ürfani bir məsələ və sufiyanə rəmzlər yatır. Biz bu fərqliliyi onun bütün poeziyasında müşahidə edirik. Məsələn, elə bu bənddəki "ulu quşlar" ifadəsi sadəcə ədəbi bir tapıntı, və ya bənzətmə deyil. "Ulu" kəlməsinin yerinə hər hansı başqa bir sözdən istifadə etmək Xətayi kimi istedadlı qələm sahibi üçün çətin deyildi. Ancaq görünür ki, buradakı "quşlar" simvolik məna daşıyır və hansısa insan təfəkkürünün, insan kamilliyinin məcazını ifadə edir. Çünki növbəti misradakı "sirli olur, yaxmaz onu atəşlər" fikri birbaşa quşları, və ya hansısa bir təbiət hadisəsini inikas etdirmir. Buradakı quşların "sirri" bizə qədim əfsanələri, dini kitablardakı rəvayətləri, Əttarın "Məntiqüt-teyr"ini, Mövlananın "Məsnəvi"sini, müxtəlif şairlər tərəfindən qələmə alınmış "Tutinamələr"i və s. xatırladır. Şah Xətayinin poetik qələmi məhz özündən əvvəlki sələflərinin möhkəm ürfani bazası üzərində təşəkkül tapmış və onu tamamilə yeni mərhələyə daşımış olan poeziyadır. Bu mərhələ məhz türk xalq təsəvvüfünün bu coğrafiyadakı tarixi varlığı və bir neçə əsr sürəcək olan fəlsəfi-sosial təsir gücündən ibarətdir. Şah Xətayi poeziyası onun mənsub olduğu səfəvilik ideologiyasını heç bir siyasi və coğrafi sərhəd tanımadan gələcəyə daşıdı və bu gün də həmin missiya davam etməkdədir. Qılıncların, fütuhatın, tarixi təbəddülatın gücdən düşdüyü zamanlarda sözün, fəlsəfənin, hikmətin və bədiiyyatın əbədiyaşarlığı bu baxımdan aydın bir şəkildə özünü göstərir.

3. Sufi-qizilbaş dünyagörüşü və Xətayinin heca şeirləri

Sufi-qizilbaş dünyagörüşünün Şah İsmayıl Xətayinin heca şeirlərindəki təzahürü özünəməxsus formaya və məzmuna sahibdir. Burada ürfani rəmzlərdən, məcazlardan daha çox açıq bədii üsluba, o cümlədən əhli-həq kəlamlarına və ələvi-bəktaşi deyişlərinə çox yaxın bir tərzə şahid oluruq. Əslində isə, həm əhli-həq kəlamlarında, həm də ələvi-bəktaşi deyişlərində Şah Xətayi poeziyasından kifayət qədər örnəklər mövcuddur. Lakin buradakı əsas məsələlərdən biri Səfəvilərin əhli-həqlərlə bağlılığıdır ki, bunun haqqında maraqlı bir mənbədə oxuyuruq: "Şeyx Səfiyyəddin Ərdəbili Şeyx Əhərinin xirqədarı və müridi olaraq, iki vasitəçi ilə onunla bağ qurmuşdur. Şeyx Zahid Geylaniyə yetişmədən öncə sirləri kəşf etmək məqsədilə Əhərinin türbəsinin yaxınlığında xəlvətə çəkilmişdir. Bu yaxınlıq Əhərinin müridləri və tələbələrinin Səfəvi təriqətinə qatılmalarında önəmli bir rol oynamışdır. Digər Səfəvi şeyxləri və padşahları da təsəvvüf ərbabı kimi Şeyx Əhərinin türbəsinə böyük bir maraq göstərmiş və bu müqəddəs yeri ziyarət etmişdilər" [8, s. 226-261]. Şeyx Əhəri əhli-həq mürşidi idi. Sitatdan belə anlaşılır ki, əslində Ərdəbil şeyxlərinin ruhani-fəlsəfi bazasını Təbriz və ətrafındakı əhli-həq xanədanları və onların pir və mürşidləri olmuşdur. Bu faktın unikallığı həm də ondan ibarətdir ki, tarixi qaynaqlarda Şeyx Səfi xanədanının məhz əhli-həq firqəsi ilə bağlılığı haqda çox az və qeyri-dəqiq informasiyalara rast gəlirik.

Sufi-qizilbaş poeziyasına nümunə olaraq, yuxarıdakı nəsihətamiz heca şeirinin başqa bir bəndinə diqqət edək:

Qadirsən, ey ulu şahım, qadirsən,
Üstümüzdə dörd guşəli çadirsən,
Hər nəyə baxsaq, orda hazırsan,
Cümləmizi birdən bürüyüb gedər [3, s. 330-331].

Buradakı "şahım" kəlməsi müxtəlif, ancaq ideya-fəlsəfi baxımdan bir-birinin ziddi olmayan mənalarda dərk edilə bilər. Yəni həmin "şah" Xətayinin özü də ola bilər, onun "şah" dediyi, "şah" bildiyi hansısa gizli bir mürşid, pir də ola bilər. Çünki təsəvvüf dünyagörüşündəki təcəlla, donbadon, pərtöv (əks olunma), məzhər və sairə məsələlərin mövcudluğu bu barədə analoji düşünməyə imkan verir. Üçüncü misradakı "hər nəyə baxsaq, orda hazırsan" deyimi bu baxımdan sufiyanə düşüncə metodu ilə kəsişir. Bir şəxsin eyni anda müxtəlif yerlərdə görünməsi fikri Şərq mistisizmində Xətayidən öncə də vardı, Xətayidən sonra da davam etdi. Bu misradakı "hazır" ifadəsi isə sufilikdəki "məzhər" sözüylə eyni kökdəndir. "Allahın məzhəri", yəni onun hüzuru, onun görüntüsü anlamındakı bu ifadə Xətayi şeirindəki "şah"lıq anlayışının nəzəri strukturunu təşkil edir ki, bu da sufi-qizilbaş dünyagörüşünün ana xətlərindən biri sayılır:

Dərindir bizim dəryamız, boylanmaz,
Min bir kəlam desəm, biri anlanmaz.
Kişi iqrarsız yollara yollanmaz,
Yolları qoynunda yürüyüb gedər.

Şah Xətayim söylər sözü özündən,
Dərvişlərin sağınıbdır gözündən,
Olur-olmaz münkirlərin sözündən,
Əsriyib könlümüz farıyıb gedər [3, s. 330-331].

Qüdrətli söz sənətkarının "min bir kəlam desəm, biri anlanmaz" misrasındakı "min bir" ifadəsinin təsadüfi olmadığını düşünürük. Belə ki, əhli-həq cərəyanında mənzum şəkildə yazılıb-oxunan zikr və kəlamlara şərti olaraq "min bir kəlam" deyilir. "Min bir" ifadəsi ümumiyyətlə Şərq fəlsəfəsində və özəlliklə də türk xalq sufizmində xüsusi önəmə sahibdir. "Dərindir bizim dəryamız, boylanmaz" dedikdə isə, biz Şah Xətayinin timsalında təsəvvüfün gizli qalan batini mətləblərinin olduğu qənaətinə gəlirik. Çünki növbəti bənddə "Şah Xətayim söylər sözü özündən, dərvişlərin sağınıbdır gözündən" misralarında bəzi sufiyanə sirlərin sufi dərvişlərdən belə "sağındığı" – qorunduğu fikri meydana çıxır. Düşünürük ki, bu gizlilik Şah Xətayinin əhli-həqlərlə, başqa sözlə desək, təsəvvüfün "həqiqət" mərhələsi ilə bağlılığının ifadəsidir. Həmin əhli-həq cərəyanı müasir dövrümüzdə də böyük əksəriyyətlə gizli bir cərəyan hesab edilir və onların haqqında hələ də elm aləminə çox az şey məlumdur. Müxtəlif sufi təriqətlərinin kütləyə, ictimaiyyətə açıq olmasına baxmayaraq, Şah Xətayi onu, yəni "özündən" söylədiyi həmin kəlamları sufi dərvişlərdən də gizlədir və bəzən onları da bu şeirdəki kimi, "münkir", yəni inkarçı adlandırır.

Şah İsmayıl Xətayinin poetik irsində özünəməxsus və müstəqil yerə sahib olan heca şeirləri öz vəzn xüsusiyyətlərinə, ölçülərinə, simmetrik parametrlərinə görə dəqiq və mükəmməl nəzm örnəkləridir. Həmin dövrün yazılı və elitar poeziya mühitində bu vüsətdə heca şeirləri yazıb-yaratmaq, əlbəttə ki, başlı-başına bir novatorluq və mədəni cəsarət idi. Qeyd etdiyimiz kimi onun heca şeirləri arasında müdrik pir nəsihətlərini xatırladan mənzumələri kifayət qədərdir. Bu şeirlər bir el ağsaqqalının, xalq müdrikinin tövsiyə və dəlillərini xatırlatsa da, onların daxilindən ürfani xətt, sufiyanə amal əsas qayə olaraq keçir:

Gəl öyüd verəlim, öyüd alırsan,
Xidmət eylə genə gülü bulunca,
Karvan gedər, sağın, geri qalırsan,
Haman əldən qoyma yolu bulunca.

Öldürsə də çıxmaz yoldan yol əri,
Gerçəklərin əlindədir yüyəni,
Göründü, seyr elə axan suları,
Qarışır ümmana seli bulunca... [3, s. 332].

Bu misralarda yer alan öyüd-nəsihətin ümumi xarakter daşımadığı, yəni onların konkret olaraq "yol əri"nə, yəni təriqət əhlinə ünvanlandığı aşkardır. Bunlar sadəcə düzlük, paklıq, doğruluq üçün verilən adi nəsihətlər olmayıb, bəlli ərkanı, şərti, kodları olan və pirlər, mürşidlər, dədələr tərəfindən verilən dəsturlardır. "Öldürsə də, çıxmaz yoldan yol əri", çünki həmin təriqət yolçusunun, həmin müridin "yüyəni", ixtiyarı, iradəsi Xətayinin "gerçəklər", "gerçək ərənlər" adlandırdığı ustadların əlindədir. Şah Xətayinin obrazlı dilində Haqq yolu, eşq yolu, ürfan yolu axan sulara bənzədilir. Həmin "axan sular "seli bulunca", yəni özündən daha üstün, daha qüvvətli yol əhlinə, gerçək ərənlərə rast gəldiyi zaman, onlardan dərs aldığı zaman ümmana, yəni elm və eşq dəryasına qovuşur. Buradakı "ümman" kəlməsi də Xətayi tərəfindən təsadüfən seçilməmişdir. "Ümman" ürfani məcazlar sistemində elmin və arifliyin cəm olduğu, nəhayətə yetişdiyi məqama verilən addır.

Arı oldun, hər çiçəkdən alırsan,
Balın damızlığın qanda bulursan,
Yetmiş min ayətə dəlil olursan,
Anlayıb da bu dəlili bulunca. [3, s. 332]

Bu bəndin dini yox, məhz təsəvvüfi məna daşıdığı üçüncü misradakı "yetmiş min ayət" ifadəsindən bəlli olur. Əgər söhbət Quran ayələrindən gedirsə, məlumdur ki, onların sayı 6236-dır. Bəs onda Xətayinin adını çəkdiyi "yetmiş min ayət" haradan çıxdı? Bunun bir neçə izahını vermək olar. Onlardan ən yayğını görünən və görünməyən, duyulan və duyulmayan hər şeyin Allahdan gələn bir ayə olduğu fikridir ki, bu da təsəvvüfdəki "kəsrəti-mövcud" və "vəhdəti-mövcud" qavramları ilə səsləşir.

Yuxarıdakı bənddə adı çəkilən "dəlil" isə sufi təriqətlərində ayrıca bir mövzudur. Ürfani qaynaqlarda "dəlil" təkcə bir şeyin isbatı və təsdiqi anlamina gəlmir. Təsəvvüfdəki "dəlil" daha çox müridi mürşidə, və ya şaha aparan, ona zamin olan, ona "dəlil olan" şəxsdir. "Dəlil" bilinən anlamıyla daşıdığı sübut, şahid və başqa kəlmələrin xaricində ədəbi bir termin olaraq, "rəhbər-mürşid" mənasına da sahibdir" [9, s. 309-318]. Sufi-qizilbaş təriqətində isə, "dəlil" məsələsi xüsusi məna yükünə sahibdir ki, bu da Xətayinin bir çox heca şeirində özəl olaraq vurğulanır.

Qeyd etdiyimiz kimi, Şah İsmayıl Xətayinin heca vəznli şeirləri içərisində aşiqanə mənzumələr də özünəməxsus yer tutur. Həmin şeirlər Haqq aşiqi bir arifin dilindən insana, gözəlliyə, məhəbbətə ünvanlanmış lirik nümunələrdir:

...Bildiyim unutdum, eylərəm fəryad,
Dərdim budur, dil yox istəyəm imdad,
Təkrar yenə təlim etdi bir ustad,
Dərsimi məktəbi-ürfandan aldım... [3, s. 336].

Bu misralar lirik, axıcı və bir qədər də qəmli təsir bağışlasa da, cəmi dörd misrada sona doğru ürfani bir pirə, ustada müraciət edilir. "Təkrar yenə təlim etdi bir ustad" misrası sufi müridinin öz mürşidinə olan daimi ehtiyacının göstəricisidirsə, "dərsimi məktəbi-ürfandan aldım" misrası isə məhəbbətin, eşqin qəti şəkildə ürfani bir nəsnə olduğunu açıq şəkildə bəyan edir.

Can gözü qəflətdən açıla düşdü,
İkilik pərdəsi seçilə düşdü,
Qüdrət xəzinəsi açıla düşdü,
Cəvahiri kani-mərcandan aldım... [3, s. 336].

Təsəvvüfdəki "ikilik", və yaxud da "ikilikdən birliyə yetmək" məsələsi Şah Xətayinin başqa şeirlərində də özünə yer alır. Məsələn, onun məşhur varsağılarından birində deyilir:

İki can idik birləşdik,
Məhəbbət qapısın açdıq,
Şükür, didara irişdik,
Dədəm, xoş gəldin, xoş gəldin [3, s. 335].

Buradakı "dədə" həm müraciət, həm də fəxriyyə motivi kimi də anlaşılır. Yəni, bu şeirdə Şah Xətayi həm öz mürşidinə, həm də müridlərinin dilindən özünə xitab edə bilər.

Şah Xətayinin lirik formalı heca şeirləri həm də özündən sonrakı dövrün Azərbaycan aşıq şeiriyyətinə də həlledici təsirlərini göstərmişdir. Onun xüsusilə də gəraylıları bu baxımdan səciyyəvidir. Bu şeirlər Şah Xətayiyə qədərki səkkizhecalıya bənzər ozanvari mənzumələrdən fərqli olaraq, daha üslublu, rədif və qafiyə sistemi daha dəqiq olan gəraylılardır:

Könül seyranda gəzərkən,
Şah gəldi, qondu saraya.
Haqqa niyaz eylər ikən,
Bir əngəl düşdü araya.

Haqqın qapısından girdim,
Kəndi vücudumu gördüm,
Mərifət qazanını qurdum,
Eşqi qaynadan kürəyə.

Məhəbbət xaslar xasıymış,
Etməyən haqqın nəsiymiş.
Sevgi haqqın sevgisiymiş,
Ərənlər nə deyər buraya? [3, s. 354].

Şah Xətayinin bu tip şeirlərində biz Sufi-Qızılbaş dünyagörüşünün əsl batini, mənəvi qatlarını görürük. Bir təsəvvüf təriqəti olan qızılbaşlığın əslində Haqq-Tanrı sevgisindən ibarət olduğunu – "sevgi haqqın sevgisiymiş", Allahın zat və sifətlərinin insanda cəm olduğunu – "Haqqın qapısını açdım, kəndi vücudumu gördüm" və insan qəlbinin nəticə etibarilə Haqqın evi olduğunu – "Könül seyranda gəzərkən, şah gəldi qondu saraya" – görürük. Bu qədər dərin mənalı və özünəxas fəlsəfi məntiqə sahib olan incə ruhlu şeirlərin sadə el aşıqlarının sazında "Baş gəraylı", "Orta gəraylı" kimi havalar üstündə

oxunması heyrətamiz dərəcədə xəlqidir və millidir.

Bütün bunların fonunda Şah İsmayıl Xətayinin ağız ədəbiyyatından gələn şeir şəkillərinə də müraciət etməsi maraqlı və orijinal faktor olaraq qarşımıza çıxır. Onun varsağıları bu baxımdan önəmlidir:

Bir gözəlin vücudunun şəhrinə,
Bax, nəzər eylə də həmən arif ol.
Dükanında dediyin mətahına,
Bax, nəzər eylə də həmən arif ol... [3, s. 351]

Məsələ burasındadır ki, ağız ədəbiyyatı nümunələrində dərin, fəlsəfi, ürfani, üstəlik də sistemli fikir və mənalara az rast gəlmək olur. O, burada insan vücudunu "şəhər" adlandırır. O "şəhər"i tanıyan, yəni insanı bilən arif olur, Haqqı görür. Yaxud da başqa bir varsağısında böyük söz sənətkarı belə deyir:

...Bayquş kimi nə bəklərsən viranı,
Şükür olsun səni bizə veräni,
Sultan Xətayinin işi, yüyəni,
Mehman canlar bizə səfa gəldiniz. [3, s. 352]

Buradakı lirik atmosferin alt qatlarında təsəvvüfdəki "mehman"lıq, yəni Allahın, mələklərin, nəbilərin, övliyaullahın Haqq aşiqlərinin könlünə "qonaq gəlməsi", onların vücudunda təcəlla etməsi kimi məsələlər yer alır.

Aşıq sözünün mənbəyi böyük ehtimalla ərəbcədəki "aşiq"dən gəlir. F. Köprülünün bu barədə fikirləri diqqətəlayiqdir: "Aşıq" xalq arasında ümumiyyətlə saz şairlərinə verilən bir addır. Yenə də xalq arasında dolaşan bir çox mənqəbələr bunların maddi və cismani eşqdən mənəvi və ruhani eşq dərəcəsinə yetdiklərini, saz çalıb, şeir söyləməyi də ilahi vasitələrlə, yəni ya bir mürşidin, pirin, yaxud Xızır peyğəmbərin röyada və ya həqiqətdə təcəllası ilə öyrəndiklərini anladır. Görünür ki, bunlar xalq arasında deyildiyi kimi Haqq aşıqlarıdır və ilham qaynaqları daima ilahilərdir" [6, s. 26]. Lakin xalq arasında bu gün də yayğın olan "haqq aşığı" ifadəsini təkcə Haqq aşiqi, Allah aşiqi ifadəsi kimi başa düşmək olmaz. Prof. A.Nəbiyev yazır: "Aşıq sənəti təkcə Allaha aşiqliklə Allahın yaratdıqlarına aşiqliyi birləşdirib vəsf etdi, cəmiyyət içərisində İslam dəyərlərinə xidmət edən bir ifaçılıq sahəsi kimi formalaşdı" [2, s. 24]. Tanınmış alimin izahı nəticə etibarilə yanlış olmasa da, dövrün məlum stereotipləri nöqteyi-nəzərindən bəsit və dayazdır. Çünki, alimin "İslami dəyərlər" dediyi anlayış sufi-ürfani dünyagörüşünə və xüsusilə də Qızılbaş-Səfəvi məfkurəsinə çox zaman zidd olmuşdur.

Şah İsmayıl Xətayinin bu qədər geniş və hərtərəfli şeir yaradıcılığı içərisində onun xalq bayatılarına müraciət etməsi, daha doğrusu, özünün yeni bayatılar yaratması həqiqətən valehedici bir faktdır:

Xətayiyəm, bir halam,
Əlif üstündə dalam.
Sufiyəm təriqətdə,
Həqiqətdə abdalam. [3, s. 356]

Az öncə vurğuladığımız məsələyə qayıdaraq demək istərdik ki, şifahi xalq ədəbiyyatı nümunələrinin və xüsusilə də xalq bayatılarının demək olar ki, heç bir nümunəsində fəlsəfi, ürfani, sufiyanə mətləblərə rast gəlmək mümkün deyil. Bayatılar adətən lirik məhəbbət mövzulu, qəm-kədər motivli, və ya ictimai məzmunlu şeir şəkilləridir. Lakin Şah Xətayi bayatılardan da bir forma kimi istifadə edərək, bu kiçik parçada "təriqət"lə "hə-

qiqət"in başqa-başqa mərtəbələr olduğunu maraqlı şəkildə dilə gətirir. Onun buradakı deyimi ilə sufilik təriqət, abdallıq isə həqiqət qatlarına aid anlayışlardır. Və yaxud:

Könül vermə nadana,
Haqqı inkar edənə,
Müridəm, haqq demişəm,
Məhəbbət xanədanə. [3, s. 356]

Burada da müridlikdən, "xanədan"dan (əhli-həqlərdə "xanədan" anlayışı müqəddəs nəsil şəcərəsi anlamına gəlir) söhbət gedir. Ümumilikdə isə, həm səfəvilikdə, həm də əhli-həqlərdə xanədan anlayışı bəsit mənada nəsil şəcərəsini deyil, daha çox ruhani-fəlsəfi ötürücülük prinsipini daşımaqdadır.

Nəticə

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, Şah İsmayıl Xətayinin əruz vəznli şeirləri kimi heca vəznli şeirləri də Sufi-Qızılbaş məfkurəsinin çox lirik, fəlsəfi təzahüründən ibarətdir. Bu fəlsəfənin ədəbi-bədii həlli Xətayi qələmində uğurla tamamlanmış və İrandan, Azərbaycandan Anadoluya, Balkanlara qədər böyük bir türk coğrafiyasında bu gün də yaşamaqda və yayılmaqdadır. Onun həm lirikası, həm də ictimai-fəlsəfi mənzumələri Azərbaycan-türk təsəvvüf ədəbiyyatının qiymətli nümunələri kimi bu gün də Yaxın və Orta Şərqin bir çox ölkələrində fəaliyyətdə olan türkdilli sufi təkyə və cərəyanlarındakı zikr və ibadət mərasimlərində geniş şəkildə istifadə olunur. Sazla, ozanlıqla, baxşılıqla birbaşa bağlı olan Xətayinin anadilli, heca vəznli poeziyası Azərbaycandan Xorasana qədər geniş coğrafi arealı öz mənəvi fütuhatı altında tutmaqda və ürfani dünyagörüşə könül vermiş milyonları öz ruhani-mistik fəlsəfəsi ilə idarə etməkdədir.

ƏDƏBİYYAT

1. Baxşəliyev F. Təsəvvüf ədəbiyyatı nümunələrinə fərqli baxışın bəzi təzahürləri // Elmi axtarışlar. 2009, №V, Bakı: Nurlan, 274 s.
2. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, II hissə. Bakı: Elm, 2006, 664 s.
3. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012, 434 s.
5. Xavəri S. Xətayi poeziyasında təsəvvüf ideyası // Ədəbiyyat məcmuəsi, 1999, C. XVII, Bakı: Ağrıdağ, s. 206-214.
6. Köprülü M. Saz Şairleri, I–V, Ankara: Başer Matbaası, 2004, 726 s.
7. Köprülü M.F. Türk Edebiyyatı Tarihi. İstanbul: Ötüken, 1980, 463 s.
8. Omid F. Karacadağ Sufileri ve Şah İsmail Hatayinin Talipleri // Alevilik-Bektaşilik Araştırmaları Dergisi, 2024, Sayı: 30, 377 s.
9. Yayın N. Divriğli Veli Dedenin Şiirlerinden hareketle 'Delil' Termini Üzerine // Uluslararası Folklor Akademi Dergisi, 2018, C.1, S.3, s. 309-318.

Резюме

Ламан Османова

Значение поэзии Шаха Исмаила Хатаи в возникновении и формировании азербайджано-турецкого народного суфизма

В статье рассматривается поэтическое воплощение кызылбашского суфийского ордена, одного из ведущих направлений азербайджано-турецкого народного суфизма, и значение поэзии Шаха Исмаила Хатаи в этой сфере. Азербайджанская суфийская поэзия, важная ветвь тюркского народ-

Gəncin həyatı, yaşadığı şərtlər özü ilə üzləşməyə icazə verməmişdi. Getdikcə hissizləşən insan əsəb, pislikdən gələn zövq hissinə belə sevinir, o özünə pis olmağa icazə verir. Lakin o, duyğusuz deyildi, çünki xəcalət də bir hissdir. İnsan bir bütündür, ancaq yaxşı və ya ancaq pis ola bilməz, insan rəngarəngdir, individualdır. Tolstoyun "Dirilmə" əsərində dediyi kimi: *"İnsanlar da çaylar kimidir: bütün çayların da suyu eynidir və hamısında həmin sudur, amma hər bir çay gah daralır, gah iti axır, gah genəlir, gah dinc axır, gah təmiz olur, gah soyuyur, gah bulanır, gah ılıq olur. İnsanlar da belədir. Hər bir insanda bütün insan xüsusiyyətlərinin rüşeymi var və o, gah bir cəhəti, gah o biri cəhəti büruzə verir, əslində həmin adam olub qaldığı halda, çox vaxt heç özünə bənzəmir"* (4, s. 209). Gənc bütün bunlardan sonra yenə yarışa davam edir, artıq o, həyəcanlı idi və yarışdan zövq alır. Öz kölgəsi ilə üzləşmək təsirini göstərir. O həmin mühitdən uzaqlaşır, sakitləşib öz vicdanına suallar verir. Özünə yüksək səslə "oğru" deyir, amma heç nə hiss etmir. Utanmaq istəyir, amma utanmır, hətta etdiklərindən məmnun görünür. Sevinir, çünki bunları etdiyi zaman o, illər sonra ilk dəfə canlı olduğunu, duyğularının ölmədiyini hiss edir. "İçimdə nəfəs alan kainatın bu parçasında hər şeyin sirli özəyi hələ də parlayırdı, bəzən arzunun fırlanan titrəyişlərində üzə çıxırdı. Mən də canlı idim, pis və şəhvətli istəkləri olan insan idim" (8, s. 35). Gənc anlayır ki, o özündən belə gizlənmişdi. *"Kölgə fərdin "digər", "qaranlıq", "vəhşi" və "ibtidai" tərəfini təmsil edir. "Şəxs yaşadığı cəmiyyət nə qədər dar və məhdudlaşdırıcı olsa, kölgəsi də bir o qədər geniş olar"* (1, s. 290). Hisslərini gördükcə "ölüm"dən oyanır, geridə qoyduğu soyuq, hissiz cəmiyyətdən özünü ayrı hiss edir. Faytonla gedərkən içində sanki bir musiqinin səsləndiyini eşidir, "ölüm"dən oyanıb özünü anladıqdan sonra başqalarını dərindən görüb anlamağa başlayır, insanlar ona maraqlı gəlir. İndi o, anlayır ki, sevgi öz içindədir və sevgiyə, sevməyə ehtiyacı var. Əvvəl isə digər insanlar ona maraqlı gəlmirdi, çünki özü ilə dialoqunu itirmişdi. Haqqında tək bildiyi zəngin və zadəgan ailədən olduğu və yüksək cəmiyyətə mənsubluğu idi. Öz maraqları, özünün nə istədiyi, nəyin onu xoşbəxt etdiyini o qədər bilmirdi ki, o, qəribə, nadir şərab stəkanları kolleksiyası yığırdı. Öz daxili dünyasının boşluğunu belə kompensasiya etmək istəyirdi ki, canlı hiss etsin.

Əslində isə gəncin daxili dünyası boşluqdan ibarət deyildi, sadəcə özünü tanımırdı. Özü ilə bağlı yeni şeylər öyrəndikcə həm təəccüblənir, həm də canlı insan kimi hiss etdiyi üçün sevinirdi. Gənc artıq sərbəst olmaq, insanlar üçün nəsə etmək, onların həyatına toxunmaq ehtiyacı hiss edir. Yolda uşağa yaxşılıq etmək, onun əylənməsinə şərait yaratmaq istəyir. *"Şübhəli fiqurların, cəmiyyətin bu kənar fiqurlarının başgicəlləndirici yerişində öz əksimi hiss etdim"* (8, s. 45). Əvvəl yüksək cəmiyyətin durğunluğu öz əksini görən qəhrəman, indi isə sadə insanların sadə yerişində öz əksini görür, çünki onda dəyişiklik baş vermişdir. Gənc fahişə qadını görür və ona qarşı mərhəmət hiss edir. Qadına çox hörmətlə, sevgiylə yanaşır, onun əlini oxşayır və öpür. Qadında da ona qarşı mərhəmət yaranır. Gənc ilk dəfə birinin onu gerçək olaraq düşünməsinin, soruşmasının, başqa biri üçün yaşamağın sevincini və zövqünü yaşayır. Aristotel xeyirxahlıq anlayışına "ehtiyacı olan şəxsə heç bir qarşılıq gözləmədən kömək etmək" kimi tərif vermişdir. Sevinc, inam və şərəf kimi müsbət emosiyalar xeyirxah əməllərin nəticəsində müsbət mühit yaradır. Araşdırmalara görə, bioloji olaraq yaxşı işlər gördüyümüz zaman beynimizin yemək və istirahət kimi vəziyyətlərdə stimullaşdırılan həzz və mükafat mərkəzi işə düşər və bu davranışlar təkrarlandıqca daha çox xeyirxah əməllər etmək potensialımız artar. Romanda gənclə bağlı başqa bir epizoda baxaq: iki kişi onun qarşısına çıxır və onu qorxutmaq, bütün pulu almaq istəyir. Gəncin daxilindəki günahkar onları anlayır.

Onların işgəncə etmək istəklərinə qarşılıq olaraq gənc səssizliyi ilə onlara işgəncə edir, oğrular da qorxur. Bu an onun daxilində bu şəxslərə qarşı sonsuz sevgi, mərhəmət oyanır. "Özü bu qədər zənginlik içində oğruluq etdiyi halda, ehtiyac üçün oğruluq edən insanı necə mühakimə edə bilərdi?" – deyə düşünür. Onların qorxmasından zövq aldığı üçün xəcalət hissi etdi. *"Vicdan insanı öz davranışı haqqında mühakimə yürütməyə sövq edir. İnsanın öz əxlaqi dəyərləri haqqında birbaşa və kortəbii mühakimə yürütməsinə şərait yaradan gücdür"* (2, s. 128). Gənc oğruları həm qorxutmaq istəyir, həm də qorxudan xilas etmək. Kölgəsini idarə etmək istəyir, insanlarla artıq "oynamaq" istəmir. Oynamır, utandırmır, onları daxildə sevdiyini anlayır. Bu sevgini hiss etmək, onlara özündən nəsə verməkona zövq verir. Həmin gün ata yemək verməsi və qarşılığında atın onu qoxlaması, şar satan kişinin bütün şarlarını alması onu xoşbəxt edir. Kimisə xoşbəxt etməyi və bunun necə yaxşı təsir etdiyini bu günə kimi heç anlamamışdı. *"Artıq sadəcə öncədən olduğum kimi dürüst, duyğusuz, dünyadan qopmuş bir insan olmaq istəmirdim. Günah və qorxunun bütün dərinliklərini görmək yaxşıdır, amma yenə də həyatın gerçəkliyində bunu etmək lazımdır"* (8, s. 61). Bundan sonra o bütün həyatı boyu gerçək kimliyi ilə yaşayır. Qəzetlər, kitablar, təbiət, insanlar onu həyəcanlandırır. İllərdir yanında olduğu xidmətçisi ilə ünsiyyət qurur, onu dinləyir, müzakirələr edir. Xidmətçisinin qızının ölməsindən danışması gənci kədərləndirir. *"İnsan gərək özündəki hər iki hissə ilə əlaqə yarada bilsin. Çünki o, bu iki hissədən birini o birinin xeyrinə sıxışdırıb aradan çıxarmaqla deyil, onları birləşdirməklə bütöv insan şəxsiyyəti haqqında təsəvvür qazana bilər"* (6, s. 75). Çünki o, kölgəsi ilə üzləşib onu qəbul etmiş, onu idarə etməyi öyrənmiş və artıq bütöv insan olmuşdu, həyatı gerçək olaraq hiss edərək yaşamağı bacarmışdı. *"Nə qədər ölü olduğumu heç vaxt anlamadılar, indi nə qədər diri olduğumu da anlamayacaqlar. İnsan öz daxilindəki insanı anlayarsa, bütün insanları anlayar"* (8, s. 63- 64).

Nəticə

Stefan Svayq "Möcüzəvi gecə" əsərində insanın şəxsiyyətə çevrilmə prosesinin psixoloji modelini bədii düşüncənin predmetinə çevirir. Gəncin timsalında insanın kölgə və persona çatışmasının yaratdığı dinamikanı izləyir. "Möcüzəvi gecə" yalnız fərdi psixoloji dönüşümün deyil, həm də insanın məna axtarışının, həyata yenidən bağlanmasının poetik və simvolik ifadəsidir. Svayq burada insanın ən dərin ruhi qatlarına enərək öz həqiqi "mən"ini kəşf etməsini və bununla öz şəxsiyyətini tapmasını göstərir. Bu baxımdan əsər həm ekzistensial, həm də psixoanalitik yönləri ilə dərin mənalar ehtiva edir. Nəticədə, gənc kölgəsi ilə birləşərək bütöv şəxsiyyətə çevrilir və həyatı daha canlı hiss edir.

ƏDƏBİYYAT

1. Gülcan C. Psikolojik Tipler ve Jung Psikolojisi Üzerine Bir Değerlendirme // Karadeniz ve sosyal bilimler dergisi, 2020, №23, s. 566-579. (https://dergipark.org.tr/tr/download/article-file/959690).
2. İmamoğlu A. Vicdan Kavramının Psiko-Sosyal Tahlil // Akademik İncelemeler dergisi, 2010, №1, s. 127-144.
3. Kocabıyık Y. Küheylan Oyununda Persona ve Gölgenin Alan Strang Üzerindeki Karşılığı // Art-E Sanat dergisi. 2018, №11, s. 252 – 263. (https://dergipark.org.tr/tr/download/article-file/624592).
4. Lev T. Dirilmə. Bakı. Şərq-Qərb, 2007, 479 s.
5. Yunq K. İnsan ve Sembölleri. İstanbul: Okyanus Yayınları, 2007, 319 s.
6. Yunq K. Kəşfedilməmiş mənlik. Bakı: Kosmo, 2024, 152 s.
7. Yüksel İ. Varoluşsal Anlam Arayışı ve Kutsalın Etkisi. GAB Akademi. 2021, №1, s. 65-88. (https://dergipark.org.tr/tr/download/article-file/2631701).
8. Zweig S. Olağanüste Gece. Kızıl Panda. 2021, 64 s.

Резюме

Айшен Гараханова

Распад и выражение персоны в произведении Стефана Цвейга «Чудесная ночь»

Рассказ Стефана Цвейга «Волшебная ночь» (A Magical Night) исследует духовное пробуждение молодого человека, который ведет богатую, беззаботную, аристократическую жизнь. Хотя он живет в достатке благодаря большому наследству, его жизни недостает цели, эмоциональной глубины и истинного самосознания. Он скрывается за социальной «персоной» и остается оторванным от своих подлинных эмоций и потребностей. Его повседневная рутина наполнена поверхностными удовольствиями – азартными играми, охотой и мимолетными отношениями, – что подчеркивает его эмоциональное оцепенение. Даже значимые события, такие как получение письма о разрыве отношений или смерть близкого друга, не способны вызвать в нем глубоких чувств, раскрывая внутреннюю пустоту и отстраненность.

Однажды, во время обычной прогулки, его внезапно трогает красота природы. Этот момент становится поворотным пунктом, знаменуя его первую встречу со своей внутренней «тенью» – подавленной, более темной стороной его личности. Он начинает осознавать скрытые желания и чувства, а также вину и моральный конфликт. Эта внутренняя конфронтация подталкивает его к самоанализу и эмоциональному пробуждению.

Постепенно начинают проявляться такие эмоции, как сострадание, любовь и доброта. Он находит радость в помощи другим и разделении их счастья, превращаясь из духовно «мертвого» человека в по-настоящему живого. Рассказ подчеркивает важность признания своей тени для достижения внутренней целостности. Цвейг мастерски показывает, как самопознание и эмоциональная глубина необходимы для обретения смысла жизни. Баланс между эго и персоной представлен как решающий фактор для личностного роста и аутентичности.

Ключевые слова: *Стефан Цвейг, Карл Густав Юнг, архетип, тень, персона.*

Summary

Ayshen Garakhanova

The Dissolution and Expression of the Persona in Stefan Zweig's "A Miraculous Night"

Stefan Zweig's short story "A Magical Night" explores the spiritual awakening of a young man who leads a wealthy, carefree, aristocratic life. Although he lives in comfort thanks to a large inheritance, his life lacks purpose, emotional depth, and true self-awareness. He hides behind a social "persona" and remains disconnected from his real emotions and needs. His daily routine is filled with superficial pleasures – gambling, hunting, and fleeting relationships – which highlight his emotional numbness. Even significant events like receiving a breakup letter or the death of a close friend fail to stir deep feelings in him, revealing an inner emptiness and detachment.

One day, during a casual walk, he is suddenly moved by the beauty of nature. This moment becomes a turning point, marking his first encounter with his inner "shadow"—the repressed, darker side of his personality. He begins to recognize hidden desires and feelings, along with guilt and moral conflict. This inner confrontation pushes him toward self-reflection and emotional awakening.

Gradually, emotions such as compassion, love, and kindness begin to surface. He finds joy in helping others and sharing in their happiness, transforming from a spiritually "dead" man into someone truly alive. The story emphasizes the importance of recognizing one's shadow to achieve inner wholeness. Zweig masterfully illustrates how self-discovery and emotional depth are essential to finding meaning in life. The balance between ego and persona is presented as crucial for personal growth and authenticity.

Key words: *Stefan Zweig, Carl Gustav Jung, archetype, shadow, persona*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 81

KONSEPT SİNKRETİK NƏZƏRİYYƏLƏRİN İŞIĞINDA

Tünzalə YUSİFOVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 21 noyabr 2025; çapa qəbul edilmişdir: 8 dekabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 21th of November, 2025; accepted: 8th of November, 2025; published online: 17th of December, 2025

Açar sözlər: *konsept, antroposentrizm, koqnitiv dilçilik, konseptuallaşma, linqvokulturologiya, freym, sem*

Giriş

Son onilliklərdə aparılan kulturoloji və linqvistik tədqiqatların xarakteri ilə tanışlıq alimlərin diqqətinin "konsept" anlayışı üzərində cəmləşdiyini deməyə əsas verir. Bunun əsas səbəbi isə humanitar elmlərdə antroposentrik yanaşmanın dominantlıq etməsidir, çünki bu yanaşma dil hadisələrini insanla, onun dünyagörüşü və şüuru ilə sıx qarşılıqlı əlaqədə öyrənməyə geniş imkanlar yaradır. Müasir dilçiliyin inkişafının indiki dönəmində tədqiqatçıların diqqət mərkəzində insanın koqnitiv fəaliyyəti ilə bağlı problemlərin linqvistik reprezentasiyası xüsusi yer tutur. Koqnitiv dilçiliyin yaranması və inkişafı dil daşıyıcılarının konseptual sahəsi və onların milli-mədəni irsdə yerini fərqli aspektdən nəzərdən keçirməyə imkan verir. Dünyanın konseptual mənzərəsinin verballaşması dil daşıyıcılarının nitq-fikir prosesində yaranır.

Dilçilikdə struktur paradiqmin funksionalizmə, daha sonra isə koqnitiv paradiqmaya keçidi yeni terminoloji aparatın və linqvistik və ekstralinqvistik, dil və nitq (danışıq), sinxroniya və diaxroniya, məntiqi və metaforik təfəkkürün müqayisəsi və qarşılaşdırılması üçün yeni metodologiyanın inkişafına təkan vermişdir.

1. Dil faktları və fenomenlərinə koqnitiv yanaşmanın üstünlükləri

Dünyanın konseptual mənzərəsinin bərpası və fraqmentlərinin məzmununun şərhi koqnitiv yanaşmanı tələb edir [14]. Koqnitiv yanaşmadan məhz metodoloji əsas kimi istifadə edən müasir linqvistik tədqiqatlar üçün "konseptuallaşma" anlayışı mərkəzi anlayışdır.

Konseptuallaşma *"insanın qəbul etdiyi informasiyanı dərk etməsi və konseptlərin, konseptual strukturların və insanın psixikasında bütün konseptual sistemin yaranmasına gətirib çıxaran koqnitiv fəaliyyətinin əsas proseslərindən biridir"* [16, s. 93]. Konseptuallaşma, ilk növbədə, *"yeni fikirlərin necə yaranması mexanizmini əks etdirən və insanın dünya haqqında biliklərlə yeni fondunu daima zənginləşdirmək qabiliyyətini izah etməyə imkan verən yeni fikirlərin yaranmasının canlı prosesidir"* [19, s. 166]. Başqa sözlə desək, konseptuallaşma daxil olan informasiyanın konseptlərin yaranması ilə nəticələnən fikri konstruksiyasıdır.

Dil xalqın ruhu ilə sıx assosiasiya yaradır və V. fon Humboldtun da yazdığı kimi, dildən bəhs edərkən onu *"xalqın birləşmiş mənəvi enerjisi, möcüzəvi şəkildə müəyyən səslərdə qeydə alınmış, bütün daşıyıcılara aydın olan və onlarda təqribən eyni enerjini*

* *filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı*
e-mail: tunzale_veliqizi@mail.ru
https://doi.org/10.30546/25194011.2025.14.5.3073

oyadan" [4, s. 348] kimi xarakterizə edir.

Konseptual tədqiqatların əsas məsələləri arasında aşağıdakıları xüsusi qeyd etmək olar:

Konseptin təbiəti problemi;

Konseptin strukturu və onun mümkün modelləşdirilməsi problemi;

Konsept və onu obyektivləşdirən dil vahidlərinin mənalarının münasibəti problemi;

Konseptin tədqiqat metodları və təsvir üsulları və s.

Əlavə edək ki, konseptin linqvistik nəzəriyyələri müxtəlif yanaşmaların: koqnitiv və linqvokulturoloji və Q.V.Tokaryovun da yazdığı kimi, *"koqnitologiya və kulturologiyanın bir araya gəldiyi sinkretik nəzəriyyə"* əsasında formalaşır [22, s. 19]. Sinkretik konsept nəzəriyyələri, ilk növbədə, koqnitologiya və kulturologiyanın müddəalarını ehtiva edir və S.A.Askoldov [16], D.S.Lixaçyov [15], Z.D.Popova, İ.A.Sternin [18], A.Vejbitskaya [6; 5] və b. əsərlərində öz əksini tapmışdır.

Xarici konsept nəzəriyyələri arasında, ilk növbədə, A.Vejbitskayanın konsepsiyasını xatırlamaq lazımdır, çünki onun nəzəriyyəsini konseptin öyrənilməsində eyni dərəcədə həm koqnitiv, həm də linqvokulturoloji (etnolinqvistik) istiqamətə aid etmək olar. Konseptin ilk tərifləri məhz ona aiddir. Müəllif konsepti "ada malik "İdeal" dünyadan olan obyekt və insanın dünya "Gerçəklik" haqqında mədəniyyətlə şərtlənmiş təsəvvürlərini əks etdirən təsəvvürləri kimi" tərif verir [9]. A.Vejbitskaya öz mülahizələrində dilin antroposentrikliyi və milli səciyyəsindən, yəni dildə təbii şərtlərin, mədəniyyətin və dil daşıyıcısının xarakterindən çıxış edir. Milli xarakterin xüsusiyyətlərinin aşkarlanmasında linqvistik təhlil təklif edilir. Müəllifə görə, milli xarakter haqqında məlumatlar ətraf dünyanın dildə sabitləşmiş konseptuallaşmasındakı fərqləri izah etmək üçün zəruridir [9]. Milli cəhətdən səciyyəvi konseptlərin təhlili və müqayisəsini A.Vejbitskaya semantik primitivlərin dili (semantik metadil) ilə aparır. Konseptlərin semantik primitivlərin dilinə tərcümə oluna bilməsi, polyak dilçisinin fikrincə, məhz onların tutuşdurulmasının əsasını təşkil edir. Konseptin dildə reprezentantı, onun fikrincə, söz çıxış edir [6; 5]. Sözün mənası müəyyən dərəcədə dildən asılı olmadığı etiraf edilir [11], semantik primitivlərin vasitəsi ilə təsvir olunur və mahiyyət etibarı ilə konseptlə eyniləşdirilir [6; 5].

Rus dilçiliyində "konsept" probleminin işlənilməsi S.A.Askoldovun tədqiqatlarında geniş yer alır. Müəllif psixoloji mürəkkəbliyi, fərdiliyi, imkanların qeyri-müəyyənliyi, bədii assosiasiyalarla fərqlənən bədii konseptlərə (incəsənət vasitələri ilə yaranmış) xüsusi diqqət yetirir [6]. Konseptlə bağlı mülahizələrində müəllif onun sxematikliyindən bəhs edir: *"Konsept predmet və ya konkret təsəvvürləri əvəzləyir. ...konsept çoxlu oxşar predmetlərin ən bəsit və ən mühüm sxematik cizgisidir"* [2, s. 271]. S.A.Askoldovun fikirləri D.S.Lixaçyovun konseptlə bağlı tədqiqatlarında öz əksini tapır. D.S.Lixaçyov nisbətən fərqli davranaraq konsepti "yazıda və şifahi nitqimizdə işlətdiyimiz mənanın "cəbri" ifadəsi" kimi başa düşməyi təklif edir, *"çünki insan mənanın bütün mürəkkəbliyini sadəcə əhatə edə bilmir, bəzən bacarmır, bəzən də onu özünəməxsus"* şəkildə şərh edir [15, s. 4].

Koqnitivistika və kulturologiyanın əlamətlərini özündə cəmləşdirən və konseptin məzmununu dil faktları əsasında araşdırmağa imkan verən yanaşma Z. D. Popova və İ. A.Sterninin əsərlərində reallaşır. Müəlliflər konsepti nüvə və periferiya prinsipi üzrə qurulmuş və düşünülən hadisənin bütün tərəflərini əks etdirən qlobal məna vahidi kimi izah edirlər. Bununla da konseptin qloballığı və çoxölçülüyü təsdiq edilmiş olur. Konseptin təbiətini izah edən müəlliflər öz mülahizələrini təfəkkürün qeyri-verballığından başlayır və N.İ.Jinkinin konsepsiyasına – təfəkkürün əsas vahidi xüsusi dil – universal predmet dil ideyasına istinad edirlər. Universal predmet dilin vahidləri gerçəkliyin dərki

prosesində insanın şüurunda yaranan əyani obrazlardır. Buraya sxemlər, obrazlar, gerçəkliyin toxunulan və qoxusu alına bilən möhürləri, kinestetik impulslar və s. daxildir. Bu obrazların köməyi ilə təfəkkür həyata keçirilir. Predmet kodunun universallığı ondan ibarətdir ki, o, insan beyninə aiddir və bütün dillər üçün ümumiliyə malikdir. Kod predmetdir, çünki onun vahidləri əksərən özlərində predmet obrazlarını təmsil edir [17]. Universal predmet kodu subyektivdir, hər bir danışanda fərdidir, çünki onun həyat təcrübəsini əks etdirir. Konsept həm sözlü ifadəyə malik ola da, olmaya da bilər. Təfəkkür fəaliyyətində konsept özünün müxtəlif əlamətlərini və qatlarını aktuallaşdıraraq, müxtəlif tərəflərə çevrilir [17].

Eyni bir söz müxtəlif kommunikasiya şəraitində nitqdə konseptin müxtəlif əlamətlərini, hətta müxtəlif konseptləri təmsil edə bilər. *"Konseptlər dildə hazır leksem və frazeologizmlərlə, söz birləşmələri, tipik propozisiyalar daşıyan cümlələrin struktur və mövqe sxemləri (sintaktik konseptlər), mətnlər və mətnlərin məcmusu ilə ifadə olunur"* [17, s. 38]. Z.D.Popova, İ.A.Sternin və N.N.Boldırev hesab edirlər ki, dil işarəsi dildə konsepti təmsil edir. Söz konsepti tam təqdim etmir, *"o, öz mənası ilə ötürülməsi danışanın vəzifəsi olan məlumat üçün relevant bir neçə konseptual əlaməti ötürür. Konsept öz* məzmununun bütün zənginliyi ilə nəzəri baxımdan dil vasitələrinin məcmusu ilə ifadə oluna bilər" [17, s. 38].

Bu cür yanaşma konseptin psixolinqvistik şərhi ilə eyniyyət təşkil edir. Bu yanaşmanın tərəfdarlarının qənaətinə görə, dil vahidinin semantikası vasitəsi ilə onun məzmununun cüzi bir hissəsi ifadə olunur. Nəzərdən keçirilən nəzəriyyənin müəllifləri konseptlərin müxtəlif tiplərini (mental ifadə formalarını): sxemləri, anlayışları, freymləri, ssenariləri, qeştaltları və s. ayırd edirlər [17]. Konsept probleminə koqnitiv yanaşmanın tərəfdarları kimi Z.D.Popova və İ.A.Sternin konseptin strukturlaşmasının mümkünlüyünü etiraf edirlər. Məsələn, İ.A.Sternin hesab edir ki, konsept sözün mənası kimi, sərt olmasa da, müəyyən struktura malikdir. Bu onun təfəkkür prosesində aktiv dinamik rolu ilə bağlıdır [21]. Metaforik cəhətdən konsept bulud, və yaxud meyvə kimi təmsil oluna bilər. Konsept müəyyən hissi obrazı təmsil edən baza qatına malikdir. Bu obraz isə universal predmet kodunu təmsil edir" [21, s. 58]. Əsas qata əlavə koqnitiv əlamətlər yüklənə bilər, əsas və əlavə koqnitiv əlamətlərin məcmusu konseptin həcmini təşkil edir və onun strukturunu təyin edir. Dildə koqnitiv qatlara və ya seqmentlərə sememlər, əlamətlərə isə semlər uyğun gəlir. Konseptin nüvəsindən savayı konsept onun periferiyasını təşkil edən şərh sahəsinə də malikdir. O, zəif strukturlaşmış olur və *"ayrı-ayrı konseptual əlamətlərin və ya təsdiq şəklində onların birləşmələrinin şərhini" əks etdirir"* [21, s. 61].

Şərh sahəsi özündə ziddiyyətli məqamları əks etdirə bilər, məsələn, "qadın" konsepti üçün: qadın – zəif məxluq və qadın – güclü məxluq. İ.A.Sternin universal predmet kodunu aşkar etmək üçün konseptin təhlilini: psixolinqvistik eksperiment üsulu; konseptin söz-reprezentantlarının semantik təhlili (əsas leksem, onun sinonim və antonimləri), frazeoloji vahidlər və əsas söz-ad konseptlə ümumi semə malik digər dil vahidləri, konsepti dildə maddiləşdirən və konseptin bəzi tərkiblərini üzə çıxarmağa imkan verən leksem birləşmələrin təhlili ilə aparmağı təklif edir [4; 12].

Konseptin periferiyasının öyrənilməsi paremiyalar, aforizmlər, bəzən isə həcmcə geniş bədii və elmi mətnlərdə əks olunmuş müxtəlif tərif və şərhlərin təhlilini tələb edir [21]. Bu faktı nəzərə alan müəllif denotativ sahənin üzvlənməsi qanunu anlayışını təklif edir. Bu qanunun mahiyyəti ondan ibarətdir ki, nominativ üzvlənmə yüksək olduqca, reprezentasiya olunan konseptlər dil daşıyıcısının şüurunda, cəmiyyətin inkişafı və təfəkküründə həmin dövr üçün daha geniş imkanlara malik olur" [21, s. 62].

Z.D.Popova və İ.A Sterninin konsepsiyasının koqnitiv və linqvokulturoloji nəzəriyyələrlə müqayisədə onlar arasında həm oxşar, həm də fərqli cəhətləri qeyd etmək

olar. Nəzərdən keçirilən nəzəriyyənin fərqli cəhəti konseptin koqnitivistikada irəli sürülən operativlik, çeviklik, hərəkətlilik və subyektivliyindən imtinadan ibarətdir. Eyni zamanda, konseptin mədəniyyətlə şərtlənməsi və şərh sahəsinin təhlilində aşkar olunan emosional tərkibləri haqqında fikir təqdim edilir. Təhlil olunan nəzəriyyələrin ümumi əlamətlərinə konseptin strukturlaşması və onun mərkəzində obraz-prototipin və ya universal predmet kodunun olmasını, müxtəlif dil vasitələri ilə konseptin obyektivləşməsini, konseptdə mental reprezentasiyalardan birinin (freym, anlayış, skript və s.) mövcudluğunu aid etmək olar.

Konsept nəzəriyyəsinin təhlili göstərir ki, "elmin inkişafının indiki mərhələsində bəzi fərqlər çıxdaş olmaqla konseptə iki yanaşma – koqnitiv və linqvokulturoloji yanaşmalar formalaşmışdır" [5, s. 22].

Əksər tədqiqatçıların konseptlə bağlı qəbul etdikləri ümumi müddəalar bunlardır:

1. Konsept şüurla bağlıdır;
2. Onun dildə və ya nitqdə (ən azı qismən) obyektivləşməsi;
3. Anlayışdan (məfhumdan) fərqli olaraq, onun tərkibinə sadəcə təsviri-təsnifi deyil, həm də hissi-iradi və obrazlı-empirik xarakteristikanın daxil olması.

Konseptin linqvokulturoloji şərhi onun subyektiv xarakter daşıyan operativ anlam kimi başa düşülməsini tələb etmir, lakin onun tərkibində konsept genetik təsvir alır və yalnız fərdi deyil, həm də kollektiv şüurun vahidi kimi çıxış edir. Tədqiqatçıların konsept və dil vahidlərinin mənası probleminə baxışları iki nöqteyi-nəzərdə təmsil olunmuşdur:

1. Konsept məna ilə eyniləşdirilir [6; 5; 14]. Bu fikri bölüşənlər arasında A. P. Babuşkinin də adını qeyd etmək olar. Müəllifə görə, "konseptin ideal mahiyyəti sözdə (frazemdə) "anlaşılır" və onun tərifində təkrarlanır. Tərif işarədə *"gizlənir" və onda sememi formalaşdıran semlərin məcmusu kimi düşünülür. Sözün özündə və onun verbal ifadəsində insan dərrakəsinin koqnitiv səylərinin nəticələri qeydə alınır"* [3, s. 54].
2. Məna yalnız qismən konseptin məzmununu ifadə edir. Problemə bu cür yanaşma konsepti təhlil edən əksər tədqiqatçılar tərəfindən bölüşülür. Biz də hesab edirik ki, konseptin təhlilində bu yanaşma daha məntiqi və məhsuldardır.

Əlavə edək ki, konseptin şərhinə koqnitiv və linqvokulturoloji yanaşmalar birbirini istisna etmir, əksinə öz aralarında komplementarlıq prinsipi üzrə münasibətdədir. V.İ.Karasikin də yazdığı kimi, *"konsept fərdin şüurunda mental törəmə kimi sosiumun konseptosferinə, yəni son nəticədə mədəniyyətə çıxışdır, konsept mədəniyyət vahidi kimi isə fərdin mülkiyyətinə çevrilən kollektiv təcrübənin qeydə alınmasıdır"* [12, s. 75].

2. Konsept şərhi yanaşmalarının ortaq məqamları

Konseptə yanaşmaları aşağıdakı kimi ümumiləşdirmək olar: nəzəri mənbələrdəki mövcud yanaşmalar fərdə yanaşma vektoruna görə fərqlənir:

Linqvoqoqnitiv konsept – fərdi şüurdan mədəniyyətə istiqamətlidir.

Linqvomədəni konsept – mədəniyyətdən fərdi (individual) şüura doğru istiqamətdir.

Lakin biz yaxşı dərk edirik ki, hərəkətin daxilə və ya xaricə yönəlikli olması tədqiqat üsuludur və reallıqda isə hərəkət bütöv çoxölçülü prosesdir. Linqvokulturologiya çərçivəsində konseptin araşdırılmasında ön plana, koqnitiv dilçilikdə olduğu kimi, dil daşıyıcısının şüurunda biliklərin təsəvvür üsulları deyil, məzmun, konsept və onun linqvomədəni spesifikası məsələsi çıxır. Bunun məntiqi nəticəsi kimi, linqvokulturoloji yanaşma, bizə elə gəlir ki, müxtəlif dil və mədəniyyətlərin daşıyıcılarının şüuruna mənsub konseptlərin tutuşdurulması zamanı daha məhsuldardır.

Konseptin təsvirində biz metodoloji cəhətdən əhəmiyyətli olan aşağıdakı müddəalardan istifadə etmişik:

Konsept "dil, şüur və mədəniyyətin kompleks öyrənilməsinə yönəlmiş" mental va-

hiddir [12, s. 75]. Bu zaman konsept bu üç hadisə ilə dialektik əlaqəli mahiyyət kimi çıxış edir.

Konsept dildə ifadəyə malik və etnomədəni xüsusiyyətli kollektiv bilik/şüurun vahididir. Hesab edirik ki, konseptin mahiyyətinin şərhində bu müddəa daha dolğun və keçərlidir [8, s. 48]. Y.S.Stepanovun dili ilə desək, bu cür yanaşmada konseptə daxildir: a) anlayışın quruluşuna daxil olan hər şey, b) konsepti mədəniyyət faktoru edən hər şey – əsas əlamətlərə qədər sıxılmış ilkin forma, tarixin məzmunu, müasir assosiasiyalar, dəyərlər və s. [20, s. 43].

Konsept dildə (nitqdə) müxtəlif səviyyələrin vahidlərinin köməyi ilə obyektivləşir.

Şüurun vahidi olan konsept, ehtimal ki, sərt şəkildə strukturlaşa bilməz [11; 17; 13].

Əlavə edək ki, tədqiqat məqsədi ilə konseptual strukturların qurulması özünü tam doğruldur. Belə olan halda biz konstruktla, konseptin modeli ilə təmasda oluruq [11]. Konseptin struktur tərkibinə münasibətdə dilçilər arasında ortaq fikir yoxdur və bu konseptin çoxplanlılığı (çoxölçülülüyü) ilə bağlıdır. Ayrı-ayrı tədqiqatçılar konseptual strukturların müxtəlif tiplərini fərqləndirir:

Elementlərin iyerarxiyası kimi struktur [1; 13; 22];

Konseptual sahə kimi struktur [7];

Semantik parametrlərin məcmusu kimi struktur [23].

Konsept onun reallığı baxımından Y.S.Stepanov [2001], dəyərlər V.İ.Karasik, [2001] və dil daşıyıcılar üçün əhəmiyyətliliyi S.Q.Vorkaçyov [2001; 2002], onun məzmun formalarının inkişaf dinamikası (V.V.Kolyosov [2002] və b. tərəfindən araşdırılmışdır. Bu fikirlər biri digərini istisna etmir, çünki onlar tədqiqat obyektinə fərqli mövqedən yanaşmaların nəticəsidir. Obrazlı dildə desək, konseptual strukturun təsvirinə hər bir yanaşma onun bir qütbünü işıqlandırır.

Nəticə

Konsept koqnitiv dilçiliyin mərkəzi vahididir. Onun mahiyyətinin tam başa düşülməsi üçün onun müxtəlif şərhlərinin nəticələrini nəzərə almaq, onun öyrənilməsinin bütün mümkün metodlarından yararlanmaq lazımdır. Konseptin strukturu aşağıdakı aspektlərdən nəzərdən keçirilməlidir:

1. Konsept elementlərin qarşılıqlı əlaqəli iyerarxik təşkilinin müxtəlif səviyyəli mücərrədləşməsini təmsil edir.
2. Konseptin strukturunu qurarkən dil vahidlərinin semantikasının konseptin məzmun elementləri ilə qarşılıqlı əlaqəsi nəzərə alınmalıdır.
3. Konseptlər təcrid olunmuş şəkildə mövcud olmur, lakin həmişə digər konseptlərlə qarşılıqlı əlaqədədir.
4. Konseptlərin məcmusu və qarşılıqlı əlaqəsi milli konseptosferi əmələ gətirir.
5. Mənşə və mədəniyyəti üzrə yaxın xalqların konseptosferi müəyyən seqmentlərdə üst-üstə düşə bilər, lakin fərqlər də qaçılmazdır.

ƏDƏBİYYAT

1. Артемова А.В. Эмотивно-оценочная объективация концепта «женщина» в семантике фразеологических единиц (на материале английской и русской фразеологии), дис. канд. филол. наук. Пятигорск, 2000, 177 с.
2. Аскольдов С.А. Концепт и слово // Русская словесность. Антология. – М.: Akademia, 1997, с. 267-279.
3. Бабушкин А.П. Концепты разных типов в лексике и фразеологии и методика их выявления // Методологические проблемы когнитивной лингвистики. Воронеж: ВГУ, 2001, с. 52-57.
4. Болдырев Н.Н. Концепт и значение слова / Н.Н. Болдырев // Методологические проблемы

когнитивной лингвистики. Воронеж: Воронежский государственный университет, 2001, с. 25-36.
5. Вежбицкая А. Семантические универсалии и описание языка // М.: Языки русской культуры, 1999, 780 с.
6. Вежбицкая А. Язык. Культура. Познание, М.: Русские словари, 1997, 416 с.
7. Войтещук И.В. Содержание и средства объективации концепта "вода" в языке и речи, автореф. дис... канд. филол. наук. Челябинск, 2002, 23 с.
8. Воркачев С.F. Концепт счастья: понятийный и образный компоненты // Известия АН. Серия литературы и языка, 2001, №6, с. 47-58.
9. Воркачев С.Г. Методологические основания лингвоконцептологии // Теоретическая и прикладная лингвистика. Межвузовский сборник научных трудов. Выпуск 3. Аспекты метакоммуникативной деятельности. Воронеж: Издательство: Воронежский государственный технический университет, 2002, с. 79-95.
10. Гумбольдт В. фон. Об изучении языков, или план систематической энциклопедии всех языков / В. фон Гумбольд // Язык и философия культуры. М.: Прогресс, 1985, 452 с.
11. Залевская А.А. Психолингвистический подход к проблеме концепта // Методологические проблемы когнитивной лингвистики. Воронеж: Воронежский государственный университет, 2001, с. 36-44.
12. Карасик В.И. Лингвокультурный концепт как единица исследования / В.И.Карасик, Г.Г.Слышкин //Методологические проблемы когнитивной лингвистики. Воронеж: ВГУ, 2001, с. 75-80.
13. Колесов V.Kolyosov [2002. Философия русского слова, СПб.: ЮНА, 2002, 448 с.
14. Кубрякова Е.С., Демьянков В.З., Панкранц, Ю.Г., Лузина, Л.Г. Краткий словарь когнитивных терминов. М.: МГУ, 1997, 245 с.
15. Лихачев Д.С. Концептосфера русского языка, Известия ОРЯ, Серия литературы и языка, т. 52, 1993. №1, с. 3-9.
16. Попова З.Д. Когнитивная лингвистика. М.: АСТ: Восток-Запад, 2010, 314 с.
17. Попова З.Д. Очерки по когнитивной лингвистике, Воронеж: Истоки, 2001, 192 с.
18. Попова З.Д. Проблема моделирования концептов в лингвокогнитивных исследованиях // Мир человека и мир языка: кол. моногр. Кемерово: Графика, 2003, с. 6-17.
19. Радбиль Т.Б. Основы изучения языкового менталитета. Учеб. пособие. М.: Флинта: Наука, 2010, 328 с.
20. Степанов Ю.С. Константы: словарь русской культуры, М.: Академический Проект, 2001, 990 с.
21. Стернин И.А. Методика исследования структуры концепта // Методологические проблемы когнитивной лингвистики. Воронеж: Воронежский государственный университет, 2001, с. 58-65.
22. Токарев Г.В. К вопросу о содержании термина «концепт» в лингвокультурологии // Фразеологическая картина мира. Тула: Изд.-во Тул. гос. ун-та им. Л.Н. Толстого, 2002, с. 16-23.
23. Jackendoff R.S. Patterns in the Mind: Language and Human Nature, New York, 1994, 246 p.

Резюме

Тюнзале Юсифова

Концепт в свете синкретичных теорий

В статье концепт анализируется не на фоне отдельных теорий, а в свете теорий, существующих сегодня в рамках антропоцентрической парадигмы в целом. Концепт исследуется с точки зрения его связи с внеязыковой реальностью, его значения для ценностей и носителей языка, а также динамики развития его содержательных форм. В статье отмечается, что эти мнения о концепте не исключают друг друга. Различные подходы к интерпретации концепта являются явным следствием подходов к объекту исследования с разных позиций. Иными словами, каждый подход к описанию концептуальной структуры освещает лишь один из его полюсов, в то время как для полного и всестороннего понимания концепта необходимо учитывать результаты различных его интерпретаций и использовать все возможные методы его изучения. В статье отмечается, что взаимосвязанная иерархическая организация элементов концепта, представляющих разные уровни абстракции и взаимодействующих с другими концептами, образует национальную концептосферу. В статье специально отмечается, что при построении структуры концепта необходимо учитывать семантику языковых единиц в их взаимодействии с элементами содержания. Автор статьи отмечает, что на

основе анализа теории концепта в современной лингвистике сформировались два подхода к концепту, имеющие определённые различия: когнитивный и лингвокультурологический. Структура концепта представляет собой совокупность обобщенных признаков, необходимых и достаточных для выделения явления как фрагмента картины мира. Исследование структурных единиц языка способно раскрыть тайны познания мира народом. В статье отмечается, что сегодня перед когнитивной лингвистикой стоит целый ряд задач: выявление и установление роли участия языка и языковых структур в процессах познания и осмысления окружающего мира, изучение соотношения концептуальных систем с языковыми, выявление роли словесного языка в процессах получения и передачи информации лингвистического и экстралингвистического характера и т.д.

Ключевые слова*: концепт, антропоцентризм, когнитивная лингвистика, концептуализация, лингвокультурология, фрейм, сема*

Summary

Tunzale Yusifova

The Concept in Light of Syncretic Theories

The article deals with the concept not against the background of individual theories, but in the light of the considerations that exist within the framework of the anthropocentric paradigm today. The article studies the concept in terms of its relationship to extralinguistic reality, its significance for values and language speakers, and the dynamics of the development of its content forms. The article writes that the ideas about the concept do not exclude each other. According to the author, different approaches to the interpretation of the concept are a clear result of different approaches to the object of research. In other words, each approach to the description of the conceptual structure illuminates only one of its poles, while for a complete and complete understanding of the concept, it is necessary to take into account the results of its various interpretations and use all possible methods of its study. The article touches upon the fact that the interconnected hierarchical organization of concept elements forms a national conceptosphere, representing different levels of abstraction and interacting with other concepts. The article specifically highlights that when creating the structure of a concept, the semantics of language units should be taken into account in their interaction with content elements. The author of the article claims that, based on the analysis of concept theory, two approaches to the concept have been formed in modern linguistics, with certain differences – cognitive and linguocultural approaches. The structure of the concept is a set of generalized signs that are necessary and sufficient for identifying the phenomenon as a fragment of the world picture. The study of the structural units of the language is capable of revealing the secrets of the knowledge of the world by the people. The article notes that today cognitive linguistics faces a number of tasks: identifying and establishing the role of language and linguistic structures in the processes of cognition and understanding of the surrounding world, studying the relationship between conceptual systems and linguistic systems, identifying the role of verbal language in the processes of receiving and transmitting information of a linguistic and extralinguistic nature, etc.

Key words: *concept, anthropocentrism, cognitive linguistics, conceptualization, linguoculturology frame.*

Redaksiya heyətinin üzvü Fil.ü.f.d. Musayev Nəsrəddin Musa oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 8123

DİL VƏ TƏFƏKKÜR ARASINDAKI ƏLAQƏ

Zeynəb NAĞIZADƏ*

Məqalə redaksiyaya daxil olmuşdur: 27 oktyabr 2025; çapa qəbul edilmişdir: 14 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 27th of October, 2025; accepted: 14th of November, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *dil, təfəkkür, fənlərarası əlaqə, psixologiya, şüur, skeptisizm, XIX-XX əsrlər*

Giriş

Tədqiqatın obyekti dil və təfəkkür, onlar arasındakı əlaqə olmuşdur. Tədqiqatın məqsədi dil və təfəkkür arasındakı əlaqəni öyrənməkdən ibarətdir.

Təfəkkür haqqında, onun nə olduğu, insan üçün əhəmiyyəti barəsində məlumat verilir. Təfəkkürün məqsədi, onun nələri ifadə edə bilməsi mövzularına, eyni zamanda söz anlayışına da toxunulur, onun təfəkkürlə əlaqəsi vurğulanır. Dilin yaranma və inkişaf tarixi haqqında danışılır. Dildə zamanla olan dəyişikliklər, eyni zamanda dünya dilləri arasında müəyyən fərqliliklərlə bərabər ümumi qanunauyğunluqların olması nəzərə çatdırılır.

Təfəkkür və dil, təfəkkür və söz anlayışlarından bəhs edilir. Bu mövzular barədə dəyərli şəxsiyyətlərin fikirləri, dil və təfəkkürə yanaşma tərzləri haqqında məlumat verilmişdir.

1. Təfəkkür anlayışı

Təfəkkür insan idrakının ən yüksək forması olub, ətraf aləmin mahiyyətini dərk etməyə və hadisələr arasında əlaqələri müəyyənləşdirməyə xidmət edir. Təfəkkürün elmi təsnifatı onun məzmununa, formasına, səviyyəsinə və inkişaf mərhələlərinə görə müəyyən edilir (11).

Əvvəlcə, məzmununa görə təfəkkür nəzəri və praktiki növlərə ayrılır. Nəzəri təfəkkür hadisələrin mahiyyətini və qanunauyğunluqlarını anlamağa yönəlmiş düşüncə formasıdır, elm və fəlsəfi idrakda mühüm rol oynayır. Praktik təfəkkür isə insanın gündəlik həyat fəaliyyəti ilə bağlı qərarların və əməli fəaliyyətin əsasında dayanır (15).

Formasına görə təfəkkür konkret (obrazlı) və abstrakt (məntiqi) tiplərdə təzahür edir. Konkret təfəkkür hissi obrazlara söykənir və daha çox uşaqlarda və yaradıcı şəxslərdə üstünlük təşkil edir, abstrakt təfəkkür isə anlayışlar və məntiqi nəticələr üzərində qurulur.

Səviyyəsinə görə təfəkkür empirik və teoretik mərhələlərə bölünür. Empirik səviyyədə düşüncə müşahidə və təcrübəyə əsaslanır, teoretik səviyyədə isə ümumiləşdirmə və qanunauyğunluqların aşkarlanması baş verir (10).

İnkişaf mərhələlərinə görə konkret əməli və formal-məntiqi təfəkkür fərqləndirilir. Konkret əməli təfəkkür uşaqlıqda, formal-məntiqi təfəkkür isə yetkin yaş dövründə formalaşır (19).

Nəhayət, fəaliyyət xarakterinə görə təfəkkür intuitiv, analitik və kreativ növlərə

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: zeynebnaghizade@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3075

ayrılır. İntuitiv təfəkkür hissə və təcrübəyə əsaslanır, analitik təfəkkür hadisələri hissələrə ayıraraq təhlil edir, kreativ təfəkkür isə yeni ideyaların yaranmasına şərait yaradır

2. Dil anlayışı

Dil ictimai hadisə kimi həm düşüncənin ifadə vasitəsidir, həm də mədəniyyətin daşıyıcısıdır. Onun elmi təsnifatı mənşə, quruluş, yayılma arealı və funksiyalar baxımından aparılır (17).

Mənşəyinə görə təsnifatda dillər təbii, süni və ölü dillərə bölünür. Təbii dillər xalq tərəfindən tarix boyu formalaşmış danışıq sistemləridir, məsələn, Azərbaycan dili və ingilis dili. Süni dillər xüsusi məqsədlə yaradılmışdır, məsələn, Esperanto və proqramlaşdırma dilləri. Ölü dillər isə artıq gündəlik ünsiyyətdə işlənməyən, lakin yazılı mənbələrdə qorunmuş dillərdir (17).

Coğrafi və areal baxımından təsnifat dillərin yayıldığı ərazi ilə bağlıdır. Milli dillər müəyyən xalqın dilidir, regional dillər bir neçə ölkədə işlənir, beynəlxalq dillər isə xalqlararası ünsiyyət vasitəsidir (16).

Qohumluq və genealoji baxımdan təsnifat dillərin mənşəcə bir-biri ilə əlaqəsini müəyyən edir. Bu baxımdan hind-Avropa, Altay, Sami-Hamit, Çin-Tibet və Qafqaz dilləri ailələri fərqləndirilir (6).

Quruluş baxımından təsnifatda dillər qrammatik sistemlərinə görə flektiv, aqlütinativ, izoləedici və polisintezik tiplərə ayrılır. Məsələn, rus və alman dilləri flektiv, türk və Azərbaycan dilləri aqlütinativ, Çin dili izoləedici dillər qrupuna daxildir.

Funksional baxımdan təsnifat isə dilin ictimai və kommunikativ funksiyalarını müəyyən edir. Bu baxımdan dil həm ünsiyyət, həm düşüncə, həm də mədəniyyət vasitəsidir (20, s. 7).

Beləliklə, dilin elmi təsnifatı onun çoxcəhətli mahiyyətini əks etdirir və dilçiliyin müxtəlif sahələrində – tarixi, tipoloji, struktur və sosial tədqiqatlarda mühüm əhəmiyyət daşıyır.

3. Dil və təfəkkür arasındakı əlaqə

"Təfəkkür" termini ərəbcə "fikir" sözündəndir. Amma termin olaraq bu sözün mənası çox genişdir, belə ki, o, həm psixologiya, həm məntiq, həm də idrak nəzəriyyəsi və s. sahələrlə bağlıdır. Burada isə təfəkkürün dil və nitqlə bağlı cəhətləri haqqında danışılacaq. Məlum olduğu kimi, dil, konkret halda isə nitq insan beynində yaranmış fikrin ifadəsi zəruriliyindən yaranmışdır" (2, s.104). İnsan fikirləşməsə, danışmağı da bacarmaz. Hamıya bəllidir ki, təfəkkür özü maddi olmayıb, yüksək inkişaf etmiş materiyanın – beynin məhsuludur. Dillə şüurun əlaqəsinə gəldikdə, bu, daha çox nitqlə bağlıdır.

Danışanın obyektiv hadisə və aləmə qarşı münasibəti əsasında və başqa faktorlar mövqeyində onun nitqi formalaşır. Dil və təfəkkür, söz və məfhum – dilçilik elmi üçün böyük əhəmiyyətə malikdir, belə ki, söz dilə, məfhum isə təfəkkürə aid bir anlayışdır. Sözlə dilçilik elmi, məfhumla məntiq məşğul olur. Dil ilə təfəkkürün qırılmaz əlaqəsi özünü söz ilə məfhum arasında da göstərir. Dil və təfəkkür problemi fəlsəfənin əsas məsələsi ilə sıx əlaqədardır və əsas məsələnin həllində filosofların fikir ayrılığı, onların iki əks qütbdə toplanması şüur və nitq, dil və təfəkkür probleminə münasibətdə də özünü büruzə verir. Bu problem və bununla bağlı bir çox məsələlər filosofların kəskin mübahisələrinə səbəb olmuşdur, belə ki, onların bir qismi dil və təfəkkürü eyniləşdirir, digər bir qismi isə onları ayırırlar. Birincilərin fikrincə, zəka dildir, ikincilər isə təfəkkürün dildən ayrı fəaliyyət göstərdiyini və dilin məhz təfəkkürün məhsulu olduğunu deyirlər. Mövcud fikirlərə görə, təfəkkürsüz dil mövcud ola bilməz, eyni zamanda, dil olmadan təfəkkür də, fikir də mövcud ola bilməz. Şüurla nitqin, fikirlə dilin ayrılmaz vəhdətdə olması o demək deyildir ki, bunlar bir-biriylə eynidir. Şüur və fikirlə söz arasındakı fərq ondan

ibarətdir ki, şüur obyektiv gerçəkliyi əks etdirir, dil isə həmin gerçəkliyi və fikri ifadə edir. Dil və təfəkkür ilk baxışda ayrı-ayrı hadisələr kimi görünür, belə ki, dil insanlar tərəfindən həssaslıqla dərk edilən səslər şəklində çıxış edir və bu, dilin maddi təbiətinin təzahürüdür. Təfəkkür isə, əksinə olaraq, ruhi hadisə kimi çıxış edir, onu biz bilavasitə dərk edə bilmirik. Dil və təfəkkürə ümumi və səthi mənada yanaşmaq doğru deyil. Hər iki anlayışı daha yaxından öyrəndikdə görünür ki, onların müqayisəsi nisbi xarakter daşıyır. Belə məlum olur ki, dil və təfəkkürün bir-birinə münasibətini materialist və idealist münasibətlər kimi fəlsəfənin əsas məsələsi fonunda öyrənmək olmaz və onlar qarşı-qarşıya qoyula bilməz. "Dil və təfəkkürün bəzi məsələlərinə toxunmaq zəruri hesab olunur. Təfəkkür maddi aləmin beynimizdə inikasıdır və obyektiv aləm, onun əlaqə və münasibətləri təfəkkürün vahid məzmununu yaradır. Belə ki, təfəkkür ayrı-ayrı düşüncələrin ümumi formada olmasıdır və fəaliyyəti yalnız insana məxsusdur və o, ictimai həyatın məhsuludur, cəmiyyətlə bir yaranıb və inkişaf edir. Onun fəaliyyəti insanların ictimai münasibətlərinin inkişafı və onların arasında ünsiyyətin tələb olunması ilə müəyyənləşdirilir" (1, s.155). İnsan xarici aləmlə bağlıdır və o, hiss üzvləri vasitəsi ilə bu aləmdəki əşyaları, hadisələri duyur və əks etdirir, lakin hadisələrin daxili aləminin, onların inkişaf qanunauyğunluqlarının dərk olunması üçün yalnız hiss üzvləri kifayət deyildir. Çünki bu zaman hadisələr haqqında yalnız təsəvvür əmələ gəlir ki, bu da hadisələr haqqında ümumiləşdirmə yaratmağa imkan vermir. İnsan yalnız abstrakt təfəkkür, məntiqi idrak pilləsinə qalxmaqla hadisələrin əsas və mühüm cəhətlərini ümumiləşdirir və məfhum əmələ gətirir.

Dil və təfəkkür bir-birindən ayrı mövcud ola bilmir, onlar vəhdət təşkil edirlər. İ.Disgenə görə, "onların (dil və təfəkkürün) vəhdətini rəssamla fırçanın əlaqəsinə bənzətmək olar. Belə ki, təfəkkür də rəssam kimi aləmin inikasını verir, dil isə hadisələrin əksini yaradan fırça rolunu oynayır. Dillə təfəkkürün vəhdəti, hər şeydən öncə, fikrin bilavasitə gerçəkliyi olmasındadır. Lakin dil və təfəkkür eyni deyildir" (4, s. 350). Bəzi alimlərin fikrincə, həm məntiqi quruluşu, həm də psixoloji qanunauyğunluqları ilə ümumbəşəri xarakter daşıyan təfəkkür bir-birindən təkcə fonetik baxımdan deyil, qrammatik quruluşuna, dil vahidlərinin xarakterinə və leksik məna sisteminə görə kəskin fərqlənən müxtəlif tipli dillərlə ifadə oluna bilir. Əgər dilin təfəkkürdən asılılığı mövcud olsaydı, onda müasir xalqların təfəkkürlərinin məntiqi quruluşunun ümumiliyi müqabilində onların dilləri də ümumi quruluşa malik olmalı və sözün mənası sahəsində fərq olmamalıdır. İnsan təfəkkürü ümumbəşəri səciyyəyə malik olduğu halda, dil milli xarakter daşıyır, bu səbəbdən, müxtəlif xalqların təfəkküründə eyni şəkildə formalaşan məfhum ayrı-ayrı dillərdə müxtəlif səs kompleksləri ilə ifadə oluna bilir. Dil toxunulmaz, milli mənsubiyyətli, əvəzsiz və müqəddəs bir nemətdir. Dil milli sərvətdir" (3, s. 241-277). Hər birimiz dil vasitəsilə fikrimizi dolğun verir, həm maddi-mənəvi, həm də milli ehtiyaclarımızı çatdıra bilirik. Dünyanı dilsiz təsəvvür etsək, o, anlayışlarsız, mədəniyyətsiz olardı. İnsan onlar arasında rabitə rolunu oynayır və dil insanın fikirləşdiyi, qavradığı və yadda saxladığı şeylərə təsir edə bilir. Müvafiq olaraq, təlim insanın sözlü (fikri) gücünü artırmaq məqsədi daşıyır, lakin fikri proseslər əksər hallarda sözsüz baş verir. XIX və XX əsrlərdə dilçilik, fəlsəfə və psixologiya, öz müstəqil inkişaf yollarına qədəm qoymağa çalışarkən dil və təfəkküllə bağlı klassik problemlər labüd olaraq yenidən meydana gəldi və bir-birindən ayrılan həmin sahələr arasında əlaqə yaratmağa və onların səylərini istiqamətləndirməyə və dəyərləndirməyə xidmət etdi.

Son onillikdə bu fənlərin kifayət qədər süni şəkildə ayrılması, bəlkə də, sona çatmasına dair işarə mövcuddur. Artıq hər bir elm sahəsinin digərlərindən tamamilə asılı olmamasını nümayiş etdirmək qürur sayılmır və klassik problemləri yeni və bəzən təklif şəklində formulə etmək kimi yeni maraqlar yaranmaqdadır. Məsələn, kibernetika və ünsiyyət nəzəriyyəsi elmlərinin vəd etdiyi yeni perspektivlər baxımından və uzun müddət

hakim olan fikirləri şübhə altına qoyan və bizim intellektual mühitin bir hissəsinə tanış elmi təxəyyülü, demək olar ki, şüurdankənar, müəyyən buxovlardan azad müqayisəli və fizioloji psixologiyadakı inkişafın əsasına zidd mövqedən çıxış etmək imkanı verən yeni maraqlar yaranmağa başladı. Bütün bunlar çox ruhlandırıcıdır, belə hesab edilir ki, koqnitiv psixologiyada və onun dilçilik adlanan xüsusi bölməsində sağlam fikir bir neçə il ərzində olduğundan daha güclüdür. Ən ruhlandırıcı əlamətlərdən biri yaxın keçmişdəki ortodoks baxışlara dair skeptisizmin hələ yaranmamış ortodoksal baxışın cazibədarlığı və qorxusu anlayışı ilə birləşməsidir. Bu da mövcud olarsa, yeni və mənasız doqmanın inkişafının qarşısını ala bilər. "Təfəkkürün və xüsusilə, insan dilinin təbiətinə dair təlim və fərziyyələrin tarixinə nəzər salanda, diqqətimiz, təbii olaraq, XVII əsrə yönəlir. "Dahilər əsri" adlanan bu əsrdə müasir elmin əsaslarının möhkəm zəmini qoyulmuş və hələ də bizə çətin gələn problemlər tam aydın və təlqinedici şəkildə müəyyən edilmişdir. Bir çox ötəri baxımdan kənara çıxan bu günün intellektual mühiti Qərbi Avropada on yeddinci əsrdə olduğuna bənzəyir. Dilin təfəkkürə təsiri psixologiyada çox mübahisəli məsələdir" (1, s.55). Dilçi B.Uorf təsdiq etmək istəyirdi ki, dil təfəkkür üsulunu müəyyən edir. Uorfun linqvistik nisbilik nəzəriyyəsinə görə, "müxtəlif dillər gerçəkliyi müxtəlif cür qavramağa gətirib çıxara bilir və dil özü insanın əsas ideyasını formalaşdırır" (19, s.120). Dili öyrənməklə mədəniyyət haqqında çox şey öyrənmək mümkündür, dili itirməklə isə dillə bağlı olan təfəkkürü də itiririk. Dilin təfəkkürə təsir etməsi qabiliyyəti söz ehtiyatının artırılması hesabına təhsilin əsas hissəsi üçün mühüm rol oynayır. Dilin fikri formalaşdırmaq və ya ifadə etmək vasitəsi kimi qiymətləndirilməsi dilin idraki fəaliyyəti ilə bağlıdır. Dil ünsiyyət prosesində fikrin ifadə vasitəsi kimi həm də qarşılıqlı anlama üçün vasitədir. Dilin fikri ifadə etmək, ünsiyyəti yaratmaq, inikas vasitəsi, ətrafda baş verən hadisələrin əlamət və xassələrini əks etdirmək keyfiyyətləri vardır.

Dilin təfəkkürə təsiri psixologiyada çox mübahisəli məsələlərdəndir. Dilçi B. Uorf təsdiq etmək istəyirdi ki, dil təfəkkür üsulunu müəyyən edir. Uorfun linqvistik nisbilik nəzəriyyəsinə görə, müxtəlif dillər gerçəkliyi müxtəlif cür qavramağa gətirib çıxarırdı. "Dil özü insanın əsas ideyasını formalaşdırır. Uorf təsdiq edir ki, xopi tayfasında felin keçmiş zaman forması yoxdur. Xopi tayfası asanlıqla keçmiş haqqında fikirləşə bilməz" (19, s.123). Uorfun nisbilik nəzəriyyəsi bir dildə danışan və dilin fikrin ötürücüsü kimi başa düşən insanlar üçün yaddır. Amma iki müxtəlif sistemli dillərdə danışan ingilis və yapon, yəqin ki, müxtəlif dillərdə fərqli fikirləşirlər. İki dildə danışan bir çox insanlar hesab edir ki, istifadə etdikləri dildən asılı olaraq, fərqli qavrayış nümayiş etdirirlər. Dili öyrənməklə mədəniyyət haqqında çox şey öyrənmək mümkündür. Dili itirməklə dilə bağlı olan təfəkkürü də itiririk. Yeni qvineyalılar ingilis və ya fransız dillərindən istifadə etmədən forma və rəngi bildirən şeyləri qeyd edilən dillərin nümayəndələri kimi qavrayır. Lakin ingilis, fransız və ya forma və rəngi bildirən sözlərin olduğu dillərin sözləri insanın nə fikirləşdiyinə, nə haqqda düşündüyünə təsir edir, ona görə söz seçimində insan çalışır ki, sözlər şeyləri dəqiq əks etdirsin. Dilin təfəkkürə təsir etməsi qabiliyyəti söz ehtiyatının artırılması hesabına təhsilin əsas hissəsi üçün mühüm rol oynayır və dilin fikri formalaşdırmaq və ya ifadə etmək vasitəsi kimi qiymətləndirilməsi dilin idraki fəaliyyəti ilə əlaqəlidir. Dil ünsiyyət prosesində fikrin ifadə vasitəsi kimi, həm də qarşılıqlı anlama üçün vasitədir. Dilin fikri ifadə etmək, ünsiyyəti yaratmaq, inikas vasitəsi, ətrafda baş verən hadisələri, şeylərin əlamət və xassələrini əks etdirmək keyfiyyətləri vardır. Eksperimental tədqiqatlara görə, orta məktəbi bitirən şagird 80 minə qədər söz bilir. Bu, orta hesabla hər ilə 5000, gündəlik isə 13 sözün mənimsənilməsi deməkdir. Sintaksisin qanunauyğunluqlarını çətinliklə izah etmək mümkün olsa belə, uşaq dili çox asanlıqla başa düşür və insanın dilə qabiliyyəti çoxlu suallar doğurur. Uşaqlarda dilin inkişafı onun strukturu ilə əlaqəlidir. Körpə dilə yiyələnməyib (in fautis – danışmayan deməkdir), lakin 4 aylıq uşaq ananın dodaqlarından onun nə demək istədiyini seçir və səsləri

tanımağa başlayır. Uşaq sifətə baxmaqla, tələffüz edilən səsləri ayırd etməyə çalışır və səslərin tələffüzü zamanı dodaqların vəziyyəti uşaq üçün həm də ona qarşı davranış tərzi kimi anlaşılır. "3-4 aylıq uşağın qığıltıları müxtəlif səslərlə müşayiət olunur və ilk dövrlərdə o, dillə bağlı deyil. Uşağın dilə yiyələnməsi bir neçə mərhələdən keçməlidir. Birsözlü mərhələ 1 yaşdan 2 yaşa qədər olan dövrdür, cüttərkibli mərhələ isə 2 yaşdan sonra başlayır. Əsasən, uşaq iki sözdən ibarət cümlələr ifadə etməyə başlayır, universal qrammatika isə artıq ifadə olunmağa başlayır.

Uşaqların dilə yiyələnməsi səs və intonasiyanın ailədəki mərhələsi çərçivəsində baş verir. 10 aylıq uşağın qığıltıları ana üçün artıq aydın səs rolunu oynamağa başlayır. Ana dilinin fonem səslərinə uyğun olmayan səslər yoxa çıxır. Uşaq eşitmədiyi səsləri fərqləndirmək qabiliyyətinə malik olmur. Səsli dil isə fonem düzəldən tərkibə malikdir, əl hərəkət və formaları ilə müəyyənləşir. Uşaq qığıltılarında nitq səsləri ayrılmağa başlayır (4 aylıq), 10 aylığında ana dili səsləri və s. inkişaf edir. Dilə yiyələnmə anadangəlmə və yaratma olmaqla aşağıdakı mərhələlərdən ibarətdir: irsi amil, nitqin anlanılmasına cavab verən mexanizmlərin quruluşu, dil mühiti inkişafına davranış isə ana dilini mənimsəməyə kömək edir.

Nəticə

Dil mühüm ünsiyyət vasitəsi olmaqla bərabər, sosial varlıqdır. Müxtəlif dillər öz quruluşu, leksik və qrammatik cəhətlərinə görə bir-birindən fərqlənir. Təfəkkür isə qavrayış vasitəsilə əldə edilən bilikləri qarşılaşdıraraq müqayisə edir, yeni bilikləri müəyyən edərək araşdırır, onlar arasındakı əlaqəni nəzərdən keçirir və gerçəkliyin mahiyyətinə vararaq onu dərk edir. Təfəkkürün dillə əlaqəsinə gəldikdə isə, o, dillə sıx bağlıdır. Çünki insan düşünməsə, danışa bilməz, onları bir-biri olmadan düşünmək olmaz. İnsan isə dil və təfəkkür arasında rabitə rolunu oynayır və təfəkkürün bazasını dil ilə ifadə edir. Təfəkkür ümumbəşəri, dil isə milli səciyyə daşıyır. Əsas nüans isə ondan ibarətdir ki, dilin unudulması həm xalqın varlığının yox olması, həm də dillə bağlı təfəkkürün unudulması deməkdir.

ƏDƏBİYYAT

1. Abdullayev N. Nitq mədəniyyəti və natiqlik sənəti. Bakı: ADPU Nəşriyyatı, 2005, 226 s.
2. Axundov A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 142 s.
3. Babayev A. Dilçiliyə giriş. Bakı: Mütərcim, 2017, 722 s.
4. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Gənclik, 2011, 575 s.
5. Bayramov A., Məhərrəmov Z. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Ulu, 2015, 237 s.
6. Əfəndiyev A. Ümumi dilçilik. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2014, 426 s.
7. Əliyev M. İdrak və təfəkkürün psixoloji əsasları. Bakı: Elm Nəşriyyatı, 2016, 488 s.
8. Əlizadə F. Dil norması və cəmiyyətimiz // Təhsil jurnalı, 2018, s.72-75.
9. Əsgərov M. Dilin mahiyyəti və funksional quruluşu. Bakı: Elm, 2017, 142 s.
10. Köçərli F. İnsanın idrak fəaliyyəti və onun inkişaf mərhələləri. Bakı: Nurlan, 2019, 415 s.
11. Quliyev N. Ümumi psixologiya: təfəkkür və idrak problemləri. Bakı: Təhsil, 2018, 653 s.
12. Ümumi dilçilik müntəxəbatı. Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının 100 illiyinə. Bakı: Elm və Təhsil, 2020, 320 s.
13. Vəliyev R. Təfəkkür və məntiqin fəlsəfi əsasları. Bakı: Qanun nəşriyyatı, 2013, 122 s.
14. Campbell L. Historical Linguistics: An Introduction (3rd ed.). Edinburgh: Edinburgh University Press, 2013, 419 p.
15. Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge: MIT Press, 1965, 419 p.
16. Comrie B. The World's Major Languages. New York: Routledge, 2019, 928 p.
17. Crystal D. The Cambridge Encyclopedia of Language. Cambridge: Cambridge University

Press, 2003, 491 p.
18. Piaget J. The Origins of Intelligence in Children. New York: International Universities Press, 1952, pp. 25-36.
19. Sternberg, R. Cognitive Psychology. Belmont: Thomson Wadsworth, 2006, 595 p.
20. Humboldt, W. Von. Über die Verschiedenheit des menschlichen Sprachbaues. Berlin: Dümmler Verlag, 1836, 511 p.

Резюме

Зейнаб Нагизада

Взаимосвязь языка и мышления

Мышление является высшей формой человеческого познания, Мышление является высшей формой человеческого познания, выражающейся в способности сравнивать, обобщать и выявлять сущность явлений. Его главная функция заключается в раскрытии причинно-следственных связей и внутренних закономерностей реальности. Однако процесс мышления неразрывно связан с языком, так как именно слово выполняет роль средства абстрагирования, формирования понятий и социальной коммуникации. Язык, в свою очередь, представляет собой социальное явление, возникшее в процессе трудовой деятельности первобытного человека. Он служит не только средством общения, но и носителем культуры, национальной идентичности и исторической памяти народа. В историческом развитии одни языки сохраняют жизнеспособность, другие же исчезают, превращаясь в «мертвые языки». Это подтверждает органическую связь языка и общества. Связь мышления и языка является неразрывной: мышление составляет содержание, а язык – форму его выражения. Вместе с тем они не тождественны. Мышление принадлежит сфере духовного, тогда как язык представляет собой материальную оболочку. В философии существуют различные подходы к этому вопросу: одни исследователи отождествляли мышление и язык, другие – разграничивали их.

Согласно гипотезе лингвистической относительности, язык влияет на восприятие и интерпретацию мира человеком. Говорящие на разных языках могут по-разному осмыслять реальность. Таким образом, язык тесно связан с культурой, и его утрата ведет не только к исчезновению общения, но и в известной мере к утрате мышления. Освоение языка детьми происходит постепенно и определяется как врожденными когнитивными механизмами, так и социальным окружением, выражающейся в способности сравнивать, обобщать и выявлять сущность явлений.

Ключевые слова: *язык, мышление, междисциплинарность, психология, сознание, скептицизм, XIX-XX*

Summary

Zeynab Naghizada

The Interrelation between Language and Thought

Thought is the highest form of human cognition, expressed in the ability to compare, generalize, and reveal the essence of phenomena. Its main function lies in uncovering the cause-and-effect relationships and internal regularities of reality.

However, the process of thinking is inextricably linked to language, as the word serves as the means for abstraction, concept formation, and social communication. Language, in turn, is a social phenomenon that arose during the labor activities of primitive man. It serves not only as a means of communication but also as a carrier of culture, national identity, and the historical memory of a people. In the course of historical development, some languages remain viable, while others disappear, turning into "dead languages." This confirms the organic link between language and society.

The connection between thought and language is inseparable: thought constitutes the content, and language is the form of its expression. At the same time, they are not identical. Thought belongs to the spiritual sphere, while language represents its material shell. In philosophy, there are various approaches to this issue: some researchers identified thought and language, while others differentiated them.

According to the hypothesis of linguistic relativity, language influences a person's perception and interpretation of the world. Speakers of different languages may comprehend reality differently. Thus, language is closely connected with culture, and its loss leads not only to the disappearance of communication but also, to some extent, to the loss of thought. The acquisition of language by children occurs gradually

and is determined by both innate cognitive mechanisms and the social environment.

Key words: *language, thought (thinking), interdisciplinarity, psychology, consciousness, skepticism, 19th-20th centuries (XIX-XX)*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Cəlilov Firudin Ağası oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

PEDAQOGİKA

UOT 371

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL STRATEGİYASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN PRİORİTETLİYİ

Mehriban SƏRDAROVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 8 noyabr 2025; çapa qəbul edilmişdir: 25 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 8th of November, 2025; accepted: 25th of November, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *milli təhsil strategiyası, Azərbaycan təhsili, Heydər Əliyev, milli-mənəvi dəyərlər, azərbaycançılıq, milli təhsilin qaynaq mənbələri*

Giriş

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri çoxsahəliliyinə və əhatə dərəcəsinin genişliyinə görə ayrı-ayrı rakurslardan tədqiq edilməyə böyük imkanlar açmış və açmaqdadır. Bu, həm də ona görədir ki, Azərbaycan dövlətçiliyinin ən yeni tarixi Heydər Əliyevin təcrübi irsinin tarixidir. Dövlət quruculuğunun bütün sahələri üzrə strategiyaların və fundamental konsepsiyaların müəllifi olan Heydər Əliyevin milli ideyaları zaman-zaman aktuallığını qorumaqdadır. Çünki nəinki öz zamanının, həm də gələcəyin böyük şəxsiyyəti statusuna malik olan Ulu Öndərin ideyaları Azərbaycanın müstəqilliyinin, suveren dövlət kimi inkişafının və möhkəmləndirilməsinin təməl prinsipləri kimi çıxış edir.

Heydər Əliyevin: *"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır"* (6) fikir-şüarı daxilində təhsil strategiyasının hansı ideyalarla zənginləşdirilməsini də nəzərdə tuturdu.

Təhsilşünas rəhbərin 1993-cü ildən başlayaraq, Azərbaycan təhsilinin hansı istiqamətdə inkişafı ilə bağlı fikirlərinin, çıxışlarının tədqiqindən belə bir qənaət hasil olur ki, Azərbaycan Respublikasının təhsil strategiyasının milli ideyalarla zənginləşdirilməsi özü bir strateji hədəf kimi çıxış edir. Ulu Öndərin bu istiqamətdəki irsində Azərbaycan xalqının milli ideyasını, milli dəyərlərini özündə əks etdirən təhsil qaynaqlarını əldə rəhbər tutmaq zərurəti milli dövlətçiliyin davamlı qorunması məsələsi kimi çıxış edir. Heydər Əliyevə görə, bir-birini əvəzləyən nəsillərin milli ideologiyaya yiyələnməsi bu gün ideoloji əsaslarını müəyyənləşdirdikləri təhsildən başlayır və bu işin düzgün təşkili dövlətçilik üçün həyati əhəmiyyətə malikdir.

Burada Heydər Əliyevin çağdaş tariximizin bütövlüyünün, kəsilməzliyinin təmin edilməsində mühüm yerə malik ideyalarından birindən – milli-mənəvi dəyərlərimizin milli təhsil quruculuğundakı prioritetliyindən bəhs edilir.

1. Heydər Əliyevin təhsil irsində milli-mənəvi dəyərlərin prioritetliyi

Azərbaycan dövlətçiliyinin ən yeni tarixinin yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin təmayüllü quruculuq fəaliyyətində nəzəri və təcrübi təhsil

* *doktorant, Azərbaycan Dövlət Pedaqoji Universiteti*
e-mail: mehribanserdarova@mail.ru
Orcıd: https://orcid.org/0009-0000-8876-7051
https://doi.org/10.30546/25194011.2025.14.5.3076

irsinin ehtiva olunduğu milli təhsil strategiyası xüsusi yer tutur.

Haqlı sual yarana bilər ki, Heydər Əliyevin sovet ideologiyasının hakim olduğu birinci dövr təhsil siyasətində milli təhsil barədə qənaət irəli sürmək absurd deyilmi? Lakin həmin illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanın siyasi-iqtisadi, sosial-mənəvi həyatının bütün sahələrində miqyasına və istiqamətinə görə totalitar şəraitin sədlərini aşan, milli zəmində bünövrəsi qoyulan proseslər bu qənaəti doğruldur. Daha dəqiq desək, sovet rejiminin sərt məngənəsi, əcdadlarımızdan miras qalan tarixi təhsil ideyalarımıza qarşı reqressiv münasibət şəraitində milli təhsil ideyalarının canlandırılması, inkişaf etdirilməsi, zənginləşdirilməsi milli təhsil tariximizdə xüsusi bir mərhələ təşkil edir.

Həmin dövr ölkəmizin həyatının bir-birindən fərqli müstəvilərinin inkişaf tarixinə nəzər yetirsək, görünəcək ki, Ulu Öndər xüsusi cəsarət və cürət tələb edən bu prosesləri bir konsepsiyaya əsaslanıb həyata keçirir. Ədəbi-tarixi prosesə, milli ideyanın dirçəldilməsinə söykənən bu konsepsiya tarixin gedişatını dəyişdirməyə qadir olmaqla, həm də bugünkü yenilməzliyimizin əsasını təşkil edir. Təhsilə son məqsəd, nəticə kimi deyil, vasitə kimi baxan təhsilşünas rəhbərin müəllifi olduğu böyük dirçəliş və inkişaf konsepsiyasında milli təhsil strategiyası xüsusi çəkiyə malikdir.

Müasir milli təhsil strategiyasının bünövrəsinin qoyulduğu 1969–1982-ci illər sovet dövlət quruculuğu adı ilə milli dövlətçilik rəmzlərinin reqressiyaya uğradılması, milli ideyanın və daşıyıcılarının repressiyaya və təqiblərə məruz qalması, Azərbaycanın mərkəzi Moskva üçün aqrar ölkəyə çevrilməsi ilə xarakterizə olunan yarım əsrə yaxın bir dövrdən sonra təhsil tariximizə inqilabi yüksəliş, intibah hadisəsi kimi daxil olub. Heydər Əliyev xalqın milli mənlik ruhunun canlanmasını, dirçəldilməsini, özünüdərk və soy-kökə qayıdışının təmin edilməsini, milli əqidəyə yiyələnməsini milli mənəviyyat hadisəsi kimi qəbul edir, bunların xalqda formalaşdırılmasını özünəməxsus təhsil siyasəti ilə həyata keçirirdi. Heydər Əliyevə görə, təhsilin bilik vermək vəzifəsindən daha uca missiyası xalqın milli kimliyini və mənəvi dəyərlərini yaşatmaq istiqamətindəki işidir. Hələ o dövrdən təhsili millətin gələcəyi hesab etməklə onun milli zəmində inkişaf etdirilməsini, milli-mənəvi dəyərlərin qorunmasını, milli dəyərlərin gələcəyin əsas dayağı kimi formalaşdırılmasını ön plana çəkirdi.

Ulu Öndər ana dilini milli kimliyin əsas şərti saymaqla, milli-mənəvi dəyərləri yaşadan başlıca qüvvə hesab etmişdir. Onun Azərbaycanda siyasi fəaliyyətinin birinci dövründə ana dilində təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması, milli pedaqoji və elmi-pedaqoji kadr hazırlığında düşünülmüş strategiya və taktikanın həyata keçirilməsi, xalqın mənəvi təkamülündə, gəncliyin milli özünüdərkində milli ədəbiyyatımızın yerini bilərək, ona xüsusi qayğının göstərilməsi, ədəbiyyat yaradıcılığında Azərbaycan dilinin aparıcı dil olması, Azərbaycan dilinin tarixinin o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılması, müasir Azərbaycan dilinə aid çoxcildli kitabların yazılması, ali məktəblər üçün ana dilində dərsliklərin tərtibi və onların Azərbaycan Dövlət Mükafatına layiq görülməsi, ana dilini araşdıran alimlərin əməyinin yüksək qiymətləndirilməsi və s. (1, s. 131) onun dövlətçilik-milli ideologiya-milli təhsil triadasının təməl cövhəri kimi çıxış edir.

1970-1982-ci illərdə ölkəmizdə böyük ədəbi-tarixi şəxsiyyətlərin ideallarının təbliğinə, özünüdərk proseslərinin dərinləşdirilməsinə, vətənpərvərlik ideyalarının genişləndirilməsinə yönəlmiş milli siyasət proqramı yeni nəslin vətənpərvərlik ruhunda böyüməsində, milli-mənəvi dəyərlərimizi mənimsəməsində, milli zəminli dünyagörüşlərinin formalaşmasında təzahür edir. Təsadüfi deyildir ki, həmin illərdə ideya mövzusunun zənginliyi, rəngarəngliyi, milli prioritetliyi ilə seçilən, bu gün də xüsusilə sevilən bədii nümunələrin yaranması Ümummilli Liderin Azərbaycan gəncliyinin milli özünüdərk tərbiyəsində mühüm xidmətlərindən biri olmaqla, heç şübhəsiz, həm də milli təhsil siya-

sətinin tərkib hissəsidir.

Obrazlı desək, sovet ideologiyasının milli yaddaşımızın dondurulması istiqamətindəki siyasətində Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasını reallaşdıran ana dili strategiyası məşhur "Ey türk, titrə, özünə dön!" tezisi kimi çıxış etməklə özünədönüşü, soy-kökə qayıdışı heykəlləşdirir, əcdadlarımızdan gələn və ruhumuzda yer tutan müqəddəs közü alovlandırır.

Tədqiqatın obyektindən kənara çıxmamaqla Heydər Əliyevin siyasi fəaliyyətinin I dövründə Azərbaycanda milli ruhun canlanmasında verdiyi töhfələri yuxarıda gətirdiyimiz ümumi faktların nümunəsində göstərməkdə məqsəd həmin dövrün II dövr fəaliyyətinin şərti olmasını əsaslandırmaqdan ibarətdir. Təsadüfi deyildir ki, milli-mənəvi dəyərlərimizin qorunmasını o illərdə ana dilinin ictimai-siyasi nüfuzunun yüksəldilməsinin tərkib hissəsi kimi çıxış etməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə bağlı verdiyi fərman və sərəncamlarda dəfələrlə vurğulayır.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda I dövr rəhbərliyində təhsil siyasəti müəyyən istiqamətlərlə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi kimi təzahür edir. Ümumiyyətlə, araşdırmalarda ən yekdil qənaət Heydər Əliyevin siyasət aləmində ən böyük xidmətinin müstəqil Azərbaycan dövlətinin özülünün və əsas sütunlarının qurulması, inkişafa, yüksəlişə istiqamətləndirilməsi kimi qəbul edilir.

2. Heydər Əliyev və Azərbaycan Respublikasının Təhsil strategiyasının milli ideyalarla zənginləşdirilməsi

Azərbaycan Respublikasının milli təhsil strategiyasının tədqiqindən belə bir nəticə çıxarmaq mümkündür ki, o, Ulu Öndər Heydər Əliyevin milli ideologiya konsepsiyasının mühüm komponentlərini ehtiva etməklə böyük bir ideologiyanın – azərbaycançılıq ideologiyasının təzahürüdür.

Azərbaycanın seçdiyi, həyata keçirdiyi siyasi kursun beynəlxalq aləmdə tutduğu mövqe dövlətimizin milli ideologiyasının başlıca komponentlərinin, əsas istiqamətlərinin uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

Artıq 32 ildir ki, Azərbaycan Respublikasında davam etdirilən vahid siyasi kurs və tədqiqatın I hissəsində göstərilən faktlar deməyə əsas verir ki, bu kurs ölkəmizdə 1969-cu ildən Ulu Öndər Heydər Əliyevin milli ideya axtarışlarının sağlam təməlləri üzərində qurulmuşdur.

Heydər Əliyevə görə, bir-birini əvəzləyən nəsillərin milli ideologiyaya yiyələnməsi bu gün ideoloji əsaslarını müəyyənləşdirdikləri təhsildən başlayır və bu işin düzgün təşkili dövlətçilik üçün həyati əhəmiyyətə malikdir.

Heydər Əliyev göstərir ki, *"Müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır"* (2, s. 159). Və xalqın kökünün düzgün müəyyənləşdirilməsi, zəruri qaynaq mənbələrinin quruculuq işində rəhbər tutulması, mənəvi-əxlaqi dəyərlərinin qorunması və adət-ənənələrinin haqqa, ədalətə, humanist ideyalara söykəndiyinin ümumbəşəriliyinin göstərilməsi Ulu Öndərin xalqa, dövlətə, dövlətçiliyə "ən böyük xidmətinin" mühüm tərkib hissəsidir.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətində əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlərin qorunması milli mövcudluğumuzun sərhədlərini aşaraq, siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantı kimi çıxış edir. Dövlətin ən əsas funksiyalarından biri də milli-mənəvi varlığımızın qorunub saxlanması kimi müəyyənləşir. Buna görə də millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri: dil, din, folklor, milli-mənəvi dəyərlərin vahid bir ideya ətrafında sıx surətdə birləşməsi ən vacib dövlətçilik məsələsi kimi çıxış edir. Milli ideologiyanın ya-

radılması və onun müstəqil dövlətin prinsipləri kimi irəli sürülməsi Azərbaycan ziyalıları, o cümlədən təhsil cameəsi qarşısında başlıca vəzifə hesab edilir.

Milli ideologiya konsepsiyasının yaradılması və burada milli-mənəvi varlığımızın bütün təzahürlərinin dövlətçilik mənafeyi kimi çıxış etməsi, şübhəsiz ki, təhsil sahəsinin də milli məqsədlər, mənafelər əsasında qurulmalı olması Heydər Əliyevin milli təhsil siyasətinin dövlətçilik əhəmiyyəti kimi təzahür edir. Çünki Heydər Əliyevə görə, *"Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi - bunların hamısı ilk növbədə müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir"* (3, s. 174).

Dövlətçilik prinsiplərinin həyata keçirilməsində təhsili mühüm qüvvə hesab edən Ulu Öndər yalnız təhsil işçilərinə böyük ümidlər bəslədiyini dönə-dönə vurğulayır. *"İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir"* çağırışında göstərir ki, müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilən quruculuq işlərinin öhdəsindən yalnız alimlərimizin, müəllimlərimizin, təhsil sahəsində ixtisaslaşmış institutların gələ biləcəyini güman edir (3, s. 174).

Bununla belə, müəyyən tapşırıqları da bəyan etməyi unutmur, bildirir ki, bu tədbirlər tədbir xatirinə, müəyyən bir dəyişiklik aparmaq xatirinə yox, yalnız və yalnız təhsili düz yolla aparmağa, xalqımızın gənc nəslin intellektual inkişafına, tərbiyə etməyə, müstəqil dövlətin prinsipləri əsasında inkişaf etdirməyə yönəldilməlidir (3, s. 175).

Milli ideologiyamızın konsepsiyasını qurmaq, onu tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək, düşünən beyinlərimizi, alimlərimizi, o cümlədən təhsil sahəsində çalışan müəllim ordusunu milli ideologiyamızın formalaşması üçün fəaliyyət göstərməyə cəlb etmək, bu baxımdan məktəblərdə gözləmədən çox iş görməklə bağlı mühüm qərarlar təsadüfi deyildir ki, ilk dəfə təhsil işçiləri ilə görüşdə qəbul edilir. Bu baxımdan 31 avqust 1994-cü ildə Heydər Əliyevin Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə səsləndirdiyi fikirlər (3, s. 169-182) dövlətçilik ideologiyası proqramının müddəaları kimi çıxış edir.

Burada tariximizin ədəbiyyatımızda, ədəbiyyatın doğma dildə tədrisi kimi konseptual əhəmiyyətli məsələlərdən ətraflı bəhs edəndə də eyni ciddi vəzifələri təhsil işçilərinin qarşısına qoyur. Digər tərəfdən də, bu məsələni təkcə təhsil işçilərinin vəzifəsi kimi məhdudlaşdırmır, təhsil sahəsi ilə bağlı akademik səviyyəli alimləri, mütəxəssisləri bu dövlətçilik, milli təhlükəsizlik əhəmiyyətli məsələyə cəlb edir.

3. Dövlətçilik və milli-mənəvi dəyərlər

Milli ideologiyanın dövlət quruculuğunun, o cümlədən təhsil quruculuğunun təməl prinsiplərindən biri kimi bərqərar olması yalnız təhsillə bağlı məsələlərdə, görüşlərlə bitmir. Yuxarıda da qeyd etdiyimiz kimi, təhsilimizin milli-mənəvi dəyərlərlə zənginləşdirilməsi, bununla bağlı ideyaların əsasən azərbaycançılıq ideologiyası kontekstində inkişaf etdirilməsi önəmlidir. Ümummilli Liderin milli-mənəvi dəyərlərlə bağlı qiymətli fikirlərindən (6) mahiyyətləri üzə çıxaranda da görürük ki, dövlətimizin milli ideologiyasının təməl prinsipləri "azərbaycançılıq" adı ilə xalqımızın oturuşmuş milli-mənəvi təfəkküründə əsaslanır.

Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturuna daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi.

21 noyabr 1998-ci il tarixində Yeni Azərbaycan Partiyasının 6-cı ildönümü münasibəti ilə Respublika sarayında keçirilən, bütün dövlət strukturlarının iştirak etdiyi təntənəli yığıncaqda Ulu Öndər həm xarici, həm daxili siyasətdə, həm ictimai-siyasi, həm sosial-iqtisadi sahədə gördüyümüz işlərin milli ideologiyanın üzərində qurulmasını bəyan edir və onun məzmununu, milli ideologiyanın məhz nədən ibarət olmasını çoxmilyonluq auditoriyaya aydınlaşdırır. Göstərir ki, milli ideologiyamız ən əvvəl dövlətçilikdir:

"Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir" (4, s. 244).

Və əsas məsələ: dövlətçilik tərbiyəsi işinə məsul olan qüvvə burada müzakirə müstəvisinə gətirilir. Əlbəttə, təhsilşünas rəhbərin fikirlərindən aydın olur ki, aparıcı qüvvə olaraq təhsil, dövlətin himayəsi ilə hər bir vətəndaşa dövlətçilik tərbiyəsi aşılamalı, inkişaf etdirməli, onlarda milli vətənpərvərlik hissləri yaratmalıdır (4, s. 244).

Burada Heydər Əliyev milli-mənəvi dəyərlərimizi milli ideologiyamızın ikinci əsas komponenti kimi təqdim edir və konseptual əsaslı fikirlərini bildirir. Milli-mənəvi dəyərlərimizin milli identikliyimizin əsas göstəricisi olmasını, əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşmasını diqqətə çatdırır, yalnız milli-mənəvi dəyərlərin milləti həqiqi millət, xalq təyin edə bilməsini vurğulayır. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsas qaynaqlarından birinin də Qurani-şərif olduğunu yenidən xalqın diqqətinə təqdim edir. Bununla belə, Azərbaycanın mütəfəkkir insanlarının, mütərəqqi insanlarının, böyük şəxsiyyətlərinin, hörmətli siyasi və dövlət xadimlərinin, mədəniyyət xadimlərinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin yaradılmasında rolunu da unutmur, xüsusi qeyd edir. Onu da qeyd edək ki, Heydər Əliyev bu qənaətini başqa tədbirlərdə də önə çəkir. O, milli təhsil ideyalarının formalaşmasında pedaqoji fikir ustadlarının irsini yüksək dəyərləndirərək göstərir ki, XX əsrdə bizim qazandığımız uğurların, müstəqil milli dövlət yaratmaq əzmimizin əsaslarını tariximizin bütün qatlarında axtarmalıyıq. Təhsilimizin müdrik bilicisi Heydər Əliyev, əsasən, XIX əsr mühitində formalaşmış və təşəkkül tapmış qaynaqları xüsusilə əhəmiyyətli hesab edir, milli maarifçilik ideyalarının ayrı-ayrı görkəmli şəxsiyyətlərin çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapdığını nəzərə çatdırır. Bu irsi axtarıb tapmağı tövsiyə edir (5, s. 224).

Problemlə bağlı belə faktlar Heydər Əliyevin milli təhsil quruculuğu irsində kifayət qədər genişdir, onların hamısını bu yazı çərçivəsinə sığışdırmaq mümkün də deyil. Sadəcə bu yanaşmalardan aydın olur ki, Heydər Əliyevə görə, milli ideologiyanın əsas tərkib hissələri, bir tərəfdən, milli dövlətçilik, digər tərəfdən, milli-mənəvi dəyərlərdir. Dövlətçilik ideologiyası insanların bir vətəndaş kimi formalaşdırılmasını, Vətənə sevgi hissini, dövlət mənafeyini üstün tutmaq, şəxsi mənafeyi dövlət mənafeyi prizmasından keçirmək vəzifələrini əhatə edir.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqəni Ulu Öndər *"milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz"* (7) tezisi şəklində irəli sürür. Heydər Əliyev bu barədə müraciətlərində Azərbaycan xalqının milli dövlətçilik şüurunu təqdir edir və göstərirdi ki, əsrlər boyu milli ideologiyamızın formalaşıb, inkişaf etməsində yaradıcı şəxslər, milli ziyalılığın təmsilçiləri, maarifpərvər alimlər, filosoflar, müəllimlər, yazıçılar iştirak ediblər.

Heydər Əliyevin problemlə bağlı mülahizələrindən aydın olur ki, milli-mənəvi dəyərlər mürəkkəb daxili struktura malikdir. Milli-mənəvi dəyərlərdən çıxışlarında bəhs edən Ulu Öndər bura üç tərkib hissəni daxil edir: dil, din, adət-ənənə və bunların vəhdəti kimi çıxış edən milli mentalitet.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini bütün səviyyələrdə əsas vəzifələrdən biri kimi irəli sürürdü. Göstərirdi ki, bunlarsız millət yoxdur, bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

Milli təhsil quruculuğu prosesində çoxsaylı görüş, tədbir, iclas, müzakirə, yığıncaq və s. hər birində milli ideologiyamızın əsas komponentlərindən olan, mürəkkəb daxili struktura malik milli-mənəvi dəyərlərimizin üç tərkib hissəsini – dil, din, adət-ənənə və

bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitetlə bağlı məsələləri xüsusi qeyd edir.

Dilimizin milli dəyərlər daşıyıcılığı Heydər Əliyevin milli təhsil irsində xüsusi yerlərdən birini tutur. Bu baxımdan milli ideologiyamızın formalaşmasında dərsliklərin roluna Heydər Əliyev həmişə xüsusi diqqət yetirirdi və bilavasitə gənclərin kütləvi tərbiyəsi ilə bağlı olduğu üçün buradakı çatışmazlıqlara çox ciddi yanaşırdı. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir, bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi: *"Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz"* (6).

Diqqətçəkən bir məqam da bundan ibarətdir ki, dövlətçilik və milli-mənəvi dəyərlərin sıx vəhdətindən ibarət olan azərbaycançılıq, Heydər Əliyevə görə, milli mündəricədən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir. Bu, Azərbaycan Respublikasının təhsil strategiyasının ümumbəşəri ideyalarla zənginləşdirilməsi prosesində əks olunur. Başqa sözlə, Heydər Əliyev ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasının da milli qaynaqlardan nəşət tapdığını irəli sürür. Təsadüfi deyildir ki, təhsilin dünya standartlarına uyğunlaşdırılması ilə əlaqədar, təhsil sahəsində ümumbəşəriliyə xidmət edən dövlət siyasətinin əsas prinsiplərindən olan demokratikliyin də yolunun milli mənəviyyatdan keçdiyi baxışına rast gəlirik: *"Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir"* (4, s. 339).

Beləliklə, Ümummilli Lider Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun bir milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığına dəlalət edirdi. Bu baxımdan cəsarətlə demək olar ki, təhsilimizin özünəməxsus milli identikliyi, başqa sözlə, Azərbaycan ruhu ilə, milli ideallarla zənginləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə simvolizə olunur.

Nəticə

Beləliklə, Azərbaycan Respublikasının təhsil strategiyasında milli-mənəvi dəyərlərin prioritetliyinin problem kimi tədqiqindən bu qənaətə gəlmək mümkündür ki, təhsili dövlətçiliyi qorumağın əsas vasitəsi hesab edən Ulu Öndər Heydər Əliyev bu işin sarsılmaz xarakter almasını milli ideologiyaya, onun yaranmasına, müəyyənləşməsinə, qorunub inkişaf etdirilməsinə bağlayır.

Dövlətçilik ideologiyasının əsas komponentlərindən olan milli-mənəvi dəyərlərin təhsil siyasətində yerinin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, o, müasir mərhələdə milli təhsil ideyaları kimi çıxış etməklə Heydər Əliyevin milli təhsil quruculuğu strategiyasının mühüm tərkib hissəsidir. Daima aktual olan bu problem Azərbaycan Respublikasının milli təhlükəsizlik məsələsi kimi bir strateji hədəf rolunda çıxış edir.

ƏDƏBİYYAT

1. Cəfərov N. Seçilmiş əsərləri. [5 cilddə]. Bakı: Elm, c.4, 2007, 361 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 1, 1997, 606 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 2, 1997, 601 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 18, 2006, 528 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 29, 2009, 520 s.

6. Əliyev H.Ə. Müstəqillik yolu: Seçilmiş fikirlər / S.Xəlilov, Ş.Əsgərov. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
7. Xəlilov S. Heydər Əliyev və müasir mərhələdə milli ideyanın təməl prinsipləri // Xalq qəzeti. 2011, 13 dekabr, s.3-4.

Резюме

Мехрибан Сардарова

Приоритет национально-духовных ценностей в стратегии образования Азербайджанской Республики

В статье рассматривается процесс обогащения стратегии образования Азербайджанской Республики национальными идеями. Анализируется государственная значимость того, что Общенациональный лидер Гейдар Алиев определил национально-духовные ценности азербайджанского народа в качестве одного из ключевых приоритетов в системе образования.

Исследование более чем полувекового этапа развития национальной образовательной стратегии показывает, что независимо от идеологических условий двух различных исторических периодов, приоритет в деле сохранения и укрепления национально-духовных ценностей оставался неизменным. Исторические заслуги Гейдара Алиева в формировании современного подхода к обогащению образовательной стратегии национальными идеями раскрываются на основе анализа широкого круга фактических материалов, аналитической аргументации и представлены в систематизированном виде. Отмечается, что между рассматриваемыми периодами отсутствует жесткая временная граница: отношение Гейдара Алиева к приоритетности национально-духовных ценностей в сфере образования и его многогранная деятельность в этом направлении формируют единую концептуальную линию.

Исследование подтверждает, что усвоение национальной идеологии сменяющими друг друга поколениями начинается именно с образования, идеологические основы которого были заложены Гейдаром Алиевым. Это выступает гарантией не только современной национальной идентичности, но и политического суверенитета и устойчивости государственного строя.

В контексте современной истории образования особое внимание уделяется возрождению, сохранению, развитию и обогащению национальных образовательных идей, основанных на культурно-историческом наследии и духовных ценностях предков, что непосредственно связано с именем Гейдара Алиева.

В статье подчеркивается, что такие элементы национально-духовной системы ценностей, как язык, религия, обычаи и традиции, а также национальный менталитет, рассматриваемый как их органическое единство, по мнению Гейдара Алиева, являются важнейшими условиями сохранения государственной независимости. Формирование высокого уровня национального менталитета – длительный исторический процесс, требующий усилий нескольких поколений. Гейдар Алиев, подчеркивая важность данной задачи, определял сохранение духовно-нравственных ценностей и их отражение в образовательной политике как ключевые принципы развития системы образования.

Гейдар Алиев рассматривал изучение, защиту и развитие национально-духовных ценностей как одну из приоритетных задач на всех уровнях государственного управления и образовательной системы. Он отмечал, что без сохранения этих ценностей не может существовать нация, а народ, сумевший их сохранить, всегда будет способен отстаивать свою независимость.

Концепция национального образования в государственной политике Гейдара Алиева формирует фундамент становления и развития идеи азербайджанства, а также обеспечения образовательной системы государственными принципами. Одновременно она выступает стратегическим ориентиром и важным параметром укрепления современного государственного потенциала.

Ключевые слова: *национальная образовательная стратегия, азербайджанское образование, Гейдар Алиев, национально-духовные ценности, азербайджанство, истоки национального образования*

Summary

Mehriban Sardarova

The Priority of National and Spiritual Values in the Education Strategy of the Republic of Azerbaijan

The article examines the process of enriching the educational strategy of the Republic of Azerbaijan with national ideas. It analyzes the state-level significance of the fact that the National Leader Heydar Aliyev identified the national-spiritual values of the Azerbaijani people as one of the key priorities in the field of education.

A study of more than half a century of development of the national educational strategy demonstrates that, regardless of the ideological frameworks of two different historical periods, the priority of preserving and strengthening national-spiritual values has remained unchanged. Heydar Aliyev's historical contributions to shaping the modern approach to integrating national ideas into the education system are explored based on extensive factual materials and analytical reasoning, and are presented in a systematic manner. It is emphasized that there is no rigid boundary between the two historical stages: Aliyev's consistent stance on the priority of national-spiritual values in education and his comprehensive activity in this direction form a unified conceptual framework.

The research confirms that the adoption of national ideology by successive generations begins with education, the ideological foundations of which were established by Heydar Aliyev. This serves not only as a guarantee of contemporary national identity, but also as a foundation for political sovereignty and the stability of statehood.

In the context of modern educational history, special importance is attributed to the revival, preservation, development, and enrichment of national educational ideas based on the cultural-historical heritage and spiritual values inherited from ancestors – an endeavor directly associated with the name of Heydar Aliyev.

The article stresses that such components of national-spiritual values as language, religion, customs and traditions, as well as the national mentality as their organic unity, are regarded by Heydar Aliyev as fundamental conditions for the preservation of state independence. The development of a strong national mentality is a long-term historical process requiring the efforts of many generations. Aliyev, emphasizing the importance of this mission, identified the protection of spiritual and moral values and their reflection within educational policy as core principles of educational development.

Heydar Aliyev viewed the study, protection, and advancement of national-spiritual values as one of the principal objectives at all levels of governance and education. He pointed out that without these values, a nation cannot exist, whereas a people who safeguard their values will always be committed to protecting their independence.

The national education concept within Heydar Aliyev's state-building policy forms the foundation for the establishment and development of the idea of Azerbaijani identity (Azerbaijani nationalism) and for ensuring that the education system is aligned with statehood principles. At the same time, it serves as a strategic goal and an important parameter in strengthening the modern capabilities of the state.

Key words: *national education strategy, Azerbaijani education, Heydar Aliyev, national-moral values, Azerbaijaniism, sources of national education*

Redaksiya heyətinin üzvü p.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

İQTİSADİ ELMLƏR

UOT 336

DÖVLƏTİN PUL-KREDİT SİYASƏTİNDƏ ƏSAS AMİLLƏRƏ SİSTEMLİ YANAŞMA

Hacı İSGƏNDƏROV*

Məqalə redaksiyaya daxil olmuşdur: 17 sentyabr 2025; çapa qəbul edilmişdir: 15 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 14th of September, 2025; accepted: 15th of November, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *Pul-kredit siyasəti, iqtisadi sabitlik, inflyasiya, faiz dərəcələri, valyuta məzənnəsi, iqtisadi artım, maliyyə bazarları, makroiqtisadi siyasət, pul bazası, maliyyə sabitliyi.*

Giriş

Müasir dövrdə iqtisadi sabitliyin və dayanıqlı inkişafın təmin olunmasında dövlətin iqtisadi siyasəti çərçivəsində həyata keçirilən pul-kredit (monetar) siyasəti mühüm rol oynayır. Pul-kredit siyasəti Mərkəzi Bank tərəfindən iqtisadiyyatdakı pul kütləsinin tənzimlənməsi, faiz dərəcələrinin müəyyənləşdirilməsi və inflyasiya səviyyəsinin idarə olunması vasitəsilə iqtisadi aktivliyə təsir göstərmək məqsədi daşıyan strateji alətlər toplusudur. Bu siyasət xüsusilə bazar iqtisadiyyatına keçid dövründə olan ölkələr üçün iqtisadi sabitliyin qorunması və makroiqtisadi məqsədlərin reallaşdırılması baxımından əhəmiyyət kəsb edir.

Pul-kredit siyasəti (monetar siyasət) dövlətin iqtisadiyyat üzərindəki makroiqtisadi tənzimləmə alətlərindən biridir və əsasən Mərkəzi Bank tərəfindən həyata keçirilir. Bu siyasətin məqsədi inflyasiyanın cilovlanması, iqtisadi artımın stimullaşdırılması, maliyyə sabitliyinin qorunması və məşğulluğun artırılmasıdır. Əsasən, faiz dərəcələri, pul bazası, məcburi ehtiyat normaları və açıq bazar əməliyyatları vasitəsilə həyata keçirilən pul-kredit siyasətinin effektivliyi bir sıra daxili və xarici amillərlə müəyyən olunur.

Azərbaycan Respublikasında da son illərdə həyata keçirilən pul-kredit siyasəti inflyasiya gözləntilərinin idarə olunması, valyuta məzənnəsinin sabitliyinin qorunması, iqtisadi artımın təşviqi və maliyyə sektorunun möhkəmləndirilməsi istiqamətində vacib funksiyalar yerinə yetirir. Bu prosesdə bir sıra əsas amillər – daxili və xarici iqtisadi təzyiqlər, makroiqtisadi göstəricilər, dünya bazarlarında baş verən dəyişikliklər, monetar və fiskal siyasətlər arasında koordinasiya – mühüm rol oynayır.

Məqalənin məqsədi dövlətin pul-kredit siyasətində rol oynayan əsas amillərə sistemli yanaşmanı təqdim etmək, bu amillərin qarşılıqlı əlaqəsini və iqtisadi qərarların formalaşmasına təsirini elmi əsaslarla təhlil etməkdir. Girişdən sonra təqdim olunan bölmələrdə pul-kredit siyasətinin nəzəri əsasları, amillərin təsnifatı və onların iqtisadi göstəricilərlə qarşılıqlı təsirləri ətraflı şəkildə araşdırılır. Bu yanaşma həm tədqiqatçılar, həm də iqtisadi qərarvericilər üçün mühüm elmi-praktik nəticələr ortaya qoymağa imkan verir.

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: isgandar12@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3083

1. Pul-kredit siyasətinin nəzəri əsasları

Pul-kredit siyasətinin nəzəri əsasları klassik, Keynsçi və monetarist yanaşmalarla bağlıdır. Klassik iqtisadçılar bazarın özünü tənzimləmə qabiliyyətinə üstünlük versələr də, Keynsçi nəzəriyyə dövlətin iqtisadiyyata müdaxiləsini zəruri sayır. Monetaristlər isə (M.Fridman və başqaları) pul təklifinin iqtisadi aktivlik üzərindəki təsirini vurğulayaraq, Mərkəzi Bankın sabit pul artımını təmin etməli olduğunu bildirirlər [10, s. 14]. Pul-kredit siyasəti (monetar siyasət) iqtisadiyyatın makroiqtisadi sabitliyini təmin etmək üçün dövlətin əsas iqtisadi tənzimləmə vasitələrindən biri kimi çıxış edir. Bu siyasətin nəzəri əsasları əsasən Klassik İqtisadi Məktəb, Keynsçilər, Monetaristlər və müasir Yeni Klassik nəzəriyyələr tərəfindən formalaşdırılmışdır.

1. *Klassik iqtisadi nəzəriyyə:* Klassik iqtisadçılara görə, bazar öz-özünü tənzimləyən bir sistemdir və dövlətin müdaxiləsi minimum səviyyədə olmalıdır. Onlara görə, pul-kredit siyasətinin uzunmüddətli təsiri yoxdur, çünki qiymətlər və əməkhaqqı çevik şəkildə dəyişir və iqtisadiyyat tam məşğulluq vəziyyətinə doğru hərəkət edir. Bu yanaşmada pul yalnız nominal dəyişənlərə – yəni qiymətlərə və maaşlara təsir göstərir.
2. *Keynsçi nəzəriyyə:* Keynsçilər, xüsusilə 1930-cu illərin Böyük Depressiyasından sonra, dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyini vurğuladılar. Onlara görə, xüsusilə qısamüddətli dövrdə pul-kredit siyasəti iqtisadi fəallığın tənzimlənməsində mühüm rol oynayır. Faiz dərəcələrinin dəyişdirilməsi ilə investisiya xərclərinə təsir etməklə, iqtisadi artım və məşğulluq səviyyəsi üzərində real təsir göstərmək mümkündür. Keynsçi yanaşmaya görə, monetar siyasət fiskal siyasətlə uzlaşdırılmalıdır.
3. *Monetarist nəzəriyyə (M.Fridman):* Monetaristlər pul təklifi ilə iqtisadi artım və inflyasiya arasında birbaşa əlaqə olduğunu iddia edirlər. M.Fridmanın rəhbərlik etdiyi bu məktəbə görə, inflyasiyanın əsas səbəbi pul təklifinin həddindən artıq artmasıdır. Bu yanaşmada pul-kredit siyasəti sabit bir qayda əsasında həyata keçirilməli, pul təklifi iqtisadiyyatın real artım tempinə uyğun artırılmalıdır. Onlara görə, siyasətin ani və təkrarlanan dəyişiklikləri iqtisadiyyatda qeyri-sabitliyə səbəb olur.

Qrafik 1.

Pul -kredit siyasətinə nəzəri yanaşmalar

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

1. *Yeni klassik və rasional gözləntilər nəzəriyyəsi:* Bu nəzəriyyəyə görə, iqtisadi subyektlər rasional qərarlar verir və dövlətin pul siyasətindəki dəyişiklikləri əv-

vəlcədən gözləyərək ona uyğun davranırlar. Nəticədə, pul-kredit siyasətinin təsiri qısamüddətli dövrdə belə az olur, çünki bazar iştirakçıları adaptiv deyil, rasional şəkildə reaksiya verirlər. Bu yanaşma pul-kredit siyasətinin effektivliyini şübhə altına alır və siyasətin şəffaflığını, sabitliyini ön plana çəkir.

2. *Müasir monetar siyasət yanaşmaları:* XXI əsrdə Mərkəzi Banklar "inflyasiya hədəfləməsi" strategiyasını əsas alaraq pul-kredit siyasətini şəffaflıq və irəlidən yönəldilmiş siqnallarla həyata keçirməyə başlamışlar. Bu yanaşma həm monetarist, həm də Keynsçi elementləri özündə birləşdirərək siyasətin səmərəliliyini artırmağa çalışır. Pul-kredit siyasətinin nəzəri yanaşmalarını ümumiləşdirərək, aşağıdakı qrafik formasında verə bilərik (Qrafik 1).

Yuxarıdakı qrafikdə müxtəlif iqtisadi nəzəri məktəblərin pul-kredit siyasətinə yanaşmaları sistemli şəkildə göstərilir. Hər məktəb bu siyasətin iqtisadiyyata təsirini fərqli şəkildə qiymətləndirir və özünəməxsus prioritetlərə malikdir. Nəticə olaraq, pul-kredit siyasətinin nəzəri əsasları onun iqtisadiyyatda hansı məqsədlərə xidmət etdiyini, necə və hansı mexanizmlərlə həyata keçirildiyini izah edir. Müxtəlif nəzəri məktəblər bu siyasətin imkanlarını və məhdudiyyətlərini fərqli şəkildə qiymətləndirsələr də, ümumi fikir budur ki, düzgün tətbiq olunan pul-kredit siyasəti makroiqtisadi sabitlik üçün vacib tənzimləyici alətdir.

2. Dövlətin pul-kredit siyasətinə təsir edən əsas amillər

Pul-kredit siyasətinin formalaşdırılması və həyata keçirilməsi bir sıra daxili və xarici iqtisadi, maliyyə və sosial amillərin təsiri altındadır. Bu amillər Mərkəzi Bankın qərarlarının yönünü və intensivliyini müəyyənləşdirir. Pul-kredit siyasəti (monetar siyasət) dövlətin iqtisadi sabitliyi təmin etmək məqsədilə pul təklifi, faiz dərəcələri və kreditləşmə mexanizmlərini tənzimləməsi prosesidir. Bu siyasətin icrası birbaşa olaraq, Mərkəzi Bank tərəfindən həyata keçirilir və əsas məqsədləri qiymət sabitliyi, maliyyə dayanıqlığı, məşğulluq səviyyəsi və iqtisadi artımdır. Pul-kredit siyasətinin formalaşdırılmasında isə müxtəlif daxili və xarici amillər mühüm rol oynayır. Aşağıda bu amillər sistemli şəkildə təqdim olunur:

- *İnflyasiya səviyyəsi:* İnflyasiya, yəni ümumi qiymət səviyyəsinin artması, Mərkəzi Bankın pul siyasətini sərtləşdirməsinə səbəb ola bilər. Yüksək inflyasiya gözləntiləri iqtisadi sabitliyi təhdid etdiyindən, faiz dərəcələrinin artırılması ilə pul kütləsinin azalması və qiymətlərin sabitliyin təmin olunması nəzərdə tutulur. İnflyasiya, iqtisadi artım və işsizlik səviyyəsi Mərkəzi Bankların pul siyasətinə təsir edən başlıca göstəricilərdir. İnflyasiyanın yüksəlməsi zamanı Mərkəzi Banklar, adətən, restriktiv siyasət (faiz dərəcələrinin artırılması) həyata keçirir. Əksinə, iqtisadi durğunluq və yüksək işsizlik dövründə ekspansiv siyasət yürüdülərək faiz dərəcələri azaldılır və kredit şərtləri yumşaldılır [6, s. 32].
- *Maliyyə bazarlarının inkişaf səviyyəsi:* Maliyyə infrastrukturunun dərinliyi və səmərəliliyi pul-kredit siyasətinin ötürmə mexanizmlərinin *(transmission mechanisms)* effektivliyini müəyyənləşdirir. İnkişaf etmiş bank sektoru və qiymətli kağızlar bazarı siyasət qərarlarının real sektora daha sürətli keçməsini təmin edir. Maliyyə sektorunun sağlamlığı pul siyasətinin effektivliyini müəyyən edən əsas amillərdəndir. Bankların likvidlik səviyyəsi, kapital yetərliyi və kredit portfelinin keyfiyyəti pul siyasətinin transmissiya mexanizminə birbaşa təsir göstərir. Maliyyə bazarlarında sabitliyin olmaması pul-kredit siyasətinin nəticələrinin qeyri-müəyyən olmasına səbəb ola bilər. Dövlət, iqtisadi durğunluq şəraitində ekspansionist pul siyasəti tətbiq edərək, likvidliyi artırmaq və istehlakı stimullaşdırmaqla iqtisadi fəallığı canlandırmağa çalışır [9, s. 27].
- *Fiskal siyasət və dövlət büdcəsi:* Fiskal siyasət – yəni dövlətin vergi və xərclər

siyasəti – monetar siyasətlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Yüksək büdcə kəsiri və dövlət borcu monetar siyasətə təzyiq yarada bilər. Mərkəzi Banklar inflyasiyanın qarşısını almaq məqsədilə daha sərt siyasət tətbiq etmək məcburiyyətində qala bilər. Bu, xüsusilə fiskal dominantlıq şəraitində baş verir [14, s. 117].

- *Xarici ticarət balansı və valyuta kursları:* Açıq iqtisadiyyatlarda valyuta məzənnələri, ticarət balansı, qlobal faiz dərəcələri və beynəlxalq enerji qiymətləri (xüsusilə Azərbaycanda neft qiymətləri) mühüm xarici təsir amilləridir. ABŞ Federal Ehtiyat Sistemi və Avropa Mərkəzi Bankının siyasətləri qlobal likvidliyə təsir göstərərək kapital axınlarını dəyişdirə və bununla da Azərbaycan kimi ölkələrin monetar siyasətinə dolayı təsir edə bilər. Ölkənin tədiyyə balansındakı kəsir və valyuta ehtiyatları Mərkəzi Bankın qərarlarına təsir göstərir. Məsələn, məzənnənin sabit saxlanması üçün valyuta müdaxilələri, faiz dərəcələrinin tənzimlənməsi zərurətə çevrilə bilər.
- *Gözləntilər və psixoloji amillər:* İnflyasiya gözləntiləri, biznes və istehlakçıların Mərkəzi Bank siyasətinə olan inamı monetar siyasətin effektivliyinə əhəmiyyətli təsir göstərir. Əgər bazar iştirakçıları Mərkəzi Bankın inflyasiyanı nəzarətdə saxlaya bilməyəcəyinə inanırlarsa, monetar siyasətin real təsirləri azalır. Əhalinin və biznes subyektlərinin inflyasiya gözləntiləri, siyasətin effektivliyini müəyyən edən əsas qeyri-formal amillərdəndir. Mərkəzi Bankın verdiyi monetar siqnallar və kommunikasiya siyasəti bu baxımdan əhəmiyyətlidir. Buna görə də gözlənti idarəçiliyi müasir mərkəzi bankçılıqda mühüm yer tutur [11, s. 426].
- *İnstitusional və hüquqi çərçivə:* Mərkəzi Bankın hüquqi statusu, müstəqilliyi və fəaliyyət səlahiyyətləri onun pul siyasətində sərbəstliyini və çevikliyini təmin edir. Azərbaycan Respublikasının "Mərkəzi Bankı haqqında" Qanuna əsasən, bu qurumun əsas vəzifəsi qiymət sabitliyinin qorunmasıdır (*Azərbaycan Respublikasının Qanunvericiliyi, 2004*). Qanunvericilik çərçivəsi və hesabatlılıq mexanizmləri də siyasətin effektivliyini təmin edən hüquqi amillərdir. Mərkəzi Bankın müstəqilliyi, qanunverici orqanların funksionallığı və idarəetmə keyfiyyəti pul-kredit siyasətinin nəticələrinə ciddi təsir göstərir. Araşdırmalar göstərir ki, institusional cəhətdən müstəqil Mərkəzi Banklar daha aşağı inflyasiya səviyyəsi ilə xarakterizə olunur [12, s. 353]. Dövlətin pul-kredit siyasətinə təsir edən əsas amilləri ümumiləşdirərək, aşağıdakı diaqram şəklində verə bilərik (Diaqram 1).

Diaqram 1.

Dövlətin pul-kredit siyasətinə təsir edən əsas amillər



Mənbə: *Müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıdakı diaqramda dövlətin pul-kredit siyasətinə təsir edən əsas amillər təsir

gücünə görə vizual şəkildə təqdim olunub. Hər bir amil subyektiv olaraq 1-dən 10-a qədər şkala üzrə qiymətləndirilib. Pul-kredit siyasəti mürəkkəb və çoxfaktorlu bir prosesdir. Hər bir amil – istər makroiqtisadi göstəricilər, istər bank sektorunun durumu, istərsə də xarici təsirlər – bu siyasətin yönünü və nəticələrini formalaşdırır. Azərbaycanda xüsusilə neft qiymətlərinin dəyişkənliyi, fiskal sabitlik və bank sisteminin inkişaf səviyyəsi pul siyasətinin planlaşdırılmasında əsas rol oynayır. Effektiv monetar siyasət üçün bu amillərin hər birinin düzgün təhlili və çevik reaksiya mexanizmləri vacibdir.

3. Pul-kredit siyasətində son tendensiyalar (2020–2024)

Azərbaycan Respublikasının Mərkəzi Bankı 2020-ci ildən sonra makroiqtisadi sabitliyi qorumaq məqsədilə daha çevik və şəffaf pul-kredit siyasətinə keçmişdir. Xüsusilə inflyasiyanın iki rəqəmli həddə çatdığı 2022–2023-cü illərdə faiz dərəcələri artırılaraq restriktiv siyasət yürüdülmüşdür. 2023-cü ildən isə inflyasiyanın tədricən azalması fonunda faiz dəhlizinin aşağı sərhədi yumşaldılmışdır. Bu mərhələdə həm də pul siyasətinin ötürmə mexanizmlərinin təkmilləşdirilməsi və institusional islahatlar (məsələn, repo alətləri və strateji kommunikasiya) ön plana çıxarılmışdır [4, s. 12]. Azərbaycan Respublikasında pul-kredit siyasətinin dinamikasını (2020–2024) aşağıda verilən qrafikdən aydın görmək olar (Qrafik 2).

Qrafik 2.

Azərbaycan Respublikasında pul-kredit siyasətinin dinamikası (2020-2024)



Mənbə: *Müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıdakı qrafikdə 2020-2024-cü illər üzrə Azərbaycan Respublikasında pul-kredit siyasətinin əsas göstəriciləri – faiz dərəcəsi, inflyasiya və pul təklifi artımı – dinamik şəkildə təqdim olunmuşdur. Bu göstəricilər siyasətin tənzimləyici funksiyasını və iqtisadi trendlərə uyğun reaksiyasını əks etdirir.

Pul-kredit siyasətində ən vacib istiqamətlərdən biri faiz dərəcəsi siyasətidir. Faiz dərəcəsi həm pulun dəyərini, həm də iqtisadiyyatdakı investisiya və istehlak qərarlarını formalaşdıran mühüm göstəricidir. Mərkəzi Bank faiz dəhlizi vasitəsilə kommersiya banklarının likvidlik davranışlarına təsir edir və bununla da makroiqtisadi tarazlığa yön verir. Bu məqalədə faiz dərəcəsi siyasətinin nəzəri əsasları, ötürmə mexanizmləri və Azərbaycan Respublikası Mərkəzi Bankının bu sahədəki praktikası təhlil olunur. Faiz dərəcələri pulun qiymətini ifadə edir. Keynsçi yanaşmaya əsasən, faiz dərəcələrinin aşağı olması investisiya xərclərini artırır və ümumi tələbi stimullaşdırır. Monetaristlər isə hesab edirlər ki, pul təklifindəki dəyişikliklər vasitəsilə faiz dərəcələrinə təsir edərək inflyasiyanın idarə olunması mümkündür [16, s. 195].

Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) 2020-ci ildən sonra faiz siyasətini çevikləşdirməyə və şəffaflığı artırmağa yönəlib. Xüsusilə 2022-ci ildə qlobal ərzaq inflyasiyası və enerji qiymətlərindəki artım Azərbaycanda da inflyasiyanı artırdı (il-

lik təxminən 13-14%). Nəticə olaraq AMB baza faiz dərəcəsini 6.25%-dən başlayaraq mərhələli şəkildə 9.0%-ə qədər yüksəltdi [15, s. 24]. İndi isə aşağıda 2020-2024-cü illərdə Azərbaycanda inflyasiya səviyyəsi ilə Mərkəzi Bankın baza faiz dərəcəsi arasındakı dinamikanı verək (Qrafik 3).

Qrafik 3.

Azərbaycan: İnflyasiya və Baza Faiz Dərəcəsi Dinamikası (2020-2024)



Mənbə: *Müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıdakı qrafikdə 2020–2024-cü illərdə Azərbaycanda inflyasiya səviyyəsi ilə Mərkəzi Bankın baza faiz dərəcəsi arasındakı dinamika göstərilmişdir. Qrafikdən aydın görünür ki, inflyasiya artdıqca faiz dərəcəsi də yüksəldilmiş, 2023-cü ildən etibarən isə hər iki göstəricidə sabitləşmə müşahidə olunmuşdur. Valyuta Məzənnəsi Siyasəti, dövlətin makroiqtisadi sabitliyi qorumaq və xarici iqtisadi münasibətləri tənzimləmək məqsədilə valyuta kurslarına yönəltdiyi strateji yanaşmadır. Pul-kredit siyasətinin ayrılmaz hissəsi olan bu istiqamət, inflyasiya gözləntilərinə, ixrac rəqabət qabiliyyətinə və valyuta ehtiyatlarının idarə olunmasına birbaşa təsir göstərir. Xüsusilə açıq iqtisadiyyata malik ölkələrdə məzənnə siyasəti ticarət balansı və maliyyə sabitliyinin formalaşmasında həlledici rol oynayır. Mundell-Fleming modelinə görə, sabit məzənnə rejimi altında monetar siyasət effektivliyini itirir, çünki Mərkəzi Bank məzənnəni qorumaq üçün faiz dərəcəsini sərbəst şəkildə dəyişə bilmir [13, s. 475]. Azərbaycan iqtisadiyyatı uzun illər sabit məzənnə siyasəti tətbiq etmişdir. Lakin 2015-ci ilin neft qiyməti şoku və xarici şərtlərin pisləşməsi nəticəsində Mərkəzi Bank manatın devalvasiyasını həyata keçirmiş və tənzimlənən üzən məzənnə rejiminə keçid baş vermişdir *(Qrafik 4)*.

Qrafik 4.

Azərbaycan: Valyuta Məzənnəsi və Valyuta Ehtiyatları Dinamikası (2014-2024)



Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Bu qrafikdə 2014-2024-cü illərdə Azərbaycanın valyuta məzənnəsi (1 USD =

AZN) və valyuta ehtiyatları (milyard ABŞ dolları ilə) üzrə dinamika göstərilmişdir. 2015-ci ildə baş verən kəskin devalvasiya və valyuta ehtiyatlarının azalması açıq şəkildə görünür. Sonrakı illərdə ehtiyatlar tədricən bərpa olunmuş və məzənnə sabitləşmişdir.

İnflyasiya hədəflənməsi modeli müasir dövrdə mərkəzi bankların tətbiq etdiyi ən önəmli pul siyasəti strategiyalarından biridir. Bu modeldə əsas məqsəd inflyasiyanın sabit və öncədən müəyyən olunmuş səviyyədə saxlanılmasıdır. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün bu yanaşma iqtisadi sabitlik, investisiya mühiti və əhalinin alıcılıq qabiliyyətinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Qiymət sabitliyinin təmin edilməsi siyasəti (inflation targeting – IT) mərkəzi bankın müəyyən bir inflyasiya səviyyəsini (məsələn, $4\% \pm 1\%$) rəsmi hədəf kimi elan edib, bu hədəfə nail olmaq üçün faiz dərəcələrini və digər alətləri istifadə etdiyi bir yanaşmadır. İnflyasiya göstəricilərinin tənzimlənməsi rejimi dövlətin pul-kredit siyasətində müasir və proqnozlaşdırılan bir strategiyadır. Azərbaycan Mərkəzi Bankı bu istiqamətdə mühüm addımlar atmış və orta müddətli sabitlik üçün möhkəm əsas yaratmışdır. Tam rejimə keçid üçün isə maliyyə bazarlarının dərinləşdirilməsi, institutların dayanıqlığı və ictimai etimadın artırılması əsas prioritetlər kimi qalır.

Nəticə

Pul-kredit siyasəti dövlətin makroiqtisadi sabitliyi qorumaq üçün istifadə etdiyi əsas vasitələrdən biridir. Onun uğurlu həyata keçirilməsi inflyasiya, iqtisadi artım, valyuta sabitliyi, maliyyə bazarlarının inkişaf səviyyəsi və institusional mühit kimi kompleks amillərdən asılıdır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda bu amillərin balanslı şəkildə nəzərə alınması, Mərkəzi Bankın siyasət alətlərinin düzgün seçilməsi və ictimai gözləntilərin effektiv idarə olunması vacibdir.

Faiz dərəcəsi siyasəti dövlətin pul-kredit siyasətində mərkəzi mövqedə durur. Azərbaycan təcrübəsi göstərir ki, bu siyasət yalnız monetar alətlərin çevikliyi ilə deyil, eyni zamanda maliyyə bazarlarının inkişafı, institusional müstəqillik və kommunikasiya mexanizmlərinin effektivliyi ilə də sıx bağlıdır. Faiz siyasətinin daha effektiv tətbiqi üçün iqtisadiyyatın maliyyə dərinliyinin artırılması və uzunmüddətli gözləntilərin idarə olunması prioritet olmalıdır.

Valyuta məzənnəsi siyasəti dövlətin pul-kredit siyasətinin mühüm komponentidir. Azərbaycan nümunəsində sabitlik və inflyasiya nəzarəti prioritet olduğu üçün tənzimlənən məzənnə siyasəti seçilmişdir. Bununla belə, uzunmüddətli dövrdə iqtisadiyyatın şaxələndirilməsi və maliyyə bazarlarının inkişafı nəticəsində daha çevik məzənnə siyasətinə keçid real alternativ ola bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Qanun, 2004. (www.cbar.az).
2. Azərbaycan Respublikası Mərkəzi Bankı. Pul-kredit siyasəti icmalı, 2023. (www.cbar.az).
3. Azərbaycan Respublikası Mərkəzi Bankı. Pul siyasəti strategiyası və hesabatları, 2024. (www.cbar.az).
4. Mərkəzi Bankın Pul-Kredit Siyasəti və İqtisadiyyat: Tədqiqat və Təhlil // Bakı: Mərkəzi Bank nəşri, 2021, s. 12-16.
5. Bəhmənli V. İqtisadiyyatın idarə edilməsi və pul-kredit siyasəti. Bakı: İqtisadiyyat və Bank Nəşriyyatı, 2019, s. 14-17.
6. Guliyev F. İnflyasiya və faiz dərəcələrinin iqtisadi təsirləri. Bakı: Elm və Təhsil, 2022, 124 s.
7. Hacıyev M. İqtisadiyyatda maliyyə sabitliyi və pul-kredit siyasəti. Bakı: İqtisadiyyat Universiteti, 2018, 236 s.
8. Əsədov C. Azərbaycanın iqtisadi siyasəti və dövlətin pul-kredit siyasəti: təhlil və pers-

pektivlər. Bakı: Şərq-Qərb Nəşriyyatı, 2017, 336 s.
9. Bernanke B., & Gertler M. Inside the Black Box: The Credit Channel of Monetary Policy Transmission//. Journal of Economic Perspectives, 1995, 9(4), pp. 27-48.
10 Friedman M. The Role of Monetary Policy//. American Economic Review, 1968, 58(1), pp. 1-17.
11. Woodford M. Central Bank Communication and Policy Effectiveness // NBER Working Paper No, 2005, pp. 426-487.
12. Cukierman A., Webb S., & Neyapti B. Measuring the Independence of Central Banks and Its Effect on Policy Outcomes // World Bank Economic Review, 1992, 6(3), pp. 353–398.
13. Mundell R. A. Capital Mobility and Stabilization Policy under Fixed and Flexible Exchange Rates // Canadian Journal of Economics and Political Science, 1963, 29(4), pp. 475-485.
14. Krugman P., & Obstfeld M. International Economics: Theory and Policy (11th ed.) // Pearson Education, 2018, pp. 117-146.
15. IMF. Exchange Rate Arrangements and Exchange Restrictions Report, 2023, 4938, pp. 24-27.
16. Taylor J. B. Discretion versus policy rules in practice // Carnegie-Rochester Conference Series on Public Policy, 1993, (39), pp. 195-214.

Резюме

Искандеров Хаджи

СИстемный подход к основным факторам денежно-кредитной политики государства

В статье рассматриваются основные факторы, которые формируют и регулируют денежно-кредитную политику государства. Денежно-кредитная политика является одним из основных инструментов, который оказывает существенное влияние на экономику страны и играет важную роль в обеспечении макроэкономической стабильности, а также в контроле инфляции и содействии экономическому росту. К основным факторам относятся экономический рост, уровень инфляции, безработица, обменный курс и уровень внутреннего долга. В статье обсуждается влияние политики, реализуемой Центральным банком через процентные ставки, денежную базу, обменный курс и другие экономические показатели. Кроме того, политика Центрального банка, регулирование финансовых рынков и внешние экономические факторы также играют важную роль в формировании этой политики. В статье рассматриваются различные фазы денежно-кредитной политики государства и влияние этой политики на различные секторы экономики. Эта политика, которая служит целям борьбы с инфляцией, обеспечения финансовой стабильности и снижения неопределенности на валютных рынках, также направлена на улучшение инвестиционного климата и содействие экономическому росту. В то же время также подчеркиваются социальные последствия денежно-кредитной политики государства и то, как эта политика влияет на благосостояние широких слоев населения.В статье рассматриваются основные показатели оценки эффективности денежно-кредитной политики и то, как эти показатели применяются в экономической политике государства. В заключение следует отметить, что денежно-кредитная политика государства направлена на поддержание экономической стабильности и создание благоприятных условий для будущего развития, а также подчеркивается важность правильной оценки основных факторов для повышения значимости и эффективности денежно-кредитной политики государства. Для того чтобы эта политика была эффективной, важно правильно оценить основные факторы и принять соответствующие меры.

Ключевые слова: *Денежно-кредитная политика, экономическая стабильность, инфляция, процентные ставки, обменный курс, экономический рост, финансовые рынки, макроэкономическая политика, денежная база, финансовая стабильность*

Summary

Iskandarov Haji

A systematıc Approach to the Maın Factors ın the State's Monetary and Credıt Polıcy

The article examines the main factors that shape and regulate the state's monetary policy. Monetary policy is one of the main tools that has a significant impact on the country's economy and plays an important role in ensuring macroeconomic stability, as well as controlling inflation and promoting economic growth. The main factors include economic growth, inflation rate, unemployment, exchange rate, and domestic debt level. The article discusses the impact of policies implemented by the Central Bank through interest rates, monetary base, exchange rate, and other economic indicators. In addition, the policies of the Central Bank, regulation of financial markets, and external economic factors also play an important role in the formation of this policy. The article discusses the various phases of the state's monetary policy and the effects of this policy on various sectors of the economy. This policy, which serves the goals of combating inflation, ensuring financial stability, and reducing uncertainty in foreign exchange markets, is also aimed at improving the investment climate and promoting economic growth. At the same time, the social impacts of the state's monetary policy and how these policies affect the well-being of the wider population are also emphasized. The article examines the main indicators for assessing the effectiveness of monetary policy and how these indicators are applied in the economic policy of the state. In conclusion, the monetary policy of the state aims to maintain economic stability and create favorable conditions for future development, and emphasizes the importance of correctly assessing the main factors in order to increase the importance and effectiveness of the monetary policy of the state. For this policy to be effective, it is important to correctly assess the main factors and take appropriate measures.

Key words: *monetary policy, economic stability, inflation, interest rates, exchange rate, economic growth, financial markets, macroeconomic policy, monetary base, financial stability*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 796.8(520):005.8

YAPON DÖYÜŞ İNCƏSƏNƏTİNİN İDMAN MENECMENTİNƏ TƏSİRİ VƏ İNKİŞAFI

Nəzrin ƏDİLOVA*

Məqalə redaksiyaya daxil olmuşdur: 21 aprel 2025; çapa qəbul edilmişdir: 17 sentyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 21th of April, 2025; accepted: 17th of September, 2025; published online: 17th of December, 2025.

Açar sözlər: *yapon döyüş incəsənəti, idman menecmenti, strateji idarəetmə, liderlik, idman marketinqi*

Giriş

Yapon döyüş incəsənəti yalnız döyüş texnikalarından ibarət olmayıb, həm də fəlsəfi və etik dəyərlərlə zəngindir. Bu sistem əsrlər boyu inkişaf edərək müasir idman menecmentinə mühüm təsir göstərmişdir. Döyüş incəsənətinin idarəetmə strukturlarına, məşq proseslərinə və idman təşkilatlarının idarə olunmasına təsiri nəzərəçarpacaqdır. Bu məqalədə Yapon döyüş incəsənətinin idman menecmentinə təsiri və inkişaf perspektivləri araşdırılacaqdır.

Yapon döyüş sənətləri təkcə fiziki bacarıqları inkişaf etdirmək üçün deyil, həm də idarəetmə və liderlik prinsiplərinin formalaşmasına təsir edən mühüm bir sahədir. Bu döyüş incəsənətləri intizam, strateji düşünmə və motivasiya kimi əsas idarəetmə elementlərini özündə cəmləşdirərək, idman menecmentinin inkişafına əhəmiyyətli təsir göstərir.

Yapon döyüş incəsənətləri müxtəlif dövrlərdə yaranmış və fərqli məqsədlərə xidmət edən sistemlərdir. Bu incəsənətlər arasında Cüdo, Karate, Aykido, Kendo, Ninjutsu və digər döyüş növləri yer alır. Döyüş sənətləri yalnız fiziki dözümlülüyü artırmır, həm də qlobal səviyyədə idman menecmentində tətbiq edilən etik və strategiya prinsiplərini formalaşdırır.

Əsas prinsiplərə aşağıdakılar daxildir:

- *Buşido kodeksi* – Döyüş sənətlərinin fəlsəfi təməli olan bu kodeks, şərəf, intizam və özünüinkişaf kimi keyfiyyətlərə əsaslanır.
- *İntizam və liderlik* – Yapon döyüş incəsənəti liderlərin qərarvermə bacarıqlarını gücləndirir.
- *Strategiya və çeviklik* – Döyüş sənətlərində öyrənilən taktiki yanaşmalar, idman menecmentində çevik qərarlar verməyə kömək edir.

İdman menecmenti sahəsində uğur qazanmaq üçün strukturlaşdırılmış yanaşma və düzgün strategiya vacibdir. Yapon döyüş incəsənətləri bu sahəyə müxtəlif aspektlərdə təsir göstərir:

- İdarəetmə sistemində nizam-intizamın tətbiqi – Döyüş sənətləri idman təşkilatlarının idarə edilməsində sistemli yanaşmanı dəstəkləyir.
- İdman klublarında və federasiyalarda strukturun formalaşması – Yapon döyüş

* *magistrant, Bakı Biznes Universiteti*
e-mail: nazrinadil251@gmail.com
ORCID: 0009-0003-3107-0271
https://doi.org/10.30546/25194011.2025.14.5.3086

incəsənətləri vasitəsilə idman klubları və federasiyalar effektiv idarə olunur.

- Menecerlər üçün strateji planlaşdırma bacarıqları – Döyüş sənətlərində istifadə olunan taktiki yanaşmalar, idman menecerlərinin uzunmüddətli planlamalarına müsbət təsir edir.

İdman menecmentinin mühüm hissələrindən biri də marketinq və brendinqdir. Yapon döyüş sənətləri bu sahədə də əhəmiyyətli rol oynayır:

- Beynəlxalq turnirlərin təşkili – Karate, cüdo və digər döyüş növləri üzrə qlobal çempionatlar təşkil olunur ki, bu da idman turizminə və iqtisadi inkişafa töhfə verir.
- Sponsorluq və kommersiya modelləri – Döyüş sənətləri idman malları, geyim markaları və təlim mərkəzləri üçün böyük biznes imkanları yaradır.
- Sosial media və döyüş sənətləri – Bu idman növləri müxtəlif platformalar vasitəsilə geniş auditoriyaya təqdim olunur və menecerlər üçün yeni bazar imkanları açır.

1. Müasir dövrdə yapon döyüş sənəti

Döyüş sənətləri idman akademiyalarında və təlim mərkəzlərində xüsusi proqramlar vasitəsilə tətbiq edilir. Bu sistemlər, idmançıların fiziki və psixoloji hazırlığını artırmaq üçün strukturlaşdırılmış idarəetmə modelləri təklif edir. Döyüş sənətlərində istifadə olunan metodlar, idman psixologiyasına və motivasiya üsullarına müsbət təsir göstərir (3, s. 74).

İdman menecmenti müasir dövrdə yalnız fiziki fəaliyyətin təşkili deyil, eyni zamanda strateji planlaşdırma, liderlik, insan resurslarının idarə edilməsi, sponsorluq və brendin inkişafı kimi çoxşaxəli prosesləri özündə birləşdirir. Bu proseslərin effektiv təşkili üçün yalnız Qərb menecment modelləri deyil, eyni zamanda Şərq mədəniyyətinə məxsus sistemlər, xüsusilə də Yapon döyüş incəsənəti (Budo) kimi fəlsəfi əsaslı yanaşmalar ön plana çıxır. Budo sadəcə döyüş texnikaları deyil, əxlaqi və mənəvi prinsiplərlə zəngin bir həyat tərzidir. Bu yanaşma idman menecmentində liderlik, komanda ruhu, davamlı təkmilləşmə və peşəkar davranışın təşəkkülündə mühüm yer tuta bilər.

Yapon döyüş sənətləri – karate, cüdo, aykido, kendo, iaido, kyudo və s. – yüzilliklərə əsaslanan tarixi və mədəni mirasa malikdir. Bu sənətlər yapon samuraylarının etik kodeksindən (Buşido) qaynaqlanır və özündə aşağıdakı əsas prinsipləri birləşdirir:

- *Hörmət və etika* – rəqibə və müəllimə qarşı dərin hörmət duyğusu.
- *Özünə nəzarət və intizam* – hərəkətlərdə və qərarlarda sabitlik.
- *Davamlı inkişaf (**Kaizen**)* – həyat boyu təkmilləşmə fəlsəfəsi.
- Fiziki və mənəvi ahəngin qorunması – balanslı inkişaf.

Bu prinsiplər yalnız idmançılar üçün deyil, onları idarə edən menecerlər üçün də örnək ola bilər. Ənənəvi olaraq döyüş sənətləri müəllim-şagird münasibətləri üzərində qurulduğu üçün, burada rəhbərlik və idarəetmə mədəniyyəti təbii olaraq inkişaf etmişdir.

İdman menecmentində əsas məqsəd təşkilati uğur, performansın optimallaşdırılması və insan potensialının səmərəli idarəsidir. Budo sistemləri bu sahəyə aşağıdakı töhfələri verə bilər:

Budo sənətlərində lider, hər şeydən əvvəl, özünü idarə edə bilən bir nümunədir. Bu model müasir idman menecerləri üçün uyğun bir nümunə təşkil edir. Rəhbərin avtoritetə söykənən, lakin eyni zamanda empatiya və hörmətlə idarə etdiyi strukturlar daha dayanıqlı olur (6, s. 52).

Yapon döyüş sənətləri, xüsusilə kendo və iaido, rəqibin hərəkətini qabaqlamağa və ani qərarlar verməyə əsaslanır. Bu bacarıqlar idman menecmentində strateji planlama və risklərin idarə olunması üçün vacibdir.

Dojo sistemində fərdlər bir komanda kimi məşq edir və hər kəs bir-birinin inkişafına cavabdehdir. Bu anlayış, idman təşkilatlarında əməkdaşlıq mədəniyyətinin yaradıl-

masında effektiv model kimi tətbiq oluna bilər.

Yapon menecment fəlsəfəsi olan "Kaizen" (davamlı təkmilləşmə), "Genchi Genbutsu" (problemin mənbəyinə getmək), "Gemba" (fəaliyyətin baş verdiyi yer) prinsipləri idman sektoruna da uğurla tətbiq edilə bilər:

- *Kaizen:* İdman müəssisələrinin hər səviyyəsində performansın dayanmadan təkmilləşdirilməsi.
- *Hoshin Kanri:* Strateji məqsədlərin aşağıdan yuxarıya doğru yayılması və icra mexanizminin gücləndirilməsi.
- *Nemawashi:* Qərarların qəbul edilməsində iştirakçılıq və razılaşmaya əsaslanan idarəetmə mədəniyyəti.

Yapon döyüş növləri bir çox ölkədə məktəb və universitetlərdə idman fənləri sırasında yer almaqdadır. Azərbaycanda da bu modellərin tətbiqi aşağıdakı formalarda həyata keçirilə bilər:

- Ali təhsil müəssisələrində *"Budo və İdman Menecmenti"* modullarının yaradılması.
- İdman federasiyalarında *Budo* fəlsəfəsinə əsaslanan liderlik təlimləri.
- İdman menecerləri üçün döyüş incəsənətindən ilhamlanan seminar və kurslar.

Bu cür tətbiqlər gənc idmançılarda fiziki inkişafla yanaşı, əxlaqi dəyərləri, intizam və məsuliyyət hissini də gücləndirə bilər. Bir çox beynəlxalq idman təşkilatları (xüsusilə Yaponiyada və Koreyada) döyüş incəsənətinin fəlsəfi əsaslarını idman idarəçiliyi ilə birləşdirən modellər hazırlamışdır. Məsələn:

- Yaponiya Cüdo Federasiyası yalnız yarışlara deyil, həm də sosial layihələrə yönəlmiş idarəetmə prinsipləri ilə tanınır.
- Tokio 2020 Olimpiadası zamanı Budo nümayişləri idmanın sülh və qarşılıqlı hörmət mesajı verdiyini göstərdi.
- Yaponiyada idman rəhbərləri döyüş sənətlərində yetişmiş şəxslər arasından seçilir – bu da sistemə dərinlik qatır.

Azərbaycanda da idman akademiyalarında bu modellərin tətbiqi yeni nəsil menecerlərin daha fərqli və dərin düşüncəli yetişməsinə səbəb ola bilər.

Yapon döyüş incəsənəti öz fəlsəfəsi və mənəvi prinsipləri ilə yalnız fiziki gücə deyil, həm də xarakter formalaşmasına, liderlik tərzlərinə və strateji qərarverməyə mühüm təsir göstərir. Bu xüsusiyyətlər müasir idman menecmentinin ehtiyac duyduğu əsas elementlərlə üst-üstə düşür. Budo əsaslı yanaşmaların idman menecmentinə tətbiqi həm strukturlaşmada, həm də insan resurslarının inkişafında dayanıqlı nəticələr vəd edir. Azərbaycanda bu sistemlərin tətbiqi, həm təhsil, həm də peşəkar idman sahəsində yeni keyfiyyət mərhələsi yarada bilər.

2. Yapon döyüş sənətlərinin qlobal səviyyədə idman menecmentinə təsiri

Yapon döyüş sənətlərinin qlobal səviyyədə idman menecmentinə təsiri nəzərəçarpacaq dərəcədədir. Beynəlxalq Olimpiya Komitəsi və Dünya Karate Federasiyası kimi təşkilatlar yapon döyüş sənətlərinin standartlaşdırılmasına və inkişafına dəstək verir.

Yapon döyüş incəsənəti idman menecmentinə yalnız fiziki təlimlər və turnirlərlə deyil, həm də liderlik, strateji idarəetmə və etik dəyərlər vasitəsilə təsir göstərir. Bu sistemlərin tətbiqi idman sahəsində daha güclü idarəetmə modellərinin formalaşmasına kömək edir və menecerlərin daha effektiv qərarlar verməsinə imkan yaradır. Bu səbəbdən, yapon döyüş incəsənətləri müasir idman menecmenti üçün mühüm bir mənbə kimi qiymətləndirilə bilər.

Yapon döyüş sənətində sistemli təlimlər, dərəcələr (dan, kyu) və rituallar mövcuddur. Bu, idman təşkilatlarının strukturlaşdırılmasına və uzunmüddətli planların qurulmasına nümunə olmuşdur. Yapon döyüş sənətlərində təlimlər əsasən mərhələli şəkildə təş-

kil olunur ki, bu da idman menecmentində inkişaf planlarının qurulmasına kömək edir.

Yapon döyüş sənəti, liderlik keyfiyyətlərini formalaşdırmaq üçün xüsusi metodlar təklif edir. Məşqçilər və idman menecerləri üçün intizamlı və strateji yanaşma formalaşdırmaq, döyüş incəsənətindən gələn bir təsirdir. Döyüş sənətləri komanda ruhunun gücləndirilməsinə kömək edir və idman təşkilatlarının idarə edilməsində kollektiv yanaşmanı önə çəkir. Döyüş sənətləri brendinq və marketinq strategiyaları ilə idman menecmentində fərqli imkanlar yaratmışdır. Beynəlxalq arenada döyüş sənətlərinə marağın artması, sponsorluq və idman tədbirlərinin təşkilinə böyük təsir göstərmişdir. Yaponiyanın beynəlxalq döyüş turnirləri və festivalları idman menecmenti üçün yeni gəlir mənbələri və reklam strategiyaları yaratmışdır.

Döyüş sənəti idmançılar üçün fiziki və zehni hazırlığın eyni dərəcədə əhəmiyyətli olduğunu vurğulayır. Bu yanaşma, müasir idman klublarında və təşkilatlarında da geniş tətbiq olunur. Müasir idman menecerləri yapon döyüş sənətlərindən öyrənilən metodları tətbiq edərək idmançılar üçün motivasiya və performans artırıcı təlimlər hazırlayırlar (5, s. 201).

Yapon döyüş sənətləri idarəetmə modelləri üzərində qurulmuş strukturlaşdırılmış sistemlərə əsaslanır. Bu sistemlərdə iyerarxiya, intizam və peşəkarlıq ön plandadır. Müasir idman menecmentində də yapon idarəetmə modelləri tətbiq edilərək davamlı inkişaf və texnoloji yeniliklər həyata keçirilir (1, s. 47).

Yapon döyüş sənətləri üzrə dünya miqyasında bir çox beynəlxalq turnirlər və təşkilatlar fəaliyyət göstərir. Bunlar arasında Olimpiya Oyunları, Dünya Cüdo Çempionatı, Karate üzrə Dünya Çempionatı və Kendo üzrə beynəlxalq turnirlər xüsusilə seçilir. Bu turnirlər idman menecerləri üçün böyük təcrübə mənbəyi olmaqla yanaşı, idman sahəsində innovativ yanaşmaların tətbiqini də sürətləndirir.

Yapon döyüş incəsənəti idman turizmi sahəsində də böyük rol oynayır. Xüsusilə Yaponiyaya turist axını arasında döyüş sənəti ilə məşğul olmaq və ya bu sahədə dərin biliklər əldə etmək istəyənlərin sayı artır. Bu, idman menecerləri üçün yeni iş imkanları və iqtisadi perspektivlər yaradır.

Müasir dövrdə döyüş incəsənəti idman sahəsində qlobal səviyyədə inkişaf etməkdədir (7, s. 403).

- *Olimpiya oyunlarında döyüş növlərinin rolu:* Cüdo və Karate artıq Olimpiya Oyunlarının rəsmi idman növləri arasındadır.
- *Texnologiyanın inteqrasiyası*: Virtual reallıq və süni intellekt təlim proqramlarına daxil edilərək məşqlərin keyfiyyətini artırır.
- *İdman turizmi və beynəlxalq təşkilatlar:* Yapon döyüş sənətləri üzrə beynəlxalq turnirlərin təşkili iqtisadi və mədəni inkişafı dəstəkləyir.
- *Döyüş sənətləri üzrə menecment kursları:* Dünyada idman menecerləri üçün xüsusi döyüş sənətləri təlim proqramları hazırlanır ki, bu da peşəkar menecerlərin yetişməsinə kömək edir.

Yapon döyüş incəsənəti təkcə bir idman növü deyil, həm də güclü bir menecment sistemi təqdim edir. Onun idarəetmə strukturu, təlim metodları və strateji yanaşmaları müasir idman menecmentinə böyük təsir göstərmişdir. Müasir idman menecmentində Yapon döyüş sənətlərindən istifadə edilməsi, idmançıların fiziki və mənəvi inkişafını dəstəkləməklə yanaşı, idman təşkilatlarının idarə edilməsində də innovativ yanaşmalar yaradır. Gələcəkdə bu sistemin yeni texnologiyalarla inteqrasiyası və beynəlxalq səviyyədə genişlənməsi gözlənilir.

Nəticə

"Yapon döyüş incəsənətinin idman menecmentinə təsiri və inkişafı" mövzusu özündə dərin mədəni, fəlsəfi və funksional elementləri birləşdirərək idmanın idarə olunmasında alternativ yanaşmaların mümkünlüyünü ortaya qoyur. Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, Budo sistemləri yalnız fiziki təlimlərə deyil, həm də mənəvi tərbiyəyə əsaslandığı üçün müasir idman menecmenti üçün güclü fəlsəfi təməl təqdim edir. Yapon döyüş sənətləri əsasında formalaşmış dəyərlər – intizam, hörmət, liderlik, özünüidarə və davamlı inkişaf – bugünkü idman idarəçiliyinin əsas prinsipləri ilə birbaşa əlaqəlidir.

Məlumdur ki, idman menecmenti sahəsində Qərb yönümlü modellər üstünlük təşkil edir. Lakin bu modellərin bəzi hallarda emosional zəiflik, əməkdaşlıq çatışmazlığı və insan faktoruna yetərincə diqqət ayrılmaması kimi problemlərlə üzləşməsi alternativ yanaşmalara ehtiyac yaradır. Bu nöqteyi-nəzərdən Yapon döyüş sənətlərindəki "Kaizen", "Do", "Buşido" və digər fəlsəfi anlayışlar yeni bir idarəetmə mədəniyyətinin formalaşdırılması üçün baza rolunu oynaya bilər.

Yapon döyüş incəsənətində liderlik təkcə göstəriş vermək deyil, həm də nümunə olmaqdır. Bu yanaşma, xüsusilə komanda idarəetməsində və gənc idmançıların yetişdirilməsində effektiv nəticələr verir. Budo sistemi idarəçi və idmançının qarşılıqlı hörmət üzərində qurulmuş əlaqəsini təşviq edir. Bu da uzunmüddətli motivasiya və kollektiv bağlılıq yaradır.

Bununla yanaşı, yapon döyüş incəsənətinin texniki yanaşmaları – sürətli və strateji qərarvermə, rəqibin psixologiyasını analiz etmə, ahəngdar hərəkət və sistemli məşqlər – müasir idman təşkilatlarında menecerlər üçün effektiv qərar mexanizmlərinin qurulmasında əvəzsiz alətlər təqdim edir.

İnkişaf baxımından isə Budo fəlsəfəsinin idman menecmentinə inteqrasiyası hələ ki, dünya miqyasında yeni və tədqiqat tələb edən istiqamətlərdəndir. Lakin artıq bir çox ölkələrdə bu inteqrasiya prosesi başlamış və müsbət nəticələr verməkdədir. Azərbaycanda da bu modelin tətbiqi üçün münbit zəmin mövcuddur. İdman Akademiyalarında və federasiyalarda bu fəlsəfi yanaşmanın modullar şəklində tətbiqi, həm təhsil alan tələbələrin, həm də işləyən idman menecerlərinin intellektual və əxlaqi baxımdan daha çevik və şəxsiyyət yönümlü şəkildə formalaşmasına səbəb ola bilər.

Nəticə olaraq, yapon döyüş incəsənəti yalnız keçmişin estetik mirası deyil, eyni zamanda gələcəyin müasir idman menecmentində tətbiq oluna biləcək çevik, dayanıqlı və insan mərkəzli idarəetmə modelidir. Bu modelin Azərbaycan idman sistemində də tətbiqi, ölkənin beynəlxalq idman nüfuzunun artmasına, daha etik və məsuliyyətli idman mühitinin formalaşmasına şərait yarada bilər. Gələcəkdə bu istiqamətdə aparılacaq praktiki təcrübələr və tədqiqatlar, Budo fəlsəfəsinin yerli idman menecmentinə təsirini daha dərindən təhlil etməyə imkan verəcəkdir.

Bu mövzu üzrə araşdırmalar davam etdirildikcə, yapon döyüş incəsənətinin idman menecmentindəki rolu daha da dərindən öyrəniləcəkdir.

ƏDƏBİYYAT

1. Bennett A. Kendo: Culture of the Sword. Berkeley: University of California Press, 2015, 804 p.
2. Chan K.W., & Ryba T.V. Cultural Sport Psychology. Champaign: Human Kinetics, 2020, 355 p.
3. Göransson A. Judo, Nation Branding, and Soft Power: Japan's Global Strategy Through Sport//. Asian Journal of Sport History & Culture, 2018, 5(2), pp.101-123.
4. International Journal of Martial Arts. Organizational practices in Japanese, (2016-2024),

403 p.
5. Budo federations: Martial arts as a model for sport leadership. "Martial Arts Studies" (Cardiff University Press). 2025, 5 (1), pp. 43-61.
6. Krug G. The commercialization of traditional martial arts: Globalization and cultural identity // The International Journal of the History of Sport, 2017, 34(15), pp.1610-1628
7. Moenig U. Taekwondo: From a martial art to a martial sport // Routledge, 2015, pp.214-305.

Резюме

Назрин Адилова

Влияние японского боевого искусства на спортивный менеджмент и его развитие

Японское боевое искусство развивает не только физические навыки, но и оказывает значительное влияние на ключевые элементы спортивного менеджмента – лидерство, стратегическое управление, мотивацию и командную координацию. В основе этого искусства лежит кодекс Бусидо – этическая система поведения самураев, включающая такие принципы, как дисциплина, честь, верность и ответственность. Эти ценности служат вдохновляющей моделью для современных спортивных управленцев, формируя структурированный и ценностно-ориентированный стиль управления.

Боевые искусства Японии также способствуют более гибкому и целенаправленному формированию организационной структуры спортивных клубов, федераций и академий. В такой системе лидерство рассматривается не только как должность, но и как личный пример, стремление к постоянному развитию и принятие этически обоснованных решений. Для спортивных менеджеров это помогает развивать стратегическое мышление и эффективную коммуникацию внутри команды.

Другой важный аспект японских боевых искусств – это их влияние на спортивный маркетинг и брендинг. Визуальная привлекательность, ритуалы и философия боевых искусств делают их коммерчески востребованными. Международные турниры, телевизионные трансляции, спонсорские соглашения и продажа брендированной продукции превращают боевые искусства в неотъемлемую часть глобальной спортивной индустрии. Это создает возможности для внедрения инновационных маркетинговых стратегий.

Японские боевые искусства укрепляют не только физическую, но и психологическую подготовку спортсменов. Ценности, применяемые в тренировочном процессе – внимание, терпение, самоконтроль – способствуют не только улучшению спортивных результатов, но и личностному росту. В результате управленческие модели, основанные на боевых искусствах, способствуют формированию ответственных, целеустремленных и этичных лидеров в сфере спорта.

Ключевые слова: *японские боевые искусства, спортивный менеджмент, стратегическое управление, лидерство, спортивный маркетинг*

Summary

Nezrin Edilova

The İmpact of Japanese Martial Arts on Sports Management and its Development

Japanese martial arts not only develop physical abilities but also have a significant influence on key aspects of sports management – such as leadership, strategic planning, motivation, and team coordination. At the core of this discipline lies the Bushido code, an ethical system of conduct practiced by samurai, which emphasizes values such as discipline, honor, loyalty, and responsibility. These principles serve as an inspiring model for modern sports managers, fostering a structured and value-based management approach.

Japanese martial arts also contribute to the flexible and goal-oriented organization of sports clubs, federations, and academies. In this system, leadership is not merely a position but a responsibility rooted in setting an example, striving for continuous development, and making ethically grounded decisions. For sports managers, this helps cultivate strategic thinking and effective communication within teams.

Another vital aspect of Japanese martial arts is their impact on sports marketing and branding. The visual appeal, rituals, and philosophy associated with martial arts make them commercially attractive. International tournaments, television broadcasts, sponsorship agreements, and merchandise sales have turned martial arts into an integral part of the global sports industry. This creates opportunities for sports ma-

nagers to design innovative marketing strategies.

Japanese martial arts strengthen not only athletes' physical fitness but also their psychological preparedness. Core values practiced during training – such as focus, patience, and self-control – not only enhance performance but also contribute to personal development. Management models inspired by martial arts support the growth of responsible, goal-driven, and ethical leaders in the world of sports.

Key words: *Japanese martial arts, sports management, strategic management, leadership, sports marketing.*

Redaksiya heyətinin üzvü İ.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 379.85

THE ROLE OF COMMUNITY-BASED TOURISM FOR EMPOWERING RURAL AZERBAIJANI YOUTH AND WOMEN THROUGH TOURISM ENTREPRENEURSHIP

Simran HAJALIYEV*

Məqalə redaksiyaya daxil olmuşdur: 16 sentyabr 2025; çapa qəbul edilmişdir: 22 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Kommunikasiya effektivliyinin idarəetmə proseslərinə təsiri

№	İdarəetmə prosesləri	Təsir imkanları
1.	**Qərarların keyfiyyəti**	Menecerlərin qərar qəbul etmə prosesində informasiya dəqiqliyinin yüksəlməsi strateji səhvlərin ehtimalını azaldır.
2.	**Əməliyyatların koordinasiyası**	Kommunikasiya axınları bölmələr arasında qarşılıqlı asılılıqları optimallaşdırır və proseslərin sinerji ilə işləməsinə şərait yaradır.
3.	**Rəhbərlik və motivasiya**	Səmərəli kommunikasiya işçilərin motivasiyasını 30-40% artırır və təşkilati vətəndaşlıq davranışını gücləndirir.

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Təşkilati mədəniyyətin formalaşdırılmasında kommunikasiya əsas rol oynayır. Belə ki, kommunikasiya effektivliyi təşkilati mədəniyyətin əsas formalaşdırıcı komponentlərindən biridir. Şayn (Schein) qeyd edir ki, təşkilat daxilində paylaşılan dəyərlər, inanclar və normativ davranışlar əsasən kommunikasiya vasitəsilə ötürülür. Açıq, şəffaf və iki istiqamətli kommunikasiya kanalları əməkdaşlar arasında etimadı gücləndirir, təşkilatın sosial kapitalını artırır və əməkdaşların müəssisəyə bağlılığını yüksəldir. Beləliklə, kommunikasiya yalnız əməliyyat aləti deyil, həm də təşkilatın sosial memarlığının qurulması üçün mühüm mexanizmdir.

Strateji idarəetmə mühitində kommunikasiya effektivliyi təşkilatın uzunmüddətli məqsədlərinin bütün struktur bölmələri tərəfindən anlaşılması və mənimsənilməsi üçün əsas şərtdir. Kaplan və Nortonun "Balanced Scorecard" modelinə görə, strategiyanın uğurlu icra səviyyəsinə çatması üçün onun düzgün kommunikasiya olunması ən vacib determinantdır.

Strateji kommunikasiya aşağıdakı nəticələri təmin edir:

- Məqsəd uyğunsuzluğunun aradan qaldırılması: İşçi və bölmə məqsədlərinin korporativ strategiya ilə uyğunlaşdırılması təşkilati performansı yüksəldir.
- Dəyişikliklərin idarə edilməsi: Kotter qeyd edir ki, dəyişiklik təşəbbüslərinin 70%-ə yaxını zəif kommunikasiya səbəbilə uğursuz olur.
- Təşkilati çevikliyin artırılması: Sürətli informasiya ötürülməsi dəyişən bazar və risk şəraitinə adaptasiyanı asanlaşdırır.

Müasir idarəetmə nəzəriyyələri (xüsusilə Agentlik nəzəriyyəsi) informasiya asimmetriyasının təşkilati səmərəliliyi azaltdığını vurğulayır [4, s. 305]. Kommunikasiya ef-

fektivliyi menecer-agent münasibətlərində şəffaflığı artırır, kənar təsirləri və anlaşılmazlıqları minimuma endirir və hesabatlılıq mexanizmlərini möhkəmləndirir. Bu isə təşkilatın həm daxili idarəetmə standartlarını, həm də xarici reputasiyasını yüksəldir.

İnsan resurslarının idarəçiliyində kommunikasiya işə qəbul, təlim-tədris, performansın qiymətləndirilməsi və təşviq sistemlərinin mərkəzi komponentidir. Səmərəli kommunikasiya:

- əməkdaşların performans gözləntilərini daha aydın edir,
- geribildirim mexanizmlərini optimallaşdırır,
- eləcə də işçi məmnuniyyətini və komanda sinerjisini artırır.

Araşdırmalar göstərir ki, effektiv kommunikasiya tətbiq olunan müəssisələrdə işçi dövriyyəsi orta hesabla 25-30% daha aşağı olur.

Kommunikasiya effektivliyi idarəetmə sisteminin bütün mərhələlərində – strateji planlaşdırmadan əməliyyat nəzarətinə, liderlikdən təşkilati mədəniyyətin formalaşdırılmasına qədər olan proseslərdə həlledici rol oynayır. Səmərəli kommunikasiya olmadan idarəetmə prosesləri fragmentasiya olunur, qərarların dəqiqliyi azalır, təşkilati sinerji zəifləyir və ümumi performans aşağı düşür. Buna görə də müasir idarəetmə nəzəriyyəsi kommunikasiya effektivliyini təşkilatların rəqabətqabiliyyətinin və adaptivliyinin əsas indikatorlarından biri kimi qiymətləndirir.

3. Kommunikasiya effektivliyinin artırılmasında sistemli yanaşmanın rolu

Müasir idarəetmə nəzəriyyəsində kommunikasiya effektivliyinin artırılması yalnız texniki və ya psixoloji proseslərin yaxşılaşdırılması ilə məhdudlaşmır; bu proses təşkilatın bütün alt-sistemləri arasında qarşılıqlı əlaqələrin koordinasiyasını, informasiya axınlarının optimallaşdırılmasını və kompleks idarəetmə modelinin formalaşdırılmasını tələb edir. Bu mənada sistemli yanaşma kommunikasiya effektivliyinin artırılmasının mərkəzi metodoloji bazasını təşkil edir.

Sistem nəzəriyyəsinin klassik müəlliflərinə görə, təşkilat bir-biri ilə qarşılıqlı əlaqədə olan struktur və funksional alt-sistemlərdən ibarət dinamik bir bütövdür [5, s. 447]. Bu kontekstdə kommunikasiya:

- alt-sistemlərarası rabitə kanalı,
- informasiyanın transformasiyası və yayılması mexanizmi,
- təşkilati davranışın koordinasiya aləti kimi çıxış edir.

Sistemli yanaşmada kommunikasiya təkcə məlumat ötürən proses deyil, həm də təşkilatın özünü-tənzimləmə və özünü-müxtəlifləşdirmə (self-regulation & differentiation) qabiliyyətlərini təmin edən əsas funksional elementdir.

Sistemli yanaşma kommunikasiya effektivliyini artırmaq üçün informasiya axınlarının strukturlaşdırılmasını zəruri sayır. Araşdırmalar göstərir ki, təşkilatlarda informasiya işlənməsinin 60%-ə qədəri strukturlaşdırılmamış və koordinasiya olunmamış formal və qeyri-formal axınlarda baş verir [2, s. 554].

Sistemli yanaşma aşağıdakıları təmin edir:

- İnformasiya axınlarının xəritələşdirilməsi (mapping): Hər bir bölmə və funksional alt-sistem üzrə əsas mesajların, qərar nöqtələrinin və kommunikasiya kanallarının identifikasiyası.
- Gecikmə və itki mənbələrinin aşkarlanması: Aralıq həlqələrdə yaranan informasiya boşluqlarının (information gaps) və təhriflərin aradan qaldırılması.
- İnformasiya asimmetriyasının minimumlaşdırılması: Menecerlər və işçilər arasında məlumat balansının bərpası.

Bu çərçivə kommunikasiya zəncirində "tək nöqtəli uğursuzluq" (single point of failure) risklərini azaldır və proses çevikliyini artırır.

Qərarların icra mərhələsində kommunikasiya ən kritik rolunu oynayır. Sistemli ya-

naşma bu mərhələdə:

- struktur bölmələri arasında funksional əlaqələrin aydınlaşdırılmasını,
- geri əlaqə (feedback) mexanizmlərinin gücləndirilməsini,
- həmçinin icra mərhələsinin monitorinqini təmin edən məlumat dövriyyəsinin səmərələşdirilməsini mümkün edir.

Mintzberqin təşkilati quruluş modeli göstərir ki, mürəkkəb təşkilatlarda alt-sistemlər arasında koordinasiya yalnız sistem yanaşması ilə optimallaşdırıla bilər. Bu isə kommunikasiya prosesində həm vertikal, həm də horizontal əlaqə kanallarının sinxronlaşdırılmasını tələb edir.

Sistem yanaşmasına görə təşkilat yalnız texniki sistem deyil, həm də sosial sistemdir. Bu səbəbdən effektiv kommunikasiya təşkilati mədəniyyətin struktur elementləri ilə sıx bağlıdır. Sistemli yanaşma:

- açıq kommunikasiya əlaqələrini artırır;
- əməkdaşlar arasında etimadın qurulmasını təşviq edir;
- sosial-psixoloji risklərin azaldılması üçün kollektiv öyrənmə mühitini inkişaf etdirir.

Bu da uzunmüddətli kommunikasiya effektivliyinin təmin olunması üçün kritik amildir.

Strateji transformasiya, innovasiya və dəyişikliklərin idarə edilməsi kimi mürəkkəb proseslərdə sistemli yanaşma kommunikasiya effektivliyinin əsas təminatçısıdır. Kotterin dəyişiklik modeli göstərir ki, strateji təşəbbüslərin uğur səviyyəsi 70%-dən çox hallarda zəif kommunikasiya və sistemsizlik səbəbilə aşağı düşür. Sistemli yanaşma strateji kommunikasiya prosesində:

- məqsədlərin bütün səviyyələr üzrə sinxronlaşmasını,
- qərarların translyasiyasının (top-down & bottom-up) aydın strukturda təşkilini,
- dəyişiklik müqavimətinin azaldılmasını təmin edir və transformasiya proseslərinin effektivliyini yüksəldir.

Rəqəmsal kommunikasiya texnologiyalarının təşkilatlara inteqrasiyası sistemli yanaşmanın əhəmiyyətini daha da artırmışdır. Rəqəmsal platformalar (ERP, CRM, BPM sistemləri) sistem yanaşmasının prinsiplərini reallaşdıraraq: məlumatların vahid mərkəzdə toplanmasını, real vaxtda monitorinqi, qərarların sürətli icrasını və proseslərarası inteqrasiyanı mümkün edir. Araşdırmalara görə, rəqəmsal sistemləşdirilmiş kommunikasiya tətbiq edən müəssisələrdə məhsuldarlıq 20-25%, qərar qəbul etmə sürəti isə 35-40% artır.

Kommunikasiya effektivliyinin artırılmasında sistemli yanaşma idarəetmənin bütün funksional sahələrində – strukturlaşdırma, koordinasiya, informasiya axınlarının optimallaşdırılması, strateji planlaşdırma və dəyişikliklərin idarə edilməsi proseslərində həlledici rol oynayır. Sistem yanaşması kommunikasiya proseslərini təsadüfi və fragmentar fəaliyyətlərdən çıxarıb bütöv, inteqrasiya olunmuş və adaptiv idarəetmə mexanizminə çevirir. Bu isə təşkilatın rəqabətqabiliyyətini, çevikliyini və uzunmüddətli davamlılığını təmin edən əsas faktorlardan biridir.

4. Kommunikasiya prosesində ortaya çıxan əsas problemlər və strategiyalar

Kommunikasiya təşkilati fəaliyyətin mərkəzi komponenti olmaqla, informasiyanın ötürülməsi, qəbul edilməsi və interpretasiyası proseslərindən ibarət kompleks sosial-psixoloji mexanizmdir. Bu mexanizmin effektivliyi bir çox daxili və xarici amillərdən asılı olduğu üçün proses zamanı müxtəlif maneələr yaranır. Elmi ədəbiyyatlarda bu problemlər əsasən texniki, semantik, psixoloji, sosial, struktur və mənəvi-emosional qəliblərdə təsnifləndirilir (Sxem 1).

1. Texniki və kanalla bağlı problemlər

Bu kateqoriya informasiyanın ötürülməsi üçün istifadə olunan vasitələrin, infrastrukturun və fiziki şərtlərin yaratdığı məhdudiyyətləri əhatə edir:

- Kanalın yüklənməsi (overload): İri təşkilatlarda gündəlik olaraq qəbul edilən mesajların çoxluğu informasiyanın emalını çətinləşdirir, mesajların gözdən qaçmasına səbəb olur, işçilərin informasiya yükünün artması qərar qəbul etmə prosesini yavaşıdır.
- Texnoloji uyğunsuzluq: Eyni platformadan istifadə edilməməsi və rəqəmsal ekosistemlərin uyğunsuzluğu məlumatların itirilməsi və çatdırılmamasına səbəb olur.
- Səs-küy və fiziki maneələr: Ətraf mühitdəki fiziki maneələr, zəif akustika, internet yavaşlığı və bağlantı problemləri informasiyanın təhrifinə səbəb olur.

2. Semantik problemlər

Semantik maneələr kommunikasiya iştirakçılarının eyni simvol və ifadələri fərqli şəkildə anlaması nəticəsində yaranır:

- Terminoloji uyğunsuzluq: Texniki jarqon və çoxmənalı ifadələr informasiyanın düzgün şərh olunmasını çətinləşdirir. Fərqli mədəni və dil mühitindən olan işçilər arasında anlam boşluqları daha çox müşahidə olunur.
- Qavrayış boşluqları: Mesajı göndərənin niyyəti ilə alıcının qavrayışı arasında uyğunsuzluq yarandıqda yanlış anlamlar meydana çıxır.
- Emosional məna yüklü sözlər və qeyri-dəqiq ifadələr əlavə təhrif yaradır.

3. Psixoloji maneələr

Psixoloji baryerlər fərdi qavrayış, emosional vəziyyət, təcrübə və şəxsiyyət xüsusiyyətlərinin yaratdığı problemlərdir:

- Seçici qavrayış (Selective Perception): Fərd məlumatı obyektiv deyil, mövcud inancları prizmasından qəbul etdiyi üçün mesajın təhrif olunması ehtimalı artır. Şəxslər yalnız öz mövqelərinə uyğun məlumatı qəbul edir, digər hissələri isə nəzərdən qaçırırlar.
- Emosional vəziyyət: Stress, həyəcan, motivasiya çatışmazlığı və ya münaqişələr kommunikasiya qavrayışını zəiflədir.

Sxem 1.

Kommunikasiya prosesində əsas problemlər



Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

4. Sosial-mədəni problemlər

Fərqliliklərin idarə edilməməsi kommunikasiya prosesində ciddi uyğunsuzluqlar yaradır. Mədəni kodlar, jestlər, danışıq tərzi və şəxsiyyətlərarası məsafə (proxemics) ehtimal olunan təhriflərin əsas mənbəyidir. Təşkilat daxilində status iyerarxiyası aşağı səviyyəli əməkdaşların fikir paylaşmasına maneə yarada bilər. "Rəhbər qorxusu" səbəbindən məlumatın gizlədilməsi və ya yumşaldılması müşahidə olunur.

5. Struktur və təşkilati problemlər

Bu problemlər təşkilatın daxili strukturu və informasiya axınlarının dizaynındakı nöqsanlardan qaynaqlanır:

Uzun kommunikasiya zənciri: Uzun komanda zəncirində mesajların yol boyu təhrif olunması riski yüksəlir. Gecikmələr informasiya əsaslı qərar qəbulunu çətinləşdirir.

Bölmələrarası maneələr: Bölmələrarası kooperasiya olmadığı hallarda informasiya sındırılır, təkrarlanır və ya bloklanır.

Qaydaların olmaması: Rəsmi qaydalar, standart prosedurlar və kommunikasiya protokolları olmadıqda informasiya axını xaotik xarakter alır.

6. Etik və emosional problemlər

- Etimadın çatışmazlığı: Məlumatın məqsədli olaraq gizlədilməsi və ya qeyri-şəffaflıq işçilərdə etimadın azalmasına səbəb olur. Komanda daxilində qarşılıqlı güvən olmadıqda mesajların doğruluğu və motivi şübhə altına alınır.
- Münaqişələr və emosional filtr: Münaqişələr kommunikasiya keyfiyyətini ciddi şəkildə aşağı salır, emosional filtr yaranır.

Kommunikasiya prosesində yaranan problemlər çoxsəviyyəli və çoxmənbəlidir; onlar həm texnoloji və struktur, həm də psixoloji və mədəni əsaslara malikdir. Bu problemlərin aradan qaldırılması üçün sistemli yanaşma, aydın kommunikasiya standartları, rəqəmsal texnologiyaların inteqrasiyası və sosial-psixoloji mühitin optimallaşdırılması tələb olunur. İdarəetmədə effektiv kommunikasiya yalnız məlumatın ötürülməsi deyil, həm də onun düzgün qavranması və dəyərləndirilməsi proseslərinin bütöv şəkildə idarə olunmasını nəzərdə tutur.

5. Effektiv kommunikasiya strategiyaları

Effektiv kommunikasiya sistemi təşkilat daxilində qarşılıqlı anlaşmanı, qərarların keyfiyyətini və əməkdaşlıq səviyyəsini artırmaq baxımından strateji əhəmiyyət daşıyır. Bunu təmin etmək üçün təşkilatlar çoxsəviyyəli, inteqrativ və davamlı təkmilləşməyə əsaslanan kommunikasiya strategiyaları formalaşdırmalıdır. Aşağıdakı strategiyalar müasir idarəetmə təcrübələrinə uyğun olaraq sistemləşdirilmişdir:

Kommunikasiya infrastrukturunun optimallaşdırılması:

- ✓ Rəqəmsal kommunikasiya vasitələrinin (*ERP, CRM, Slack, Teams* və s.) vahid sistem altında birləşdirilməsi.
- ✓ Operativ məlumat mübadiləsini təmin edən *real-time* texnologiyaların tətbiqi.
- ✓ İş prosesləri üzrə kommunikasiya protokollarının hazırlanması.
- ✓ Mesajların formatı, müddəti və cavab qaydalarının normativləşdirilməsi.

İnsan faktoruna əsaslanan kommunikasiya strategiyaları:

- ✓ İşçilərə ünsiyyət, aktiv dinləmə, konflikt idarəetməsi üzrə təlimlərin keçirilməsi.
- ✓ Menecerlər üçün liderlik və empatiya mərkəzli kommunikasiya proqramları.
- ✓ Emosional mühitin (EQ) ölçülməsi.
- ✓ Komandadaxili sosial-psixoloji mühitin yaxşılaşdırılması.

Təşkilati strukturda kommunikasiya kanallarının optimallaşdırılması:

- ✓ Formal hesabat kanallarının gücləndirilməsi.

- ✓ Qeyri-formal kommunikasiya mühitinin (komanda görüşləri, sosial tədbirlər) stimullaşdırılması.
- ✓ Şaquli (menecer–işçi) əlaqələrin şəffaflaşdırılması.
- ✓ Üfüqi əlaqələrin (bölmələrarası əməkdaşlıq) prosedur əsaslı yenidən qurulması.

Kommunikasiya mədəniyyətinin formalaşdırılması:

- ✓ İnformasiyanın gizlədilməsinin qarşısının alınması.
- ✓ Şəffaf qərarvermə platformalarının qurulması.
- ✓ Təşkilatın missiya və vizionunun gündəlik kommunikasiya davranışlarına inteqrasiya edilməsi.
- ✓ Etik davranış kodeksinin tətbiqi.

Rəhbərlik səviyyəsində kommunikasiya strategiyası:

- ✓ Menecerlərin ünsiyyətdə nümunəvi davranış göstərməsi.
- ✓ Liderlik üslubunun təşkilati kommunikasiya ilə uyğunlaşdırılması.
- ✓ İllik kommunikasiya strategiyasının hazırlanması.
- ✓ Risklərin və səhv anlaşılma ehtimallarının qabaqcadan qiymətləndirilməsi.

Rəqəmsal kommunikasiya təhlükəsizliyi və məlumat idarəetməsi:

- ✓ Kibertəhlükəsizliyin gücləndirilməsi.
- ✓ Məxfi məlumatların mühafizəsi üzrə mexanizmlərin tətbiqi.
- ✓ Fake-news, təhrif edilmiş məlumat və yanlış şərhlərin qarşısının alınması.
- ✓ Məlumat mənbələrinin təsdiq mexanizmi.

Effektiv kommunikasiya göstəricilərinin (KPI) müəyyən edilməsi:

- ✓ Cavab müddəti, informasiya axınının sürəti, iclasların effektivliyi kimi KPI-lar.
- ✓ İşçi məmnunluğu və komanda əlaqələrinə dair sorğular.
- ✓ Rüblük və illik analizlər.
- ✓ Geribildirimin əsasında kommunikasiya sisteminin adaptiv şəkildə yenilənməsi.

Geri bildirim mexanizmlərinin gücləndirilməsi:

- ✓ Menecer – işçi arasında aktiv və qarşılıqlı əlaqənin təşviqi.
- ✓ Açıq qapı siyasəti.
- ✓ İşçilərin sərbəst fikir bildirməsinə şərait yaradılması.
- ✓ Kritik düşüncə və konstruktiv müzakirə mədəniyyətinin formalaşdırılması.

Effektiv kommunikasiya sistemi yalnız texniki və təşkilati yeniliklərlə deyil, eyni zamanda insan davranışı, idarəetmə mədəniyyəti və rəqəmsal infrastrukturun harmonik şəkildə inteqrasiyası ilə qurulur. Bu strategiyaların kompleks tətbiqi idarəetmədə şəffaflığı artırır, qərarvermənin sürətini və keyfiyyətini yüksəldir, təşkilati məqsədlərə çatma prosesini optimallaşdırır.

Nəticə

İdarəetmə prosesində kommunikasiya effektivliyi təşkilatın strateji məqsədlərinə çatma səviyyəsinə, qərarvermə mexanizmlərinin keyfiyyətinə, insan resurslarının fəaliyyətinə və ümumi təşkilati performansa birbaşa təsir edən əsas determinantlardan biridir. Tədqiqat göstərir ki, kommunikasiya sisteminin effektivliyi yalnız ayrı-ayrı elementlərin təkmilləşdirilməsi ilə deyil, sistemli yanaşma çərçivəsində infrastruktur, insan amili, təşkilati mədəniyyət və texnoloji platformaların qarşılıqlı inteqrasiyası ilə təmin olunur.

Sistemli yanaşma təşkilatın kommunikasiya axınlarının strukturunu, funksiyalarını və qarşılıqlı əlaqələrini bütöv şəkildə qiymətləndirərək, informasiya mübadiləsində gecikmə, təhrif, emosional maneələr, koordinasiya boşluqları və rəhbərliyin zəif kommunikasiya üslubu kimi problemlərin əsas səbəblərini müəyyənləşdirməyə imkan verir.

Kommunikasiya effektivliyinin yüksəldilməsi təşkilatda məhsuldarlığın, əməkdaşlığın və innovativ fəaliyyətin güclənməsi üçün strateji zərurət kimi qiymətləndirilir.

Təklif olunan strategiya və mexanizmlər göstərir ki, idarəetmədə kommunikasiya effektivliyinin artırılması yalnız texniki və prosedur dəyişikliklərlə deyil, həm də insan davranışı, liderlik üslubu, təşkilati mədəniyyət və rəqəmsal transformasiya ilə sıx bağlıdır. Sistemli yanaşma bu elementlərin kompleks şəkildə tətbiqini təmin edərək, təşkilatın kommunikasiya performansını yüksəldir və ümumi idarəetmə keyfiyyətinin yaxşılaşmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. Brennecke J. Formal and informal communication networks: Implications for organizational efficiency//. Journal of Organizational Studies, 42(3), 2025, pp. 210–227. (https://doi.org/10.1111/joms.13076).
2. Daft R., & Lengel R. Organizational information requirements, media richness and structural design // Management Science, 32(5), 1986, pp. 554–571.
3. Ghaffarzadegan N., Majumdar S., Williams B., & Hosseinichimeh N. Agent-based modeling of organizational communication: Dynamics of conformity and network efficiency // Complexity, 2023, pp.1-14. (https://arxiv.org/abs/2309.11456).
4. Jensen M. C. & Meckling W. H. Theory of the firm: Managerial behavior, agency costs and ownership structure // Journal of Financial Economics, 3(4), 1976, pp. 305-360.
5. Kast F. E. & Rosenzweig J. E. General systems theory: Applications for organization and management // Academy of Management Journal, 15(4), 1972, pp. 447-465.
6. Maurer S., Bach M. & Oertel S. Changes in formal structure towards self-managing organizations and their effects on intra-organizational communication networks//. ResearchGate Preprint. 2023, pp. 325-346. (https://www.researchgate.net/publication/374026868).
7. Whetsell T., Kroll A. & DeHart-Davis L. Formal structure and informal communication networks in public organizations: An ERGM approach. Journal of Public Administration Research and Theory, 31(4), 2021, pp. 653-671. (https://doi.org/10.1093/jopart/muab027).

Резюме

Шафаг Гайибова

Системный подход к повышению эффективности коммуникации в процессе управления

В статье рассматриваются теоретико-методологические основы и возможности практического применения системного подхода к проблеме повышения эффективности коммуникации в процессе управления. Коммуникация выступает определяющим элементом функциональной структуры управления и формирует эффективность таких процессов, как принятие решений, координация, контроль, мотивация и реализация организационных изменений. Целью исследования является анализ функций управления коммуникационными потоками, их взаимодействия с принятием решений, координацией, контролем, мотивацией и организационными изменениями на основе системной теории, эконометрики и современных моделей организационных коммуникаций. В данной статье системный подход применяется к проблеме повышения эффективности коммуникации, интегрируя теории управления – теорию систем, кибернетику, модель открытых систем, теории коммуникации и концепции организационного поведения. В статье всесторонне оцениваются структурные и функциональные элементы системы коммуникации, проблемы шумов и искажений при обмене информацией, а также психологические, социальные и технологические барьеры. Исследование показывает, что повышение эффективности коммуникации не ограничивается совершенствованием механизмов передачи информации; этот процесс требует комплексного подхода, включающего структурирование, лидерство, организационную культуру, цифровую интеграцию и институционализацию механизмов обратной связи на всех уровнях организации. Согласно результатам, эффективная система коммуникации повышает гибкость управления, улучшает качество принятия решений, усиливает координацию и развивает инновационную адаптивность организации. В

статье делается вывод о том, что модель коммуникации, основанная на системном подходе, имеет стратегическое значение для современного менеджмента и является одним из основных компонентов, обеспечивающих долгосрочную устойчивость организационной эффективности. Проблематика темы исследования полностью проработана, представлен и проанализирован необходимый блок данных для каждой из поставленных задач, сделаны соответствующие выводы. Правильное проектирование информационных потоков в структуре организации, интеграция цифровых систем коммуникации и устранение психосоциальных барьеров повышают гибкость и адаптивность управления. Коммуникация – это не только механический процесс, но и многомерная система, играющая стратегическую роль в формировании организационной культуры, лидерства и коллективного поведения.

Ключевые слова: *эффективность коммуникации, процессы управления, системный подход, информационные потоки, организационная коммуникация, механизмы обратной связи, принятие решений, цифровая коммуникация, организационная адаптация*

Summary

Shafaq Qayibova

A Systematic Approach to Increasing Communication Efficiency in the Management Process

The article examines the theoretical and methodological foundations and practical application possibilities of a systematic approach to the issue of increasing communication efficiency in the management process. Communication acts as a determining element for the functional structure of management and forms the efficiency of processes such as decision-making, coordination, control, motivation and implementation of organizational changes. The purpose of the study is to analyze the management functions of communication flows, their interaction with decision-making, coordination, control, motivation and organizational changes on the basis of system theory, econometrics and modern organizational communication models. In this article, a systematic approach is applied to the problem of increasing communication efficiency, integrating management theories - system theory, cybernetics, open system model, communication theories and organizational behavior concepts. The article comprehensively assesses the structural and functional elements of the communication system, the problems of noise and distortion in information exchange, as well as psychological, social and technological barriers. The study shows that increasing communication effectiveness is not limited to improving information transfer mechanisms; this process requires a comprehensive approach, such as structuring, leadership, organizational culture, digital integration and institutionalization of feedback mechanisms at all levels of the organization. According to the results, an effective communication system increases the flexibility of management, improves the quality of decision-making, strengthens coordination and develops the innovative adaptability of the organization. The article concludes that a communication model based on a systematic approach is of strategic importance for modern management and is one of the main components ensuring the long-term sustainability of organizational performance. The problems of the research topic have been fully developed, the necessary data block for each of the tasks set has been presented and analyzed, and the corresponding conclusions have been drawn. Proper design of information flows in the structure of the organization, integration of digital communication systems and removal of psychosocial barriers increase the flexibility and adaptability of management. Communication is not only a mechanical process, but also a multidimensional system that plays a strategic role in the formation of organizational culture, leadership and collective behavior.

Keywords: *communication effectiveness, management processes, systematic approach, information flows, organizational communication, feedback mechanisms, decision-making, digital communication, organizational adaptation*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

BİZİM MÜƏLLİFLƏR

ABDIYEVA Pərvanə
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: pervanaabdiyeva@yahoo.com

ABDULRƏSULOVA Gülsurə
doktorant, Bakı Avrasiya Universiteti
e-mail: a.gulsure@gmail.com

CƏFƏROVA Validə
Ph.D. candidate at the Department of Social Work Organization, Azerbaijan University
e-mail: sharifovavalida@gmail.com

ƏDİLOVA Nəzrin
magistrant, Bakı Biznes Universiteti
e-mail: nazrinadil251@gmail.com

HACIƏLİYEV Simnar
Ph.D. Candidate, Azerbaijan Tourism and Management
University Lecturer, Azerbaijan Tourism and Management University
e-mail: simranhajaliyev@gmail.com

HANG Qu
Baku State University, Department of social work
e-mail: 1018602664@qq.com
ORCID: https://orcid.org/0009-0004-5479-0500

İSGƏNDƏROV Hacı
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: isgandar12@gmail.com

İSMAYILOVA Mələkxanım
doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
e-mail: melekxanim22@mail.ru

KƏRİMLİ Aynur
doktorant, Bakı Dövlət Universiteti
e-mail: aynurkarimli0@gmail.com

QARAXANOVA Ayşən
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: aysenqaraxanova7@gmail.com

QAYIBOVA Şəfəq
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: qayibovasefeq@gmail.com

NAĞIYEVA Aydan
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: nagiyeva.99@inbox.ru

NAĞIZADƏ Zeynəb
magistrant, Bakı Avrasiya Universiteti
e-mail: zeynebnaghizade@gmail.com

NƏSİROVA Yaxşıxanım
tarix üzrə fəlsəfə doktoru, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail: yaxshi.seli@bk.ru

ORUCOVA Həvva
doktorant, Bakı Dövlət Universiteti
e-mail: havva.orucova@bsu.edu.az
ORCID: https://orcid.org/0009-0000-8384-7108

OSMANOVA Ləman
doktorant, Naxçıvan Dövlet Universiteti
e-mail: lemanerebqizi@gmail.com
ORCID: https://orcid.org/0009-0005-4807-5460

SƏRDAROVA Mehriban
doktorant, Azərbaycan Dövlət Pedaqoji Universiteti
e-mail: mehribanserdarova@mail.ru
ORCID: https://orcid.org/0009-0000-8876-7051

ŞİRİNOV Elvin
doktorant, Azərbaycan Turizm və Menecment Universiteti
e-mail: elvin.shirinov008@gmail.com

VƏLİYEV Sahib
tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
e-mail: s.valiyev70@gmail.com

YUSİFOVA Tünzalə
filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
e-mail: tunzale_veliqizi@mail.ru

D Ü Z Ə L İ Ş L Ə R

YAZI QAYDALARI:

1. Məqalələr Times New Roman-la, 1,5 interval və 14 şriftlə yazılmalıdır.

2. Parametrlər aşağıdakı qaydada olmalıdır:

Aşağı – 2
Yuxarı – 2
Sağ – 3
Sol – 1

Abzas 1 sm. olmalıdır.

3. Başlıq:

Öncə məqalənin adı, 1 sətir boşluqdan sonra müəllifin adı verilir. Məqalənin adı bütün hərflər böyük olmaqla qara (bold) ilə verilir. Məqalənin adı ortada, müəllifin adı sağda qara ilə olmalıdır. Soyadının bütün hərfləri qara ilə və böyük hərflərlə verilməlidir, məsələn:

DİDAKTİK VÜCUDNAMƏLƏR

Elmira MƏMMƏDOVA

4. Məqalənin yazıldığı dildəki açar sözlər müəllifin adından sonra aşağıdakı qaydada 10 şriftlə, 1 sətir öncədən, 1 sətir sonradan ara verilməklə yazılmalıdır:

Açar sözlər: *Türk ədəbiyyatı, vücudnamə, yaşnamə, əlifnamə*

5. Müəllifin elmi dərəcəsi, işlədiyi yer və e-mail adresi soyadının qarşısına ulduz (*) işarəsi qoyulmaqla səhifə sonunda **kursivlə** verilir, məsələn,

filologiya üzrə fəlsəfə doktoru, Bakı Avrasiya Universiteti
e-mail: mamedovaelmira4@gmail.com

6. Məqalələr daxili bölgülərlə verilməlidir: **Giriş, I, II... və Nəticə**. Paraqraflar adlandırılmalıdır, məsələn,

Giriş
1. Türk ədəbiyyatında vücudnamələr
2. Öyüdnamə məsnəvisinin arxitektonikası və məzmun özəllikləri
Nəticə

Bu adlandırmalar qara şriftlə fərqləndirilməli və adlardan öncə 1 sətir ara verilməlidir.

7. Ədəbiyyat kod sistemi ilə verilməlidir: ya istifadə ardıcıllığı və ya əlifba sırası əsas götürülməlidir. Başqa qaydalar qəbul edilməyəcək.

Mətn içində istinadlar bu qaydada veriləcək: (3, s. 15)

Birinci rəqəm istinad edilən ədəbiyyatın kod nömrəsi olmalıdır. Vergül və nöqtədən sonra ara verilməlidir.

Ədəbiyyat sözü qara və kursivlə yazılmalı, öncə bir sətir ara verilməli və ortada olmalıdır, məsələn**,**

Ədəbiyyat:

Ədəbiyyat siyahısı əllə deyil, avtomatik olaraq, nömrələnməlidir. Ədəbiyyatın sırası 1 sm. sağa doğru çəkilməli və sol sıra çıxıntısız olmalıdır, məsələn,

Kitab adı:

1. Araslı H. İmadəddin Nəsimi: həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1972, 200 s.

Məqalə adı:

1. Əliyarlı S. Milli hərəkatımızın ilkin dönəmləri // Azərbaycan, 1992, №9-10, s.138-148.

Konfrans materialları üçün:

1. Gender: Demokratiya, Sülh Mədəniyyəti, Təhsil / II Respublika elmi-praktik konfransının materialları. Bakı: Səda, 2005, s.23-25

8. Xülasələr üç dildə yazılmalıdır. Azərbaycan, rus və ingilis. Öncə müəllifin adı, növbəti sətirdə məqalənin adı qara şriftlərlə verilməlidir. Müəllifin adı qara və sağda, məqalənin adı ortada qara və kursivlə yazılmalıdır. Məsələn,

Summary

Saadat Shikhiyeva

Nasimi's Hagiographic Personality

Müəllif adından öncə 1 sətir ara verilməlidir.

8. Mətndə şeirlərdən istifadə olunmuşsa, şeirlər 1 sətir öncə və bir sətir sonra olmaqla mətndən ayrılmalıdır. Şeirlər kursiv və qara ilə verilməli, 2 sm. sağa doğru çəkilməlidir. Məsələn,

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

MÜHÜM QEYDLƏR:

- Bu qaydalara uyğun yazılmayan, orfoqrafik, imla və ya üslub xətaları olan məqalələr qəbul edilməyəcək.
- Elmi dərəcəsi olmayanların məqalələrini elmi rəhbərlərinin oxuyub imzalaması vacibdir.
- Bütün məqalələr bir rəy və şöbə müzakirəsinin protokolundan çıxarış ilə kağızda və elektron variantda təqdim edilməlidir.

ПРАВИЛА НАПИСАНИЯ:

1. Статьи должны быть написаны в Times New Roman, с интервалом 1,5 шрифтом 14
2. Параметры должны быть в следующем порядке:
Внизу – 2
Наверху – 2
Справа – 3
Слева – 1
Абзац – 1 см

3. Название:
Вначале печатается название статьи, с интервалом через одну строчку – имя автора. Название статьи целиком пишется заглавными буквами, выделяется жирным шрифтом (bold). Название статьи размещается посредине, имя автора справа жирным шрифтом. Фамилия целиком пишется заглавными буквами жирным шрифтом, например:

ДИДАКТИЧЕСКИЕ ВЮДЖУТНАМЕ

Эльмира МАМЕДОВА

4. С интервалом в одну строчку до и после имени автора на языкенаписания статьи представляются ключевые слова шрифтом 10 в нижеследующем порядке:

Ключевые слова: *тюркская литература, вюджутнаме, летопись, алифнаме*

5. Научная степень автора, место работы и e-mail адрес пишутся в конце страницы ***курсивом,*** со звездочкой (*) перед фамилией, например:
доктор философии по филологии, Бакинский Евразийский Университет
e-mail: mamedovaelmira4@gmail.com

6. Статья внутри делится на разделы (части): Вступление, **I, II... и Заключение.** Параграфы должны быть названы, например,

Вступление
1. **Вюджутнаме в тюркской литературе**
2. **Особенности архитектоники месневи «Оюднаме» и содержания**
Заключение

Эти названия должны быть выделены жирным шрифтом и с интервалом в 1 строчку после названия.

7. Литература должна быть представлена по кодовой системе: за основу берется или порядок использования, или алфавитный порядок. Другие правила не принимаются.
Ссылки внутри статьи даются в следующем порядке: (3, с. 15)
Первая цифра обозначает кодовый номер литературы, на которую дела- ется ссылка. После точки с запятой – пробел.
Слово «Литература» должно быть написано курсивом и жирным шриф- том, перед ним и после должен быть пробел в одну строчку, например,

Литература:

Список литературы должен быть пронумерован автоматически. Список лите- ратуры располагается со сдвигом 1 см вправо и левый ряд должен быть без отступа, например,

Название книги:

1. Араслы Г.Имадеддин Насими: жизнь и творчество. Баку: Азернешр, 1972, 200 с.

Название статьи:

1. Алиярлы С. Первые повороты в национальном движении // Азербайджан, 1992, №9-10, с. 138-148.

Для материалов конференции:

1. Гендер: Демократия, Культура Мира. Образование / материалы II научно-практической конференции. Баку: Седа, 2005, с.23-25

8. Резюме должно быть написано на трех языках: азербайджанском, русском и английском. Вначале имя автора, на следующей строчке название статьи жирным шрифтом. Имя автора пишется справа, жирным шрифтом и курсивом.Например,

Summary

Saadat Shikhiyeva

Nasimi's Hagiographic Personality

Перед именем автора пробел 1 строчка.

9. В случае использования в статье стихов, они должны до и после выделяться интервалом в 1 строчку. Стихи должны быть напечатаны курсивом и жирным шрифтом, со сдвигом вправо на 2 см. например,

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

ВАЖНЫЕ ЗАМЕТКИ:

- Статьи, написанные не в соответствии с этими требованиями, имеющие орфографические и стилистические погрешности, приняты не будут.
- Статьи, написанные авторами без научной степени, должны быть прочитаны и подписаны научным руководителем.
- Ко всем статьям должны быть представлены один отзыв и выписка из протокола обсуждения в напечатанном и электронном варианте.

RULES OF WRITING:

1. The text must appear in Times New Roman, 1.5 spaced, size 14.

2. Settings should be as following:

Down – 2
Up – 2
Right – 3
Left – 1

Paragraph should be 1 cm.

3. Title

Title must be written first, after 1 line space author's name. It may appear in bold and all letters uppercase. It must be in the middle, the author's name in bold in the right.

All the letters of the last name must be given capitalized and bold, for example:

DIDACTIC VUJUDNAMES

Elmira MAMMEDOVA

4. The keywords written as the same language with the article must follow author's name: size 10, space 1 line before and 1 line after.

Keywords: *Turkish literature, vujudname, age, elifname*

5. The author's academic degree, place of work and e-mail address may appear at the end of the page in italic with an asterisk sign (*) in front of the surname, for example,

PhD, Baku Eurasian University
e-mail: mamedovaelmira4@gmail.com

6. Articles must be given with internal divisions: **Introduction, I, II... and Summary**. Paragraphs must be given names, for example,

Introduction
1. Vujudnames in Turkish literature
2. The architectonics and content aspects of Oyudname masnavi
Summary

Those nomenclatures must be differentiated by using bold shrift and before the names must appear a line space.

7. The literature must contain code system: it should be based on either the usage of sequelize or alphabetical order. The other rules will not be accepted.

In-text citations should be as following: (3, p. 15)

The first number should be the code number of the referred literature. It is important to put an interval after the comma and dot.

Sources must be written in bold, italic fonts in the middle, there must be an interval before it, for example,

***Sources*:**

The reference list must be numbered automatically, not by hand. It has to be moved 1 cm to the right and left line should not be protrusion, for example,

The name of the book:

1. Araslı H. İmadeddin Nesimi: life and creativity. Bakı: Azerneshr, 1972, 200 p.

The name of the article:

1. Aliyarlı S. The initial periods of our national movement // Azerbaijan, 1992, №910, p.138-148.

For conference materials:

1. Gender: Democracy, Culture of Peace, Education / II Republican scientific-practical conference. Baku: Sada, 2005, p. 23-25

8. Resumes must be written in three languages: Azerbaijani, Russian and English. First, the author's name, and in the next line title of the article may appear bold. The author's name should be written in the right, in bold, the title of the article in the middle, in bold and italic. For example,

Summary

Saadat Shikhiyeva

Nasimi's hagiographic personality

One line interval before the author's name.

9. If the text includes poetries, there must be one line interval before and after them. They may appear in bold and italic, and must be moved 2 cm to the right. For example,

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri ləmakan mənəm, kövnü məkanə sığmazam.

IMPORTANT NOTES:

- The articles which don't match those criterias, with orthographic, writing or stylistic errors, won't be accepted.
- The supervisors of the authors without academic degrees have to read and sign the article.
- All articles should be submitted as paper and electronic version with one reference and an extract from the department.

YAZI KURALLARI:

1. Makaleler Times New Roman, 1.5 aralık ve 14 punto ile yazılmalıdır.

2. Ayarlar aşağıdaki gibi olmalıdır:

Aşağı – 2
Yukarı – 2
Sağ – 3
Sol – 1

Paragraflar 1 cm girintiyle başlamalıdır.

3. Başlık:

İlk olarak makalenin başlığı 1 satır boşluktan sonra siyah ve koyu renkte olmalıdır. Makalenin başlığı ortada, yazarın ismi sağa dayalı ve siyah olmalıdır. Soyadı tamamı büyük harflerle ve siyah yazılmalıdır, örneğin:

AHLAKİ VÜCUTNAMELER

Elmira MAMMEDOVA

4. Makalenin anahtar kelimeleri aşağıdaki gibi 1 satır boşluktan sonra italik yazılmalıdır:

***Anahtar kelimeler**: Türk edebiyatı, vücut, ihtiyar olma, alfabe*

5. Yazarın akademik unvanı, çalışma yeri ve e-posta adresi, soyadından sonra bir yıldız işareti (*) koyulmakla ilk sayfanın sonunda italik olarak yazılmalıdır, örneğin,

Dr. Doç., Bakü Avrasya Üniversitesi
e-mail: mamedovaelmira4@gmail.com

6. Makaleler ana metnin bölümleriyle verilmelidir: Giriş, I, II Paragraflar... ve Sonuç, örneğin;

Giriş
1. Türk edebiyatında vücutname
2. Öğütname mesnevisinin strüktürü ve içerik özellikleri
Sonuç

Bu başlıklar siyah fontla, metinden önce tek satır aralıklı olmakla yazılmalıdır.

7. Edebiyat kod sistemiyle verilmelidir: kullanım sırası veya alfabetik sıraya göre. Diğer kurallar kabullenmeyecektir.

Metindeki referanslar bu biçimde olmalıdır: (3, s. 15)

İlk rakam, başvurulan literatürün kod numarası olmalıdır. Virgül veya noktadan sonra ara verilmelidir.

Kaynakça kelimesi siyah, ortada, tamamı büyük harflerle ve önceden tek satır aralıklı olmakla yazılmalıdır, örneğin,

Kaynakça:

Literatür listesi manuel olarak değil, otomatik olarak numaralandırılmalıdır. Edebiyat sırası 1 cm. sağa doğru çekilmeli ve çıkıntısız olmalıdır, örneğin,

Kitap başlığı:

1. Araslı H. İmadeddin Nesimi: hayat ve yaratıcılığı. Bakü: Azerneşr, 1972, 200 s.

Makale Başlığı:

1. Aliyarlı S. Ulusal Hareketin erken dönemleri // Azerbaycan, 1992, №9-10, s. 138-148.

Sempozyum metinleri için:

1. Gender: Demokrasi, Barış Kültürü, Eğitim / II Cumhuriyet Bilimsel-Pratik Konferansından Materyaller. Bakü: Sada, 2005, s. 23-25.

8. Özetler üç dilde yazılmalıdır: Azerbaycan Türkçesi, Rusça ve İngilizce. Önce yazarın ismi, sonra makalenin başlığı siyah renkte verilmelidir. Yazarın adı siyah renkte ve sağda, makalenin başlığı ortada siyah ve italik olmalıdır. Örneğin,

Özet

Saadat Shikhiyeva

Nasimi'nin Menkıbevi Kişiliği

Yazar adı önceden bir satır aralıklı verilmelidir.

9. Metinde şiirler kullanılıyorsa, şiirler metinden önce ve sonra bir satır aralıkla yazılmalıdır. Şiirler italik, siyah, 2 cm. sağa doğru çekilmekle yazılmalıdır. Örneğin,

Mende sığar iki cahan, men bu cahane sığmazam,
Gövheri lamekan menem, kövnü mekane sığmazam.

ÖNEMLİ NOTLAR:

- Bu kurallara uygun olarak yazılmayan, yazım ya da üslup hataları olan makaleler kabul edilmeyecektir.
- Akademik unvanı olmayanların makalelerinin danışmanları tarafından okunup imzalanması gerekmektedir.
- Tüm yazılar, bir hakem önerisi ve bölüm toplantısının protokolünden alıntıyla birlikte basılı ve elektronik versiyonlarda sunulmalıdır.

Texniki redaktor: *Təranə İbadova*
Web-redaktor: *Əmiraslan Vəlizadə*
Korrektor: *Vüsalə Qasımova*

Ünvan: Bakı şəh., Akad. H.Əliyev küç., 135 A
e-mail: civilizationjournal@gmail.com
WhatsApp: +9940776328388

"Müəllim" nəşriyyatı

Kağız formatı: 60 84 1/8. 25 ç.v.
Sayı: 100
Çapa imzalandı: 26 dekabr 2025.